

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

28 noyabr 2025-cü il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

**BDU-nun rektoru və nümayəndə heyəti “QS Higher Ed Summit: Asia Pacific 2025” tədbirində iştirak edir**
→Səh.3

**Bakı Dövlət Universitetinə “QS 5 Stars” mükafatı təqdim edilib**
→Səh.3

**BDU və Malayziyanın Asiya Sakit Okean Texnologiya və İnnovasiya Universiteti arasında anlaşma memorandumu imzalanıb**
→Səh.4

**BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin həmtəşkilatçılığı ilə Respublika konfransı keçirilib**
→Səh.5

**BDU-da “Coğrafi ekologiya: nəzəriyyə, metodologiya və praktika” mövzusunda Respublika elmi konfransı keçirilib**
→Səh.7

**BDU-da “Zəfərə gedən yol” adlı tədbir keçirilib**
→Səh.8




**BDU-nun rektoru Qazaxıstan Prezidentinin iştirakı ilə keçirilən “Qazaxıstan – akademik bilik məkanı Forumunda çıxış edib**
→Səh.2



**BDU rektoru Satbayev adına Qazax Milli Texniki Tədqiqat Universitetinin Astanada filialının açılış mərasimində iştirak edib**
→Səh.2



**BDU ilə Çinin Tianshui Pedaqoji Universiteti arasında əməkdaşlıq imkanları müzakirə olunub**
→Səh.3



**Çin Xalq Respublikasının Şanxay Siyasi Elmlər və Hüquq Universitetinin nümayəndə heyəti BDU-da**
→Səh.5

**BDU ilə Koreyanın Sejonq Universiteti arasında anlaşma memorandumu imzalanıb**
→Səh.12




# BDU-da Zəfər Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları Universitetin əsas tədris binasında Ümummilli Lider Heydər Əliyevin büstü və BDU-nun şəhid məzunlarının xatirəsinə həsr olunmuş guşənin önünə gül dəstələri qoyublar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra BDU TV-nin Zəfər Günü ilə əlaqədar hazırladığı videoçarx nümayiş etdirilib.

BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, 8 Noyabr xalqımızın öz milli dövlətçiliyi ilə qürur hissi keçirdiyi, fəxr etdiyi tarixi bir gündür, müasir tariximizdə böyük bir mərhələnin başlanğıcıdır. Bu gün bir vaxtlar Ulu Öndər Heydər Əliyevin gələcəyə inamla söylədiyi “Bizim əsas problemimiz işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir” ifadəsinin qəhrəman oğullarımızın əzmi, iradəsi və qanı ilə gerçəkləşdiyi bir məqamdır: “Vətənin azadlığı uğrunda canından və qanından keçmiş – şəhid olmuş, yaralanmış, misilsiz hünər göstərmiş hər bir əsgər və zabitin xatirəsini dərin ehtiramla anırıq. Onların adları xalqımızın yaddaşında cəsarət və fədakarlıq rəmzi kimi əbədi yaşayacaq. Təxminən 30 il ərzində torpaqlarımızın 20%-nin işğal altında qalmasına baxmayaraq, xalqımız ədalətə olan inamını heç vaxt itirmədi, haqq-ədalətin bərpasını səbr və təmkinlə gözlədi. Beynəlxalq aləmdə vəziyyətin sürətlə dəyişdiyi bir dönəmdə Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında öz dövlətçiliyini möhkəmləndirməyi, ordusunu gücləndirməyi, özünün dirçəliş və inkişaf dövrünün təməlini qoya bildi. Müdrik dövlət xadimi Heydər Əliyevin başlatdığı bu konstruktiv siyasət onun layiqli davamçısı, ölkəmizi tarixi qələbəyə inamla aparan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. 2020-ci ilin 27 sentyabrında atəşkəs rejimini kobudcasına pozaraq, yaşayış məntəqələrimizi iriçaplı silahlardan və artilleriyadan istifadə edərək intensiv atəşə tutan Ermənistan silahlı qüvvələrinə qarşı Azərbaycan ordusu bütün cəbhə boyunca əks-hücum əməliyyatına başladı və 44 gün ərzində tarixin axarını dəyişdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuz parlaq hərbi strategiya, texniki üstünlük, nizam-intizam və vətənpərvərlik nümunəsi göstərdi. Müharibənin hər günü qəhrəmanlıq və birlik salnaməsinə çevrildi. 8 noyabr 2020-ci ildə Ordumuz Qarabağın incisi, Azərbaycan mədəniyyətinin beşiyi və xalqımızın mənəvi məbədi olan Şuşa şəhərini azad etdi. Həmin andan etibarən üçrəngli bayrağımız yenidən Qarabağ səmasında qürurla dalğalanır və bu bayraq heç bir zaman enməyəcək”.

Qələbədən sonra Azərbaycanın yeni bir tarixi dövrə — dirçəliş dövrünə qədəm qoyduğunu deyən rektor Elçin Babayev azad edilmiş torpaqlarda dayanıqlı inkişaf, innovasiya və yüksək mədəniyyət prinsiplərinə əsaslanan yeni bir həyatın başlandığını deyib: “Böyük qayıdış”, “Ağıllı şəhər” və “Yaşıl enerji zonası” proqramları dünyaya nümayiş etdirir ki, Azərbaycan təkcə müharibədə deyil, həm də sülh quruculuğu prosesində qalibdir. Biz doğma torpaqlarımıza elmi, təhsili və mədəniyyəti bərpa edən yaradıcı missiya ilə qayıdırıq. Artıq döyüş meydanındakı qələbə zehinlərdə, qəlblərdə və mədəniyyətdə Qələbə kimi əbədiləşir.

*(ardı 9-cu səhifədə)*

**BDU-nun Prezident təqaüdçüsü üçün uğur formulu: “Çalışmaq, intizam və inam”**
→Səh.23

# BDU-nun rektoru Qazaxıstan Prezidentinin iştirakı ilə keçirilən “Qazaxıstan – akademik bilik məkanı Forumunda çıxış edib

***Oktyabrın 31-də Qazaxıstanın paytaxtı Astanada “Qazaxıstan – akademik bilik məkanı” adlı Strateji Tərəfdaşlar Beynəlxalq Forumu keçirilib. Qazaxıstan Respublikasının Prezidenti cənab Kasım-Jomart Tokayev, dövlət və hökumət nümayəndələri, eləcə də dünyanın bir sıra aparıcı universitetlərinin və müxtəlif qurumların rəhbərlərinin qatıldığı Forumda BDU-nun rektoru Elçin Babayev də iştirak edib.***




Prezident Kasım-Jomart Tokayev Forumun açılışında çıxış edərək, təhsil və elmin sərhədləri aşan, xalqları birləşdirən strateji sahələr olduğunu vurğulayıb. O qeyd edib ki, Qazaxıstanda son illərdə elm və təhsil sahəsinə ayrılan vəsaitləri dəfələrlə artırıb, ali təhsil müəssisələrinin müstəqilliyi genişləndirilib və hazırda gənc alimlərin fəaliyyətinə xüsusi dəstək verilir.

Prezident həmçinin süni intellekt texnologiyalarının inteqrasiyası, rəqəmsal transformasiya, təhsilin beynəlmiləlləşdirilməsi və gənclərin potensialının reallaşdırılması istiqamətində həyata keçirilən layihələrdən söhbət açıb. O, AI-Sana proqramı çərçivəsində artıq 540 mindən çox tələbənin süni intellekt üzrə təhsil aldığını, ölkədə AI Universitetinin açılması üzrə hazırlıqların aparıldığını bildirib. Tokayev həmçinin OpenAI şirkəti ilə əldə edilən razılaşmalara əsasən, ChatGPT texnologiyasının təhsil prosesinə inteqrasiyası istiqamətində pilot layihənin başladıldığını vurğulayıb.

Prezident çıxışında Qazaxıstanın ali təhsil ixracı mərkəzinə çevrilməsi, 100 min xarici tələbənin Qazaxıstan universitetlərinə cəlb edilməsi, universitetlərin beynəlxalq reytinqlərdə yüksəlişi, elmi tədqiqatların real sektorla inteqrasiyası və texnologiya transferi ofislərinin yaradılması kimi mühüm prioritetlərdən danışıb.

BDU-nun rektoru Elçin Babayev Forumun plenar hissəsində çıxış edərək Azərbaycan ilə Qazaxıstan arasında təhsil, elm və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinin vacibliyindən bəhs edib.

Rektor çıxışında BDU ilə Əl-Fərabi adına Qazax Milli Universiteti, Satbayev Universiteti, Qumilyov adına Avrasiya Milli Universiteti, Yessenov adına Xəzər Dövlət Universiteti və Atırau Dövlət Universiteti arasında əməkdaşlığın genişləndiyini, bu əlaqələrin ənənəvi akademik mübadilədən birgə tədqiqat klasterlərinə və ikili diplom proqramlarına doğru inkişaf etdiyini qeyd edib. BDU-nun Qazaxıstan universitetləri ilə birgə fəaliyyətinin bərpa olunan enerji, rəqəmsal texnologiyalar, süni intellekt, ətraf mühitin mühafizəsi və mədəni irs tədqiqatları kimi istiqamətləri əhatə etdiyini bildirib.

Rektor çıxışında həmçinin Azərbaycan və Qazaxıstanın birgə səylərlə Türk Dünyasında yeni bilik körpüsü yarada biləcəyini vurğulayıb və bu məqsədlə Ortaq Akademik Şura, Türk Dünyası Tədqiqat və İnnovasiya Fondu, Gənc Alimlər Şəbəkəsi kimi təşəbbüslərin yaradılmasını təklif edib.

Forumda həmçinin Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek, Quacquarelli Symonds (QS) beynəlxalq reytinq agentliyinin prezidenti Nuntsio Kvakkarelli, Pekin Dillər və Mədəniyyət Universitetinin prezidenti Pen Duan, Cardiff Universitetinin prezidenti Vendi Larner, Woosong Təhsil Fondunun Himayədarlar Şurasının sədri Kim Son Kyonq, Minerva Universitetinin prezidenti Ben Nelson, M. Kozibayev adına Şimali Qazaxıstan Universitetinin rektoru Yerbol Isakayev və digər beynəlxalq elm və təhsil nümayəndələri çıxış ediblər.

Forum çərçivəsində iştirakçılar qlobal və regional təhsil tendensiyaları, süni intellektin təhsildə rolu, universitetlərin innovasiyalarda iştirakı və elmi diplomatiyanın gücləndirilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# BDU-nun rektoru Atırau Neft və Qaz Universitetinin rəhbərliyi ilə təhsil və tədqiqat sahəsində əməkdaşlığı müzakirə edib

***Noyabrın 1-də Astanada keçirilən “Qazaxıstan – akademik bilik məkanı” Strateji Tərəfdaşlar Forumu çərçivəsində BDU-nun rektoru Elçin Babayev ilə Safi Utebayev adına Atırau Neft və Qaz Universitetinin İdarə Heyətinin sədri – rektoru professor Gülzada Şakulikova arasında görüş keçirilib.***

Səmimi və işgüzar şəraitdə keçən görüşdə tərəflər iki universitet arasında təhsil və elmi-tədqiqat sahəsində əməkdaşlığın genişləndirilməsi, eləcə də birgə innovativ layihələrin reallaşdırılması məsələlərini müzakirə ediblər. Xüsusilə neft-qaz mühəndisliyi, ekologiya, regionun sosial-iqtisadi inkişafı, rəqəmsal transformasiya və təhsil texnologiyaları kimi prioritet istiqamətlərdə birgə fəaliyyətin perspektivləri diqqət mərkəzində olub.

Tərəflər həmçinin doktorantura səviyyəsində birgə rəhbərlik proqramlarının tətbiqi, birgə elmi məqalələrin hazırlanması, beynəlxalq elmi konfranslarda ortaq çıxışların təşkili, tələbə və müəllim mübadiləsinin genişləndirilməsi kimi istiqamətlərdə əməkdaşlığın dərinləşdirilməsi barədə razılığa gəliblər.

Rektor Elçin Babayev vurğulayıb ki, BDU Atırau Neft və Qaz Universiteti ilə əlaqələri elmi nəticələrə və praktiki tətbiqlərə yönəlmiş konkret layihələr əsasında inkişaf etdirmək niyyətindədir. O qeyd edib ki, bu əməkdaşlıq təkcə iki universitet arasında deyil, həm də Azərbaycan və Qazaxıstan arasında regional inkişaf, innovasiya və enerji elmləri sahəsində qarşılıqlı tərəfdaşlığın möhkəmlənməsinə mühüm töhfə verəcək.

Öz növbəsində Gülzada Şakulikova da BDU ilə əlaqələrin daha da gücləndirilməsinin vacibliyini qeyd edərək, bu əməkdaşlığın Qazaxıstanın qərb regionu üçün strateji əhəmiyyət daşıdığını bildirib. O, enerji təhlükəsizliyi, alternativ enerji mənbələrinin tədqiqi, yaşıl texnologiyaların tətbiqi və Xəzər dənizi hövzəsində ekoloji problemlərin öyrənilməsi sahələrində birgə tədqiqat qruplarının yaradılmasının əhəmiyyətini vurğulayıb.

Gülzada Şakulikova əlavə edib ki, iki universitet arasında gənc tədqiqatçılar və tələbələr üçün birgə yay və qış məktəblərinin, praktiki təlim proqramlarının təşkil edilməsi regionun elmi potensialının inkişafına xidmət edəcək və gələcəkdə Qazaxıstan-Azərbaycan akademik əməkdaşlığının mühüm istiqamətlərindən birinə çevriləcəkdir.

# BDU rektoru Satbayev adına Qazax Milli Texniki Tədqiqat Universitetinin Astanada filialının açılış mərasimində iştirak edib

***Noyabrın 2-də Astanada Qazaxıstanın aparıcı ali təhsil müəssisələrindən biri olan Satbayev adına Qazax Milli Texniki Tədqiqat Universitetinin yeni filialının açılış mərasimi keçirilib.***

Tədbirdə BDU-nun rektoru Elçin Babayev də iştirak edib.

Açılış mərasimində Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirliyinin nümayəndələri, dövlət qurumlarının rəsmiləri, ali təhsil müəssisəsinin rəhbərləri və sənayeyönümlü təşkilatların təmsilçiləri iştirak ediblər. Mərasimdə çıxış edən natiqlər yeni filialın fəaliyyətə başlamasını Qazaxıstanın elmi-texnoloji inkişafına və regionda innovasiya yönümlü təhsil mühitinin formalaşmasına mühüm töhfə kimi dəyərləndiriblər.



Yeni filialın yaradılması Qazaxıstanın ali təhsil sisteminin gücləndirilməsinə, müasir texnoloji bacarıqlara malik mütəxəssislərin hazırlanmasına və beynəlxalq elmi əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcək.

# BDU rektoru Satbayev Universitetinin rəhbərliyi ilə əməkdaşlıq perspektivlərini müzakirə edib

***Noyabrın 1-də Astanada keçirilən “Qazaxıstan – akademik bilik məkanı” Strateji Tərəfdaşlar Forumu çərçivəsində BDU-nun rektoru Elçin Babayev ilə Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetinin İdarə Heyətinin sədri - rektoru Meiram Begentayev arasında fikir mübadiləsi aparılıb.***

Tərəflər müasir elmi prioritetlər kontekstində mühəndislik, nanotexnologiyalar, materialşünaslıq və tətbiqi elmlər istiqamətlərində birgə tədqiqatların aparılması, eləcə də hər iki universitetdə texnologiya transferi mərkəzlərinin fəaliyyətinin koordinasiyası məsələlərinə toxunublar.

2021-ci ildə imzalanmış müqavilə əsasında hazırda BDU-nun Kimya fakültəsi ilə Satbayev Universitetinin Kimya və Biotexnologiyalar İnstitutu arasında “Neft kimyası” ixtisası üzrə birgə magistratura proqramı icra olunur. Görüşdə proqramın səmərəliliyinin artırılması, yeni laborator təlim modellərinin tətbiqi və gələcəkdə doktorantura səviyyəsində ortaq proqramların yaradılması kimi təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

# BDU-nun rektoru və nümayəndə heyəti “QS Higher Ed Summit: Asia Pacific 2025” tədbirində iştirak edib

***4–6 noyabr 2025-ci il tarixlərində Cənubi Koreyanın paytaxtı Seul şəhərində ali təhsil sahəsində Asiya-Sakit okean regionunun ən nüfuzlu beynəlxalq ali təhsil tədbirlərindən biri – “QS Higher Ed Summit: Asia Pacific 2025” keçirilib. Sammitin ev sahibi və strateji tərəfdaşı Koreya Universiteti olub.***

BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti sammitdə iştirak edir. Üç gün davam edən sammit çərçivəsində 180 məruzəçinin çıxışlarının nəzərdə tutulduğu sessiyalarda ali təhsil sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, yeni tədris və tədqiqat modellərinin tətbiqi, həmçinin universitetlərin qlobal inkişaf proseslərində artan roluna dair müzakirələr aparılıb. Sammitin açılış mərasimi Koreya Universitetinin "Inchon Memorial Hall Auditorium" zalında baş tutub. Plenar sessiyada “Quacquarelli Symonds” (QS) şirkətinin baş vitse-prezidenti Ben Sowter və Koreya Universitetinin prezidenti Dong-One Kim açılış nitqləri ilə çıxış ediblər.

Tədbirin fəxri qonağı – Birləşmiş Millətlər Təşkilatının səkkizinci Baş katibi Pan Gi Mun (Ban Ki-moon) ali təhsilin qlobal dayanıqlı inkişafda və beynəlxalq əməkdaşlığın gücləndirilməsində roluna həsr olunmuş əsas çıxışı ilə sammitin ilk sessiyasını açıb. Daha sonra “Happiness Planet” şirkətinin baş icraçı direktoru Dr. Kazou Yano tərəfindən texnologiya və insan rifahı mövzusunda açılış məruzəsi təqdim olunub.

Sammit çərçivəsində regionun və dünyanın müxtəlif ölkələrindən olan universitet rəhbərləri, akademik heyət və ekspertlər təhsilin gələcəyi, rəqəmsal transformasiya, innovasiya və beynəlxalq tərəfdaşlığın yeni modelləri barədə fikir mübadiləsi aparılıb. BDU nümayəndə heyəti də ali təhsildə qlobal qabaqcıl təcrübələrin öyrənilməsi, innovativ yanaşmaların tətbiqi və Universitetin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi məqsədilə sammitin müzakirə və sessiyalarında fəal iştirak edib, həmçinin tədbir çərçivəsində Koreya Universitetində yaradılmış müasir infrastruktur və akademik mühitlə tanış olub.

Qeyd edək ki, artıq 21 ildir təşkil olunan bu sammit müxtəlif regionların ali təhsil liderlərini, biznes və dövlət nümayəndələrini, həmçinin akademik mühitin tanınmış ekspertlərini bir araya gətirərək, ali təhsildə əməkdaşlıq və innovasiyanın inkişafı üçün aparıcı platforma kimi tanınır. Bu il Seulda keçirilən tədbirə 1500-dən çox iştirakçı qatılıb. “QS Higher Ed Summit: Asia Pacific 2025” sammiti Asiya-Sakit okean regionunda ali təhsilin inkişafına dair qabaqcıl ideyaların paylaşılması və universitetlər arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm beynəlxalq platformadır. Builki sammit “Nəsillərarası uğura ilham vermək: bacarıqların və tədqiqat mühitinin inkişafı” mövzusuna həsr olunub.

# BDU ilə Çinin Tianshui Pedaqoji Universiteti arasında əməkdaşlıq imkanları müzakirə olunub

***Noyabrın 5-də BDU-da Çin Xalq Respublikasının Tianshui Pedaqoji Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***



Görüşdə BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, rektorun elm və təhsil üzrə müşaviri Aydın Kazımzadə və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Çin Xalq Respublikasının Tianshui Pedaqoji Universitetinin prezidenti Wang Juying, tədris işləri üzrə direktor Yang Xueliang, Beynəlxalq əməkdaşlıq və mübadilə şöbəsinin sektor müdiri Zhang Na, Elmi tədqiqatların idarə edilməsi ofisinin direktor müavini Jia Yingliang, Ədəbiyyat və mədəniyyətlərarası kommunikasiya fakültəsinin dekanı Yu Liangcai iştirak ediblər.

Qonaqlara Universitetin tarixi, fəaliyyəti, strukturu, tədris və elmi fəaliyyəti barədə ətraflı məlumat verilib. Daha sonra qonaqlar təmsil etdikləri təşkilatın əsas fəaliyyət istiqamətləri barədə danışıblar. Görüşdə iki universitet arasında əməkdaşlıq imkanları müzakirə olunub, bir neçə sahədə ikili diplom proqramlarının qurulması və təcrübə mübadiləsinin vacibliyi vurğulanıb. Görüşdə ali təhsildə potensialın artırılması ilə bağlı müvafiq layihələr təklif olunub.

Tianshui Pedaqoji Universiteti 1959-cu ildə təsis edilib. Universitetin bir akademiya, 18 kollec, 64 tədris bölməsi və 17000-dən çox tələbəsi var.

# BDU-nun təşkilatçılığı ilə Azərbaycanın ali təhsil müəssisələri üçün “Round University Ranking” beynəlxalq təlimi keçirilib

***Noyabrın 12-də BDU-nun təşkilatçılığı ilə “Round University Ranking” (RUR) beynəlxalq reytinq agentliyi tərəfindən Azərbaycanın 25 ali təhsil müəssisəsinin nümayəndələri üçün onlayn təlim keçirilib. Tədbirdə ölkənin aparıcı universitetlərinin beynəlxalq əlaqələr, keyfiyyət təminatı, strateji inkişaf və reytinqlərlə bağlı məsul əməkdaşları iştirak ediblər.***

BDU-nun rektorunun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov son illərdə BDU-da elm, tədqiqat və beynəlmiləlləşmə sahəsində həyata keçirilən strateji təşəbbüslər, beynəlxalq təşkilatlarla qurulan əməkdaşlıqlar, qlobal reytinqlərdə əldə olunan nailiyyətlər və Universitetin davamlı inkişaf hədəfləri barədə ətraflı məlumat verib. Təlimin keçirilməsinin böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Təlimdə iştirakçılara beynəlxalq reytinq təşkilatının nümayəndələri tərəfindən RUR sisteminin məqsəd və prinsipləri, qiymətləndirmə meyarları, məlumatların toplanması, təhlili və təqdim olunması prosesi barədə ətraflı təqdimat edilib. Təlim zamanı ali təhsil müəssisələrinin reytinqlərdə iştirak mexanizmləri, məlumat keyfiyyətinin artırılması yolları və indikatorlara əsaslanan strateji qərarların qəbulunun əhəmiyyəti vurğulanıb.

Ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə iştirak imkanlarını artırmaq, onların qlobal akademik məkanla inteqrasiyasını gücləndirmək, müasir qiymətləndirmə metodologiyaları və məlumat idarəetmə mexanizmləri barədə bilik və bacarıqları təkmilləşdirmək, həmçinin ali təhsildə baş verən qlobal trendlər, yeni yanaşmalar və beynəlxalq təcrübələr haqqında iştirakçıları məlumatlandırmaq məqsədilə keçirilən təlimdə iştirakçılara dünya universitetlərinin reytinqlərdə uğurlu təcrübələri təqdim edilib və əldə olunan biliklərin Azərbaycanın ali təhsil sistemində tətbiqi imkanları müzakirə olunub.

Qeyd edək ki, RUR beynəlxalq reytinq təşkilatı tərəfindən hazırlanan reytinq siyahısında Azərbaycanın 15 ali təhsil müəssisəsi yer alır və bu siyahıda BDU lider mövqedədir.

# Bakı Dövlət Universitetinə “QS 5 Stars” mükafatı təqdim edilib

***Noyabrın 6-da Koreya Respublikasının paytaxtı Seul şəhərində keçirilən “QS Higher Ed Summit: Asia Pacific 2025” tədbiri çərçivəsində Bakı Dövlət Universitetinə “QS 5 Stars” mükafatı təqdim edilib. Bu nüfuzlu beynəlxalq qiymətləndirmə sistemi ali təhsil müəssisələrinin fəaliyyətini çoxsaylı meyarlar üzrə - tədrisin keyfiyyəti, məzunların məşğulluq imkanları, beynəlmiləlləşdirmə, tədqiqat və akademik inkişaf, eləcə də infrastruktur və sosial məsuliyyət sahələrində qiymətləndirir.***

“QS 5 Stars” qiymətləndirilməsi Universitetin demək olar ki, bütün əsas sahələrdə yüksək səviyyədə fəaliyyət göstərdiyini göstərir. Belə ki, bu qiymətləndirmə yüksək səviyyəli tədris, qabaqcıl elmi tədqiqatlar, güclü beynəlxalq əməkdaşlıq, müasir tədris infrastrukturu və tələbə yönümlü yanaşmanın mövcudluğunu təsdiq edir.

# BDU və Özbəkistanın Daşkənd Dövlət Tibb Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 20-də BDU və Özbəkistan Respublikasının Daşkənd Dövlət Tibb Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Daşkənd Dövlət Tibb Universiteti rektoru Şöhrət Boymuradov imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1920-ci ildə qoyulmuş Daşkənd Dövlət Tibb Universiteti Özbəkistanın nüfuzlu universitetlərindən biridir.

# BDU və Malayziyanın Asiya Sakit Okean Texnologiya və İnnovasiya Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 5-də Koreya Respublikasının paytaxtı Seul şəhərində BDU və Malayziyanın Asiya Sakit Okean Texnologiya və İnnovasiya Universiteti (Asia Pacific University of Technology & Innovation - APU) arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

BDU-nun rektoru Elçin Babayev və APU-nun prorektoru Ho Chin Kuan tərəfindən imzalanan sənəd universitetlər arasında elmi-tədqiqat, tədris, innovasiya, rəqəmsal transformasiya və akademik mübadilə sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, ikili diplom proqramlarının hazırlanması, eləcə də birgə beynəlxalq seminar və konfransların keçirilməsi planlaşdırılır.

Tərəflər həmçinin süni intellekt, kibertəhlükəsizlik, mühəndislik və informasiya texnologiyaları kimi prioritet sahələrdə birgə layihələrin icrasına maraq göstərdiklərini ifadə ediblər.




Bu əməkdaşlıq Bakı Dövlət Universitetinin beynəlxalq tərəfdaşlıq coğrafiyasını Cənub-Şərqi Asiya regionu istiqamətində daha da genişləndirərək, innovasiya yönümlü akademik əməkdaşlıqların inkişafına yeni imkanlar açacaqdır.

# BDU-da Konstitusiya Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 12 Noyabr – Konstitusiya Gününə həsr olunmuş tədbir keçirilib.***

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Azərbaycan Respublikasının Konstitusiya Günü müstəqil dövlətçiliyimizin tarixində mühüm əhəmiyyət daşıyır. Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilib və həmin il noyabrın 27-də qüvvəyə minib. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri – müstəqil Azərbaycanın memarı, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir: "5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyamızda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi".

Rektor bildirib ki, ötən 30 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da referendum yolu ilə Azərbaycan Konstitusiyasına bir sıra əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. Bunun nəticəsində Azərbaycan Konstitusiyası daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib: "Biz artıq bu bayramı qürurla, şərəflə, Konstitusiyamızda təsbit olunmuş suverenliyimizin bütün ərazilərimizdə tam bərpa olunduğu, üçrəngli dövlət bayrağımızın 30 ilə yaxın müddətdə işğal altında qalan müqəddəs torpaqlarımızda dalğalandığı tarixi bir şəraitdə qeyd edirik. Artıq hər kəsə bəllidir ki, qalib Azərbaycan dövlətinin hüdudları daxilində yaşayan hər bir vətəndaşımız yalnız və yalnız Konstitusiyamıza əsaslanaraq öz fəaliyyətini həyata keçirə bilər. Bu gün Azərbaycan qalib ölkə, regionun əsas söz sahibi kimi öz gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin siyasi müstəvidə, diplomatik danışıqlarda uğurları, qələbələri davam edir. Dövlətimizin inkişafına təkan verən hüquqi sənədlər, müqavilələr, bəyanatlar imzalanır, azad edilmiş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Bütün bunlar azad, suveren dövlətimizin nüfuzunu günbəgün artırır".



Rektor diqqətə çatdırıb ki, müstəqil Azərbaycanın Konstitusiyasının hazırlanmasında BDU alimləri də iştirak ediblər. BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müdiri Məsumə Məlikova və Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov bu gün də Konstitusiyamızda təsbit olunan hüquqların tələbələrə öyrədilməsində yaxından iştirak edirlər: "BDU-nun "Konstitusiya və Suverenlik İli" ilə bağlı qəbul etdiyi tədbirlər planı uğurla icra edilir. Beynəlxalq konfranslar, seminarlar, dəyirmi masalar təşkil olunur, konstitusiya və suverenliyimizin tarixinə həsr olunmuş nəşrlər hazırlanır. Konstitusiya və suverenliyimizin gənc nəslə təbliği, onun əsas müddəalarının tələbələrə aşılanması, dövlətimizin zəfərlərinin, möhtərəm Pezidentimizin apardığı siyasətin öyrənilməsi və təbliği bu gün hər birimizin əsas vəzifəsi və borcudur".

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, BDU İctimai Nəzarət Şurasının sədri Arzu Nağıyev, millət vəkili Nigar Məmmədova, Bakı Apellyasiya Məhkəməsinin hakimi Vahid Sadıqov, Hüquq fakültəsinin dekanı Zaur Əliyev və Diplomatiya kafedrasının müəllimi Aytən Qurbanova çıxış edərək Azərbaycan Konstitusiyasının dövlət quruculuğundakı rolu, hüquqi islahatların inkişafı və insan hüquqlarının qorunması sahəsindəki əhəmiyyətindən danışıblar.

# BDU və İndoneziyanın Bina Nusantara (BINUS) Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 4-də Koreya Respublikasının paytaxtı Seulda 4 noyabr 2025-ci il tarixində BDU və İndoneziyanın Bina Nusantara (BINUS) Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

Universitetlər arasında elmi-tədqiqat, tədris, akademik mobillik və mədəni əlaqələrin inkişafını nəzərdə tutan memorandum tərəflər arasında birgə tədqiqat layihələrinin həyata keçirilməsi, tələbə və müəllim mübadiləsinin təşkili, beynəlxalq seminar və konfransların birgə təşkili, həmçinin ikili diplom proqramlarının işlənilməsi istiqamətində əməkdaşlığa xidmət edəcəkdir. Rəsmi görüş zamanı BDU-nun rektoru Elçin Babayev Azərbaycan və İndoneziya arasında dostluq münasibətlərinin təhsil və elm sahəsində də möhkəmlənməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, BINUS Universiteti ilə qurulan tərəfdaşlıq BDU-nun beynəlmiləlləşmə strategiyasına uyğun olaraq Asiya regionu üzrə əlaqələrin genişləndirilməsinə yeni imkanlar açır.

BINUS Universitetinin rektoru Dr. Nelly BDU ilə əməkdaşlığın hər iki universitet üçün faydalı olacağına əminliyini ifadə edib. O, informasiya texnologiyaları, mühəndislik, sosial elmlər, biznes və idarəetmə sahələrində birgə təşəbbüslərin həyata keçirilməsinə maraq göstərdiklərini bildirib. Tədbirin sonunda anlaşma memorandumu imzalanıb. Bu əməkdaşlıq BDU-nun beynəlxalq əlaqələrinin coğrafiyasının Asiya–Sakit okean regionuna genişlənməsinə xidmət edəcəkdir.

# BDU-nun rektoru "QS Eurasia Forum 2025" çərçivəsində sessiyada çıxış edib

***BDU-nun rektoru Elçin Babayev 2025-ci il 25-26 noyabr tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilən "Broadening horizons: Building global bridges in higher education" mövzusuna həsr olunmuş "QS Eurasia Forum 2025" tədbiri çərçivəsində sessiyada çıxış edib. "Masterclass | Building the bridge: How to foster new international partnerships" adlanan sessiyaya QS Agentliyinin regional direktoru Sergey Xristolyubov moderatorluq edib.***

Sessiyada beynəlxalq əməkdaşlıq, ali təhsildə strateji tərəfdaşlıqların formalaşdırılması və dayanıqlı inkişaf modelləri müzakirə olunub. Tədbirdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Rufət Əzizov, Szechenyi Istvan Universitetinin Biznes inzibatçılığı elmləri üzrə Doktorantura Məktəbinin direktoru Laszlo Vasa və "British Council" şirkətinin Özbəkistan nümayəndəliyinin direktor müavini Cəmilə Gülyamova çıxış ediblər.

Çıxışı zamanı Elçin Babayev BDU-nun beynəlxalq əməkdaşlıq strategiyasının Universitetin akademik inkişafına, tədqiqat fəaliyyətinə, institusional dayanıqlılığına və qlobal tanıdılmasına verdiyi töhfələri xüsusi vurğulayıb. Rektor BDU-nun beynəlxalq fəaliyyətinin əsas istiqamətlərini tələbə və müəllim mübadiləsi, beynəlxalq fakültə və institutların yaradılması, ikili diplom proqramlarının həyata keçirilməsi, beynəlxalq qrant layihələrində iştirak, qlobal assosiasiya və şəbəkələrdə təmsilçilik, həmçinin beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıq kimi prioritetlərlə izah edib.

Sessiya iştirakçıları uzunmüddətli tərəfdaşlıqların davamlılığını təmin edən akademik və inzibati struktur bölmələrin rolunu, universitetin beynəlxalq şəbəkələrdə fəal iştirakını, müəllim və tələbə mübadiləsi proqramlarının genişləndirilməsini, eləcə də akademik əməkdaşlıqların səmərəliliyinin artırılması məsələlərini müzakirə ediblər.

# BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin həmtəşkilatçılığı ilə Respublika konfransı keçirilib

***İnformasiya və sənəd menecmenti fakültəsi, Tərtər Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın memarıdır" mövzusunda Respublika konfransı keçirilib. Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla anıblar.***

Tədbirdə BDU Elmi Şurasının qərarı ilə nəşr edilmiş "Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı" Tərtər Rayon İcra Hakimiyyətinə hədiyyə olunub.

Tədbir Tərtər Rayon İcra Hakimiyyətinin iclas zalında davam etdirilib. Əvvəlcə Dövlət himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Qarabağ Zəfərinə həsr edilmiş videoçarx nümayiş olunub.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov konfrans iştirakçılarını salamlayaraq Prezident İlham Əliyev tərəfindən Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin, ideyalarının uğurla həyata keçirildiyini vurğulayıb, 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi və bir gündən də az davam etmiş lokal antiterror əməliyyatları ilə hərb tariximizin yeni və şanlı salnaməsini yazdı. 44 günlük Vətən müharibəsi günlərində rayon əhalisinin göstərdiyi fədakarlıqdan bəhs edən natiq bildirib ki, Vətən müharibəsi dövründə məkrli düşmən Tərtər şəhəri də daxil olmaqla 40 yaşayış məntəqəsinə 16 min 277 top, tank, qrad mərmisi, 21 qadağan olunmuş raket atıb. Bunun nəticəsində 16 mülki şəxs şəhid olub, 63 nəfər isə yaralanıb: "Vətən müharibəsində rayon sakinlərindən 46 hərbi qulluqçu şəhid olub, 57 hərbi qulluqçu yaralanaraq sağlamlığını itirib. 1554 Vətən müharibəsi veteranımız var".

Müstəqim Məmmədov "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş konfransın əhəmiyyətini vurğulayaraq Ümummilli Lider Heydər Əliyevin məzunu olduğu, ölkəmizin və regionun lider ali təhsil müəssisəsi olan BDU ilə Tərtər Rayon İcra Hakimiyyətinin əlaqələrindən bəhs edib, 2023-cü ilin aprel ayında Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Universitetlə birgə təşkil edilmiş silsilə tədbirləri bir daha xatırladıb.

Sonra BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı, Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan, həmin kafedranın dosenti Rasim Süleymanov, YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov və "Yeni Tərtər" qəzetinin redaktoru Svetlana Bağırova konfransın mövzusuna uyğun məruzələrlə çıxış ediblər.

Tədbirdə BDU Elmi Şurasının qərarı ilə nəşr edilmiş "Heydər Əliyev – 100: Biblioqrafik məlumat kitabı" Tərtər Rayon İcra Hakimiyyətinə hədiyyə olunub.

# Çin Xalq Respublikasının Şanxay Siyasi Elmlər və Hüquq Universitetinin nümayəndə heyəti BDU-da

***Noyabrın 14-də Çin Xalq Respublikasının Şanxay Siyasi Elmlər və Hüquq Universitetinin yüksək səviyyəli nümayəndə heyəti BDU-ya rəsmi səfər edib.***

Səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə BDU-nun rektoru Elçin Babayevlə görüşüb. Görüş zamanı iki ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığın genişləndirilməsi, professor-müəllim heyəti və tələbələr üçün mübadilə proqramlarının yaradılması, həmçinin hüquq, iqtisadiyyat, beynəlxalq münasibətlər və informasiya texnologiyaları sahələrində birgə tədqiqat istiqamətləri müzakirə olunub. Rektor Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrinin gücləndirilməsinin vacibliyini qeyd edərək Şanxay Siyasi Elmlər və Hüquq Universiteti ilə əməkdaşlıq imkanlarını yüksək qiymətləndirib.

Daha sonra nümayəndə heyəti BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi və Hüquq fakültəsinin dekanları ilə görüş keçirib. Fakültə rəhbərləri ilə tələbə və müəllimlərin qısamüddətli mübadilə imkanları, birgə seminar və elmi konfransların təşkili kimi mövzular ətrafında müzakirələr aparıblar.

BDU-ya səfər edən nümayəndə heyətinə Şanxay Siyasi Elmlər və Hüquq Universitetinin prorektoru



Pu Mutian, İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Liu Xian, İntizam nəzarəti və audit ofisinin direktoru Ding Yongjian, İnformasiya texnologiyaları ofisinin direktoru Ni Yubin, həmçinin CNISCO – Şanxay Əməkdaşlıq Təşkilatı üzrə Beynəlxalq Mübadilə və Hüquqi Əməkdaşlıq Milli İnstitutunun sədr müavini Zhang Shaoying daxil idi.

Səfər iki universitet arasında elmi və akademik əməkdaşlığın genişləndirilməsi üçün yeni perspektivlər açmaqla yanaşı, tərəflər arasında gələcək fəaliyyət planının hazırlanması barədə qarşılıqlı razılıqla yekunlaşıb.

# BDU nümayəndə heyəti Çinin Anhui Universitetinin Universitet şurasının sədri ilə görüşüb



***Noyabrın 15-də BDU-nun nümayəndə heyəti Pekin şəhərində keçirilən Ümumdünya Çin Dili Konqresində Anhui Universitetinin Universitet şurasının sədri Yu Baotao ilə görüşüb.***

Görüşdə BDU-nun son illər müasir dövrün tələblərinə uyğun inkişafı istiqamətində həyata keçirilən işlər barədə məlumat verilib, Çin universitetləri ilə əməkdaşlığa xüsusi önəm verildiyi diqqətə çatdırılıb. Xüsusilə BDU, Çin Xalq Respublikası Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi və Anhui Universiteti arasında bakalavriatura səviyyəsində "Filologiya" (Çin dili və ədəbiyyatı) ixtisası üzrə birgə ikili diplom proqramına dair üçtərəfli müqavilənin Çin və Azərbaycan arasında təhsil mübadiləsinin təşviqinə, BDU-Anhui Universiteti əməkdaşlığının daha da gücləndirilməsinə töhfə verdiyi bildirilib.

Görüş zamanı Çin dili və ədəbiyyatı ilə yanaşı, digər sahələrdə də qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə olunub.

Nümayəndə heyəti eləcə də Çin Təhsil Nazirliyinin və konqresdə təmsil olunan universitetlərin əməkdaşları ilə müzakirələr aparıblar.

# BDU və Çinin Tianshui Pedaqoji Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 14-də BDU və Çin Xalq Respublikasının Tianshui Pedaqoji Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Tianshui Pedaqoji Universitetinin rektoru Vang Juying imzalayıb.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1959-cu ildə qoyulmuş Tianshui Pedaqoji Universitetinin bir akademiya, 18 kollec, 64 tədris bölməsi və 17000-dən çox tələbəsi var.

# BDU əməkdaşlarının "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adlı dərs vəsaiti nəşr olunub

***Noyabrın 14-də Filologiya fakültəsinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının əməkdaşları - dosent Samirə Mərdanova və filologiya üzrə fəlsəfə doktoru Yeganə Qəhrəmanlının "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" adlı dərs vəsaiti nəşr olunub.***

Vəsaitin hazırlanmasında Elm və Təhsil Nazirliyinin eyniadlı fənn üzrə müəyyən etdiyi təlim nəticələri, eləcə də mövcud dərslik və dərs vəsaitlərinin təcrübəsi nəzərə alınıb.

Fənnin poqramı əsasında yazılmış kitabda kommunikasiya elminin konseptual və nəzəri əsasları ardıcıl şəkildə izah edilir, ünsiyyətin mahiyyəti, kommunikasiya prosesi və modelləri, kommunikativ maneələr və onların aradan qaldırılması yolları elmi-nəzəri aspektdə təhlil olunur. Bununla yanaşı, nitq mədəniyyəti, verbal və qeyri-verbal ünsiyyət vasitələri, ədəbi dil normaları, etik davranış və punktuasiya qaydaları, publik çıxış bacarıqları və işgüzar-akademik kommunikasiya formaları kimi mövzular da həm nəzəri, həm də praktik baxımdan əhatəli şəkildə təqdim edilir.

21 mövzudan ibarət və ümumilikdə 486 səhifəni əhatə edən dərs vəsaitinin sonunda işgüzar və akademik kommunikasiya ilə bağlı əsas termin və anlayışların izahı, əlavələr və ədəbiyyat siyahısı yer alır. Kitabın elmi redaktoru professor İlhamə Hacıyeva, rəyçiləri isə akademik Nizami Cəfərov, professor Nadir Məmmədli, dosentlər Fikrət Şiriyev və Qətibə Quliyevadır.

# Şanlı Zəfərimizin 5-ci ildönümünə




***8 noyabr xalqımızın öz milli dövlətçiliyi və suverenliyi ilə qürur hissi keçirdiyi, fəxr etdiyi tarixi bir gündür, müasir tariximizdə böyük bir mərhələnin başlanğıcıdır.*** Bir vaxtlar Ulu Öndər Heydər Əliyevin gələcəyə inamla söylədiyi: “Bizim əsas problemimiz işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir” ifadəsinin qəhrəman oğullarımızın əzmi, iradəsi və qanı ilə gerçəkləşdiyi bir məqamdır. Buna görə də, Vətənin azadlığı uğrunda canından və qanından keçmiş – şəhid olmuş, yaralanmış, misilsiz hünər göstərmiş hər bir əsgər və zabitin xatirəsini dərin ehtiramla anırıq! Onların adları xalqımızın yaddaşında cəsarət və fədakarlıq rəmzi kimi əbədi yaşayacaqdır.

Təxminən otuz il ərzində torpaqlarımızın 20%-i işğal altında qaldı. Bədxah qonşumuz Ermənistanın silahlı təcavüzü nəticəsində respublikamızın 900 yaşayış məntəqəsi zəbt edildi, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana və s. kimi yüzlərlə ictimai obyekt yerləyeksan olundu, soydaşlarımıza qarşı amansız qətl, qırğın və talanlar törədildi, çoxlu sayda şəhər və kəndlərimiz məhv edildi, xalqın ibadət yeri olan onlarla məscid və ziyarətgahlarımız təhqirə məruz qaldı, milyonlarla soyaşımız öz yurdundan didərgin düşdü – bütün bunlar millətimizin canına və ruhuna vurulan ağır bir yara idi. Amma Azərbaycan xalqı ruhdan düşmədi. Biz ədalətə olan inamımızı heç vaxt itirmədik. Haqq-ədalətin bərpasını səbr və təmkinlə gözlədik. Beynəlxalq aləmdə vəziyyətin sürətlə dəyişdiyi bir dönəmdə Azərbaycan Respublikası müdrik dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında öz dövlətçiliyini möhkəmləndirməyi, ordusunu gücləndirməyi, özünün dirçəliş və inkişaf dövrünün təməlini qoya bildi. “Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır” söyləyən Heydər Əliyevin bu sözləri bütöv bir nəsil üçün belədçi və prioritet məsələ oldu. Ulu Öndərin başlatdığı bu konstruktiv siyasət onun layiqli varisi, ölkəmizi tarixi qələbəyə inamla aparan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi.

2020-ci ilin 27 sentyabrında atəşkəs rejimini növbəti dəfə kobudcasına pozaraq, yaşayış məntəqələrimizi iriçaplı silahlardan və artilleriyadan istifadə edərək intensiv atəşə tutan Ermənistan silahlı qüvvələrinə qarşı Azərbaycan ordusu bütün cəbhə boyunca əks-hücum əməliyyatına başladı və 44 gün ərzində tarixin axarını dəyişdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuz parlaq hərbi strategiya, texniki üstünlük, nizam-intizam və vətənpərvərlik nümunəsi göstərdi. Bu müharibədə zəfər təkcə hərbi qələbə deyil, həm də milli ruhun və intellektin qələbəsi idi. Biz dünyaya nümayiş etdirdik ki, XXI əsrdə qələbə təkcə silah gücü ilə deyil, həm də ağıl, zəka, texnologiya və ümumxalq birliyi ilə mümkündür. 44 günlük müharibənin hər günü qəhrəmanlıq və birlik salnaməsidir. Döyüşə gedən hər bir əsgər bilirdi ki, kiçikdən böyüyə bütün xalq onun arxasındadır, ona qələbə arzu edir.

8 noyabr 2020-ci ildə ordumuz Qarabağın incisi, Azərbaycan mədəniyyətinin beşiyi və xalqımızın mənəvi məbədi olan Şuşa şəhərini azad etdi. Şuşanın azad edilməsi cənab Prezident İlham Əliyevin həmin gün dediyi kimi: “Bizim əyilməz ruhumuzun qayıtması idi”. Həmin andan etibarən üçrəngli bayrağımız yenidən Qarabağ səmasında qürurla dalğalanır və bu bayraq heç bir zaman enməyəcəkdir.

Azərbaycanın qələbəsi təsadüfi olmayıb, atəşkəsdən sonrakı 26 il ərzində dövlətçiliyin davamlı olaraq möhkəmlənməsinə yönəlmiş uzaqgörən siyasətin məntiqi yekunu idi. Bu, dəmir iradəni, diplomatik çevikliyi və möhkəm qətiyyəti özündə birləşdirən Prezident İlham Əliyevin müdrik siyasətinin qanunauyğun nəticəsi idi. Azərbaycanın sarsılmaz qələbəsi onun güclü iqtisadiyyatı, müasir ordusu, ən əsası isə dövlət-xalq-ordu birliyi sayesində mümkün oldu.

Bu gün, Qələbədən sonra Azərbaycan yeni bir tarixi dövrə — dirçəliş dövrünə qədəm qoyub. Azad edilmiş torpaqlarda şəhərlər və kəndlər bərpa edilir, təhsil müəssisələri yenidən qurulur, məktəblər, yollar, hava limanları tikilir. Bu, sadəcə dağıdılmış infrastrukturun bərpası deyil. Bu, həm də dayanıqlı inkişaf, innovasiya və yüksək mədəniyyət prinsiplərinə əsaslanan yeni bir həyatın başlanğıcıdır. “Böyük qayıdış”, “Ağıllı şəhər” və “Yaşıl enerji zonası” proqramları dünyaya nümayiş etdirir ki, Azərbaycan təkcə müharibədə, həm də sülh quruculuğu prosesində qalibdir. Biz doğma torpaqlarımıza elmi, təhsili və mədəniyyəti bərpa edən yaradıcı missiya ilə qayıdırıq. Və bu proses artıq milli dirçəlişin simvoluna çevrilib. Elm və təhsil müəssisələri, mədənimənəvi təsisatlar bu böyük işdə xüsusi rol oynayır. Artıq döyüş meydanındakı qələbə zehinlərdə, qəlblərdə və mədəniyyətdə Qələbə kimi əbədiləşir. Xalqımızın ən qədim təhsil ocağı olan Bakı Dövlət Universiteti də öz məzunlarının Qələbəyə misilsiz töhfələr verməsi ilə qürur duyur. Bu gün bizim qarşımızda mühüm bir vəzifə durur: təkcə Qələbə əzmini qoruyub saxlamaq deyil, həm də Qarabağı elm, incəsənət və innovasiyalar mərkəzinə çevirəcək nəsil formalaşdırmaq, savadlı, bacarıqlı və vətənpərvər vətəndaşlar yetişdirmək. Bu mənada, professor-müəllim heyətinin və gənclərimizin çiyinləri üzərində də böyük məsuliyyət dayanır.

5 il bundan əvvəl 44 günlük Vətən müharibəsində qələbə Azərbaycan xalqının tarixinə qızıl hərflərlə əbədi həkk olundu. Ədalətin səbr və əzmkarlıqla bərpa edildiyini, xeyirin şər üzərində hər zaman qalib gəldiyini sübut edən şanlı Zəfərimiz həm də bütün dünya üçün tarixin ibrət dərsi oldu.

Qoy millətimizin qürur mənbəyi, gələcəyə olan inamının əbədi rəmzi olan üçrəngli bayrağımız azad, qüdrətli, müstəqil və suveren Azərbaycanımız üzərində əbədi olaraq dalğalansın!

Yaşasın müzəffər Ali Baş Komandanımız İlham Əliyev!

Yaşasın şanlı Ordumuz!

Yaşasın Azərbaycan xalqı!

***Elçin Babayev,***
*Bakı Dövlət Universitetinin rektoru*

AZƏRTAC

# Milli qürur mənbəyimiz




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr Dövlət Bayrağı Günü kimi qeyd edilir.***

Milli varlığımızın rəmzi olan bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilib. Üçrəngli bayrağımızın ikinci dəfə müstəqilliyimizin atributu kimi yüksəlməsi isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada üçrəngli, ay-ulduzlu bayrağımız Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Bu, olduqca cəsarətli və uzaqgörən bir addım, eyni zamanda müstəqilliyimizə gedən yolda ciddi dönüş nöqtəsi idi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Nəticədə 1991-ci il fevralın 5-də bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən ikinci dəfə dövlət rəmzi kimi təsdiq edildi.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyimizi bərpa etdikdən sonra “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktı ilə Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzləri, o cümlədən üçrəngli bayrağımız da bərpa edildi.

Ulu Öndər Heydər Əliyev Dövlət Bayrağımıza ən yüksək qiyməti verərək deyirdi: “Azərbaycan Bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu, bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin”.

“Türkləşmək, müasirləşmək, islamlaşmaq” ideyasını rənglərində əbədiləşdirən bayrağımız müasir Azərbaycanın tarixi dövlətçilik ənənələrinə sadiqliyini bir daha nümayiş etdirir, bu ənənələri inamla yaşadır. Azərbaycan Respublikasının dövlət bayrağından istifadə Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Azərbaycan Respublikasının Qanunu, eləcə də həmin Qanunla təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə” əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilib.

Bütün tarixi, əlamətdar günlərdə, dövlət başçılarının rəsmi səfərlərində, beynəlxalq tədbirlərdə, idman yarışlarında, olimpiadalarda Azərbaycanın adını yüksəldiyi ucalıqlardan dünyaya çatdıran da varlığımızı təsdiqləyən bayrağımızdır. Azərbaycan bayrağı bütün dövlət təşkilatlarının, respublikamızdan kənarda diplomatik korpuslarımızın, nümayəndəliklərimizin binaları üzərində müstəqilliyimizin rəmzi kimi dalğalanır. Beynəlxalq tədbirlərdə dünya dövlətlərinin bayraqları arasında Azərbaycanın simvolu kimi dayanır.

Hələ 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində çıxışında Prezident İlham Əliyev deyirdi: “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev müqəddəs ata vəsiyyətini və bu vədini şərəflə yerinə yetirdi.

Beş il öncə qəhrəman Azərbaycan Ordusu otuz ilə yaxın düşmən işğalında qalan əzəli torpaqlarımızı xilas etdi. O günlərdə bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq, azad etdikləri hər bir şəhərdə dövlət bayrağımızı ucaltmalarını və bu barədə Ali Baş Komandan İlham Əliyevə məlumat vermələrini əks etdirən videogörüntülər idi. Ermənistan öz layiqli cavabını döyüş meydanında aldı. Düşmənin silahlı qüvvələri qəhrəman Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. 2023-cü il sentyabrın 19-da cəmi 24 saat belə davam etməyən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, suverenliyimiz tam təmin olundu. Oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla “Qarabağ Azərbaycandır!” hökmünü bir daha təsdiqlədi: “Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Dostlarımızı sevindirən, düşmənimizi xar edən üçrəngli bayrağımız dövlətimizin əzəmətini və gücünü bütün dünyaya təsdiqləyir. Bütövləşən Vətənimizdə qürurla dalğalanır – bu torpaqların əbədi sahibinin kim olduğunu bir daha bəyan edir!

Dövlətimizin, xalqımızın gücünə güc qatan bayrağımız daim zirvələrdə dalğalansın!

# BDU-da “Coğrafi ekologiya: nəzəriyyə, metodologiya və praktika” mövzusunda Respublika elmi konfransı keçirilib

***Noyabrın 18-də BDU-nun Coğrafi ekologiya kafedrasının 45 illik və Əməkdar müəllim, coğrafiya elmləri doktoru, professor, “Şöhrət” ordenli Şövqisəfa Göyçayskinin 90 illik yubileylərinə həsr olunmuş “Coğrafi ekologiya: nəzəriyyə, metodologiya və praktika” mövzusunda Respublika elmi konfransı keçirilib.***




Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev professor Şövqisəfa Göyçayskini yubileyi münasibəti ilə təbrik edərək, onun ölkənin və Universitetin elm, təhsil həyatında böyük xidmətləri olduğunu qeyd edib. Rektor BDU-nun zəngin və şərəfli tarixinin bir parçası olan korifey alimlərin həyat və fəaliyyətlərinin gənclər üçün örnək olduğunu vurğulayıb. Rektor Elçin Babayev diqqətə çatdırıb ki, Azərbaycanda ekoloji təhsilin, coğrafi ekologiya elminin əsas yaradıcılarından biri, səriştəli və dürüst alim, peşəkar pedaqoq olan Şövqisəfa Göyçayski BDU-nun elm və təhsil həyatında silinməz iz qoyub.

Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Akif Ağbabalı professor Şövqi Göyçayskinin BDU-nun elm, təhsil həyatına və peşəkar kadr hazırlığına verdiyi töhfələrdən danışıb. Bildirib ki, o, 200-dən çox elmi əsərin, o cümlədən monoqrafiyaların, dərslik və dərs vəsaitlərinin, həmçinin Azərbaycanın irimiqyaslı iqtisadi və əhali xəritələrinin müəllifi və həmmüəllifidir. Onun uzun illər rəhbərlik etdyi Coğrafi ekologiya kafedrası 1980-ci ildə Universitetin Geologiya-coğrafiya fakültəsində Ətraf mühiti mühafizə kafedrası adı ilə təşkil olunub. Daha sonra kafedranın adında dəyişiklik olunaraq üzün illər Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə kafedrası adlandırılıb. Kafedra keçmiş SSRİ məkanında təşkil edilən ilk ekoloji istiqamətli kafedralardan olub və uzun müddət respublika ali məktəbləri arasında ekologiya və ətraf mühiti mühafizə sahəsində elmi-metodiki mərkəz rolunu oynayıb. Professor Şövqisəfa Göyçayski 1981-2019-cü illərdə kafedraya rəhbərlik edib. Kafedra 2010-cu ildə Universitetdə yeni yaradılan Ekologiya və torpaqşünaslıq fakültəsinin nəzdinə keçirilib və Coğrafi ekologiya kafedrası adlandırılaraq yenidən təşkil olunub. Akif Ağbabalı coğrafi ekologiyanın aktual problemlərinə həsr olunmuş konfransa 30-dək təşkilatdan 232 tezisin daxil olduğunu diqqətə çatdırıb.

Coğrafiya fakültəsinin dekanı Məqsəd Qocamanov, Faydalı qazıntılar kafedrasının müdiri, akademik Vasif Babazadə, Həsən Əliyev adına Coğrafiya İnstitutunun Baş direktoru vəzifəsini icra edən Zaur İmrani, Coğrafi ekologiya kafedrasının müdiri Məhluqə Yusifova, Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva, İqtisadi və sosial coğrafiya kafedrasının müdiri professor Çingiz İsmayılov, Geologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Tələt Kəngərli, Memarlıq və İnşaat Universitetinin professoru Bəhram Əliyev, BDU-nun Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov çıxışlarında görkəmli alimin ölkədə coğrafiya və ekologiya elmlərinin inkişafında xidmətlərindən danışıb, konfransın işinə uğurlar arzulayıblar.

Sonra professor Şövqisəfa Göyçayski barədə hazırlanmış “Təhsil, elm və kadr hazırlığına həsr edilən ömür” adlı videoçarx təqdim edilib.

Sonda söz yubilyara verilib. Professor Şövqisəfa Göyçayski konfransın yüksək səviyyədə təşkilinə və elmi-pedaqoji fəaliyyətinə verilən dəyərə görə minnətdarlığını bildirib, gəncləri özlərini inkişaf etdirməyə, bilikli, vətənpərvər olmağa səsləyib.

İkigünlük konfrans öz işini plenar sessiyalarla davam etdirir.

# Tarixi Zəfərin 5 illik yubileyinə həsr olunmuş ixtisaslaşmış Karyera Sərgisi keçirilib

***Noyabrın 20-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional məşğulluq filialının təşkilatçılığı ilə xalqımızın tarixi Zəfərinin 5 illik yubileyinə həsr olunmuş “Peşəkar gələcəyə doğru körpü” – ixtisaslaşmış Karyera Sərgisi keçirilib.***



Sərginin keçirilməsində məqsəd tələbə və məzunları Şərqi Zəngəzur və Qarabağ bölgəsində fəaliyyət göstərən şirkətlərlə bir araya gətirərək, onların karyera imkanlarını nümayiş etdirmək, regionun bərpa və inkişafı prosesində gənclərin iştirakına dəstək olmaqdır.

Tədbirdə Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, bu il ölkəmiz üçün çox əlamətdardır, xalqımız Qarabağda tarixi Zəfərimizin 5 illik yubileyini və “Konstitusiya və Suverenlik İli”ni qeyd edir. Hazırda doğma Qarabağ və Şərqi Zəngəzurda irimiqyaslı quruculuq işləri, yalnız iqtisadi deyil, geniş sosial, mədəni layihələr həyata keçirilir, “Böyük Qayıdış” Proqramı uğurla icra olunur. Məhz bu baxımdan BDU-nun tələbə-məzunlarının Qarabağ və Şərqi Zəngəzurda iş imkanları ilə tanış edilməsi mühüm əhəmiyyət daşıyır: “BDU tələbələri həmişə ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatının əsas avanqardı olublar. İnanırıq ki, Universiteti hər il bitirən 6000-dən artıq məzunun çox hissəsi Qarabağ və Şərqi Zəngəzurda quruculuq işlərində yaxından iştirak edəcək, azad edilmiş torpaqlarımızın çiçəklənməsinə öz töhfələrini verəcəklər”.

Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional məşğulluq filialının müdiri Sənan Məmmədzadə çıxışında bildirib ki, son illər dövlətimizin əsas strateji istiqamətlərindən biri Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin həyata keçirilməsi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında məskunlaşmasıdır: “Bugünkü sərgidə Dövlət Məşğulluq Agentliyi BDU-nun tələbə və məzunlarına karyera dəstəyi proqramları, təcrübə və iş yerləri yerləri təklif edir. Qarabağ və Şərqi Zəngəzurda dövlət və özəl sektor tərəfindən açılan minlərlə vakansiya, sosial təminat tədbirləri, güzəştlər və inkişaf perspektivləri sizin üçün böyük üstünlük yaradır. Azad olunmuş ərazilərdə işləmək əvəzolunmaz təcrübə deməkdir. Bununla siz həm də tarixi bir missiyada iştirak edəcək, yenidən dirçələn bölgələrimizdə həyatın bərpasına töhfə verəcəksiniz”.

Sərgidə 2000-dən artıq tələbə və məzun iştirak edərək, vakansiya və təcrübə proqramlarına müraciət etmək, CV təqdim etmək imkanına sahib olublar.

Sərginin yekununda Universitet və əmək bazarı arasında səmərəli tərəfdaşlığın formalaşdırılması məqsədilə Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşlarının və şirkət nümayəndələrinin iştirakı ilə şəbəkələşmə görüşü təşkil edilib. Görüşdə Mərkəzin fəaliyyət portfeli təqdim olunaraq, əməkdaşlıq imkanları və yeni tərəfdaşlıqların qurulması müzakirə edilib.

# BDU-da Cənubi Afrika Respublikasının nümayəndə heyəti ilə görüş keçirilib

***Noyabrın 19-da BDU-da Cənubi Afrika Respublikasının ali təhsil və təlim nazirinin müavini xanım Nomusa Dube-Ncubenin başçılıq etdiyi nümayəndə heyəti ilə rəsmi görüş keçirilib. Görüş Heydər Əliyev lektoriyasında Universitetin professor-müəllim heyətinin iştirakı ilə təşkil olunub.***



BDU rektoru Elçin Babayev çıxış edərək Azərbaycan ilə Cənubi Afrika Respublikası arasında elmi-təhsil əməkdaşlığının perspektivlərinə diqqət çəkib. Rektor qeyd edib ki, Universitet beynəlxalq tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsinə xüsusi önəm verir. Afrika ölkələri, o cümlədən Cənubi Afrika Respublikası ilə əməkdaşlıq BDU üçün mühüm əhəmiyyət kəsb edir.

Nümayəndə heyətinin rəhbəri xanım Nomusa Dube-Ncube çıxışında Bakı Dövlət Universitetində olmaqdan məmnunluğunu ifadə edib. O, Cənubi Afrika Respublikasında aparılan ali təhsil islahatları, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və peşə təhsili sahəsində qabaqcıl təcrübələr barədə məlumat verib. Nazir müavini universitetlərarası əlaqələrin genişləndirilməsi, tələbə və müəllim mübadiləsinin təşviqi, elmi-tədqiqat təşəbbüslərinin inkişafı üçün mövcud imkanları vurğulayıb.

Görüş çərçivəsində birgə magistr və doktorantura proqramları, rəqəmsal təhsil imkanları, innovativ layihələr və akademik əməkdaşlıq sahələri müzakirə olunub. Daha sonra nümayəndə heyəti Afrika ölkələrindən olan təhsilalanlarla görüşərək onların təhsil təcrübələrini və gələcək akademik planlarını dinləyib. Qonaqlar BDU-nun multikultural mühiti və tələbələrin yüksək akademik hazırlığını yüksək qiymətləndiriblər.

Səfər BDU-nun tədris binaları, muzey və laboratoriyaları ilə tanışlıqla davam edib. Qonaqlara Universitetin elmi infrastrukturu, innovativ layihələri və müasir tədris məkanları barədə ətraflı məlumat verilib. Bu görüş Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq əməkdaşlıq strategiyasının və akademik mübadilənin genişləndirilməsi istiqamətində mühüm addım olaraq qiymətləndirilir.

# BDU-da "Zəfərdən suveren gələcəyə" adlı konfrans

***Noyabrın 5-də BDU-da "BDU könüllüləri" təşkilatı və "Gənc Könüllülər" İctimai Birliyinin təşəbbüsü ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Zəfərdən suveren gələcəyə" adlı konfrans keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev 44 günlük Vətən müharibəsinin Ali Baş Komandan İlham Əliyevin məharətli sərkərdəlik qabiliyyətini, Azərbaycan ordusunun rəşadətini, xalqımızın qüdrətini göstərdiyini deyib. Bildirib ki, tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsi dünya hərb tarixində öz layiqli yerini tutur. Tarixi Zəfər Azərbaycanın yeni qələbələri üçün təməl yaradıb, qələbədən ötən beş il ərzində ölkəmiz yeni uğurlara imza atıb: "44 günlük Vətən müharibəsi Azərbaycanın hər bir vətəndaşının, övladının torpaq uğrunda canından keçməyə hazır olduğunu sübut etdi. Vətən müharibəsindən dərhal sonra həmin ərazilərdə bərpa və quruculuq işlərinin başlaması bizim bu torpaqların əsl sahibi olduğumuzun əsas göstəricisi idi. Bu gün doğma Qarabağımıza həm də Azərbaycanımızın mədəniyyəti, təhsili, ədəbiyyatı qayıdır. Hər il "Xarıbülbül" beynəlxalq musiqi festivalının keçirilməsi, Qarabağımızın ürəyi Şuşa şəhərində beynəlxalq forum və tədbirlərin təşkili, Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması bütün dünyaya bir nümunədir. Bu prosesdə qardaş türk dövlətləri də yaxından iştirak edir, məktəblərin və yaşayış komplekslərinin yaradılmasında öz dəstəklərini göstərirlər. Artıq Qarabağ öz sahiblərinə qovuşub, dirçəliş və çiçəklənmə dövrünü yaşayır. Zəfərimiz mübarək olsun!".

"Gənc Könüllülər" İctimai Birliyinin sədri, Vətən müharibəsi iştirakçısı Ayxan Allahverdiyev 30 il torpaq həsrəti ilə yaşayan xalqımızın artıq beş ildir ki, bütün dünyada, beynəlxalq tribunalarda başı dik şəkildə öz mövqeyini qürurla müdafiə etdiyini qeyd edib: "Yeni reallıqlar dövrünü yaşayan Azərbaycanın müasir mərhələsinin memarı bugünkü gənclərimiz olacaqdır. Bunun üçün gənclər Qarabağda aparılan yenidənqurma və bərpa işlərində, yeniliklərin tətbiqində öz innovativ yanaşmaları ilə yaxından çıxış etməli və prosesin aktiv iştirakçılarına çevrilməlidirlər. Beynəlxalq tədbirlərdə tarixi Zəfərimizin düzgün təqdimi və təbliği gənclərin vətəndaşlıq borcu və vəzifəsidir. İnanıram ki, müqəddəs Qələbəni bizə yaşadan gəncliyimiz bunu əbədi edəcək və daim qoruyacaq".

Daha sonra çıxış edən Milli Məclisin üzvləri – Aydın Hüseynov və Müşfiq Məmmədli, Azərbaycan Gənclər Fondunun İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Pərvanə Cəlallı, şəhid polkovnik-leytenant Anar Əliyevin qızı Nigar Əliyeva, Vətən müharibəsi iştirakçısı Rahil Xəlilov Zəfərin beş ilini suverenliyini tam bərpa etmiş ölkə kimi qeyd edən Azərbaycan xalqının bu gün çox xoşbəxt və qürurlu olduğunu qeyd ediblər. Həmçinin Vətən müharibəsi dövrünə aid xatirələrindən söz açıblar.

Sonda BDU-nun Jurnalistika fakültəsinin müəllimi Mahir Qəribovun ssenari müəllifliyi ilə Azərbaycan Dövlət Televiziyasının hazırladığı "Tarixin izi ilə - Zaman və Ali Baş Komandan" sənədli filmi nümayiş olunub.

# BDU-da "Zəfərə gedən yol" adlı tədbir keçirilib

***Noyabrın 4-də Fizika fakültəsinin təşkilatçılığı ilə Vətən müharibəsində qazanılmış böyük Zəfərin 5 illiyinə həsr olunmuş "Zəfərə gedən yol" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın azadlığı uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Fizika fakültəsinin dekanı, professor Bəxtiyar Paşayev "Zəfərə gedən yol" mövzusunda məruzə edərək, böyük Zəfərin əldə olunmasında Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdikləri çoxşaxəli fəaliyyətin mühüm rol oynadığını vurğulayıb. O, Zəfərimizin tarixi, mənəvi, siyasi və iqtisadi əhəmiyyətindən danışıb, həmçinin fakültənin məzunlarından olan Milli qəhrəmanlar Rövşən Hüseynov və Vahid Quliyevin I Qarabağ müharibəsində, şəhidlər Şəhriyar Həbibi və Fikrət Zeynallının isə Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqları xatırladıb.

Tədbir çərçivəsində Fizika fakültəsi könüllülərinin hazırladıqları Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş olunub.

Sonra Yarımkeçiricilər fizikası kafedrasının professoru, YAP Veteranlar Şurasının üzvü, II dərəcəli dövlət müşaviri Adilə Abbasova və Nanomaterialların kimyəvi fizikası kafedrasının müdiri, Laçın rayonunda doğulmuş Maarif Cəfərov çıxış edərək tarixi Qələbənin əhəmiyyətindən danışıblar.

Optika və molekulyar fizika kafedrasının baş müəllimi Lətif Əliyev Zəfərə həsr edilmiş təqdimatla çıxış edib. O, Prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır!" ifadəsinin səs spektrinin hazırlanaraq "Səs imzası" adlı xalça şəklində işlənildiyini qeyd edib.

Tədbirin bədii hissəsində fakültənin I kurs tələbəsi Aysun Hüseynova Zəfərə həsr etdiyi esse ilə çıxış edib, tələbələr Fatimə Cəfərova və Sevgi Şirinova isə Vətən mövzusunda şeirlər səsləndiriblər. Tədbir fakültə əməkdaşı Sona Güləhmədovanın "Yaşa, Azərbaycan" mahnısı ilə başa çatıb.

# Jurnalistika fakültəsinin TGT üzvləri Qarabağda

***Noyabrın 11-də Jurnalistika fakültəsinin Tələbə Gənclər Təşkilatının (TGT) üzvləri "Zəfər günü" münasibətilə Ağdam, Şuşa, Xankəndi şəhərlərini ziyarət ediblər.***

Ziyarətin məqsədi tələbələrin Qarabağın tarixi və mədəni irsini yaxından tanıması, milli dəyərlərimizlə bağlı biliklərini genişləndirməsi olub.

Tələbələrə səfər zamanı Şuşa Qalasının tarixi əhəmiyyəti, Ağdam Cümə Məscidinin memarlıq xüsusiyyətləri və işğal dövründəki taleyi, eləcə də İsa bulağının Şuşanın simvol məkanlarından biri kimi mədəni yaddaşımızdakı yeri barədə məlumat verilib.

TGT üzvləri bu səfərin onların tarixi biliklərinə və milli kimlik anlayışına verdiyi töhfəni vurğulayıblar.

Bildirilib ki, bu cür ziyarətlər tələbələrin həm şəxsi inkişafı, həm də Təşkilatın maarifləndirmə istiqamətindəki fəaliyyətləri üçün önəmlidir.

# BDU tələbələri ilk yardım üsulları barədə maarifləndirilib

***Noyabrın 4-də Bakı Dövlət Universitetində Tələbə Gənclər Təşkilatının və Özəl Tibb Müəssisələri Assosiasiyasının (ÖTMA) birgə təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Həyata dəstək" layihəsi çərçivəsində ilk yardım üzrə maarifləndirici təlim keçirilib.***

ÖTMA-nın İdarə Heyətinin sədri Günel Əliyeva layihə barədə tələbələrə məlumat verib. Layihənin ali və orta ixtisas təhsili müəssisələrində təcili vəziyyətlərdə operativ və düzgün reaksiya verə biləcək, ilkin yardım biliklərinə sahib, savadlı və hazırlıqlı cəmiyyətin formalaşdırılmasına xidmət etdiyini deyib.

Təlimdə tələbələrə ilkin yardımın təməl prinsipləri, qəfil ürək dayanması zamanı tətbiq olunan kardiyopulmoner resüsitasiya (CPR - insan həyatının ən kritik anlarında tətbiq olunan və çox vaxt ölüm ilə həyat arasında körpü rolunu oynayan ilk yardım texnikası) üsulları, boğulma, yanıq və yaralanma kimi hallar zamanı düzgün müdaxilə qaydaları praktiki şəkildə öyrədilib.

# "Zəfər ruhumuz, qələbə kimliyimizdir" adlı tədbir

***Noyabrın 5-də Geologiya fakültəsinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) və "BDU könüllüləri" təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Vətən müharibəsində qazandığımız Zəfərin beşinci ildönümünə həsr olunmuş "Zəfər ruhumuz, qələbə kimliyimizdir" adlı tədbir keçirilib.***



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Geologiya fakültəsinin dekanı, dosent Mamoy Mansurov 8 Noyabr – Zəfər Gününün xalqımızın tarixində ən qürurlu səhifələrdən biri olduğunu vurğulayıb. O bildirib ki, bu qələbə Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbərliyi, xalqımızın birliyi və Ordumuzun qəhrəmanlığı sayəsində əldə olunub.

Seysmologiya və Yer təkinin fizikası kafedrasının müdiri, dosent Əvəz Məmmədov çıxışında Zəfərin xalqımızın milli ruhunun və tarixi ədalətin bərpasının simvolu olduğunu qeyd edib. Tədbirdə Geologiya fakültəsinin IV kurs tələbəsi, Vətən müharibəsi qazisi Musa Abbasov döyüş xatirələrini bölüşüb və şəhid silahdaşlarını ehtiramla yad edib.

Tədbir tələbələrin hazırladığı ədəbi kompozisiya ilə davam edib.

# Bakı Dövlət Universitetində “Zəfərin 5 ili: Şanlı Qələbənin izi ilə” adlı tədbir keçirilib

***Noyabrın 6-da BDU və “Regional İnkişaf” İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “Zəfərin 5 ili: Şanlı Qələbənin izi ilə” adlı tədbir keçirilib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev bildirib ki, xalqımız şanlı Zəfərin 5 ilini böyük qürur hissi ilə qeyd edir. 5 il əvvəl Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən tapdağında qalan torpaqlarımızı azad etmək üçün Vətən müharibəsinə başladı. 30 ilə yaxın işğalda qalan torpaqlarımız azad olundu. Azərbaycan Vətən müharibəsi ilə bütün dünyaya ədalətli müharibənin necə aparıldığını göstərdi: “Vətən müharibəsinin gedişində Azərbaycan Ordusu düşmən tərəfindən bir mülki obyektə belə silah tuşlamadı. Vətən müharibəsi elə bir müharibə idi ki, xalq öz Ordusu və Ali Baş Komandanı ətrafında yumruq kimi birləşmişdi. Dünyada elə bir dövlət yoxdu ki, müharibədən dərhal sonra quruculuq işlərinə başlasın. Biz dünyaya sübut elədik ki, döyüşməklə bərabər, qurub-yaratmağı da bacarırıq. Bu gün gənclərimiz şanlı Zəfəri çox yaxşı təbliğ edirlər. BDU tələbələri tərəfindən silsilə tədbirlər, Zəfərimizin qəhrəmanları ilə görüşlər keçirilir. Zəfəri bu qəhrəmanlar qazandı, onu qorumaq və möhkəmləndirmək isə gənc nəslin üzərinə düşür”.



“Regional İnkişaf” İctimai Birliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Murad Qasımlı qurumun Vətən müharibəsi və ondan sonrakı dövrdə gördüyü işlərdən bəhs edərək, gənclərin milli dəyərlər, vətənpərvərlik və ictimai məsuliyyət mövzularında məlumatlandırılmasının əhəmiyyətindən danışıb.

Tədbirin davamında “Qələbəyə doğru atılan addımlarla” adlı panel müzakirə keçirilib. BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədovun moderatorluğu ilə keçirilən paneldə Milli Məclisin üzvü Nizami Səfərov, Vətən Müharibəsi Qəhrəmanı, Xəzər Dəniz Gəmiçiliyinin şöbə rəisinin müavini Zaur Hüseynov, tarix üzrə elmlər doktoru, professor İradə Hüseynova və Birinci Qarabağ və Vətən müharibələri iştirakçısı, telejurnalist İlham Tumas Zəfər Gününün tarixi və mənəvi əhəmiyyətini vurğulayıb, bu Qələbənin xalqımızın milli birliyi və azadlıq iradəsinin təntənəsi olduğunu, ordumuzun göstərdiyi qəhrəmanlığın isə gələcək nəsillər üçün nümunə təşkil etdiyini bildiriblər.

Qeyd edək ki, tədbirin məqsədi gənclər arasında vətənpərvərlik ruhunu gücləndirmək, şəhidlərin əziz xatirəsini anmaq, qazilərə hörmət və minnətdarlıq hisslərini təbliğ etmək, həmçinin gənclərin ictimai fəallığını və milli birlik dəyərlərini möhkəmləndirmək olub.

# Kimya fakültəsində Zəfər Günü qeyd olunub

***Noyabrın 6-da Kimya fakültəsi Tələbə Gənclər Təşkilatı (TGT) və Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “Zəfər salnaməsi” adlı tədbir keçirilib.***

Tədbirdə fakültə rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, Vətən müharibəsi iştirakçıları iştirak ediblər.

Kimya fakültəsinin dekanı, dosent Fuad Kərimli 8 Noyabr – Zəfər Gününün Azərbaycan xalqının tarixində qürur, vətənpərvərlik və birlik rəmzi kimi qalacağını qeyd edib. O, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə tarixi ədaləti bərpa etdiyini vurğulayıb.

Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov müharibə dövründə Lider-Ordu-Xalq birliyinin Zəfərin əsas rəmzi olduğuna diqqət çəkib. O bildirib ki, Azərbaycan xalqı 44 gün ərzində həm döyüş meydanında, həm də mənəvi mübarizədə sarsılmaz iradə nümayiş etdirib.

Fakültənin dosenti Elgül Hüseynova çıxışında şəhidlərin müqəddəs xatirəsinin hər zaman qəlblərdə yaşayacağını vurğulayıb, Vətənə həsr olunmuş şeir ifa edib.

Tədbirdə iştirak edən qazilər İsmayıl Hacıyev, Elşən Cəbrayılov və Namiq Əmənov Vətən müharibəsində keçdikləri döyüş yolu, qəhrəman silahdaşları barədə xatirələrini bölüşüblər. Onlar şəhid yoldaşlarını dərin ehtiramla yad edib, gəncləri daim vətənpərvər, cəsur və dövlətə sədaqətli olmağa çağırıblar.

# BDU-da “5 ilin Zəfər sədası” adlı konsert proqramı

***Noyabrın 6-da BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) və Mədəniyyət-Yaradıcılıq Mərkəzinin dəstəyi ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “5 ilin Zəfər sədası” adlı konsert proqramı təşkil olunub.***

Tədbiri giriş sözü ilə Universitetin sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev açaraq 44 günlük Vətən müharibəsinin xalqımızın tarixinə qızıl hərflərlə yazıldığını bildirib. O qeyd edib ki, Azərbaycan xalqı 30 il işğal altında qalan torpaqlarını Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun və Xalqımızın birliyi sayəsində azad edib. Tarixi Qələbə işğalda olan torpaqlarımızla yanaşı, milli qürurumuzu da qaytarıb və regionda yeni geosiyasi reallıq yaradıb.



Azərbaycanın Əməkdar idman ustası, Əməkdar məşqçi, Birinci Qarabağ qazisi İlham Zəkiyev və ehtiyatda olan zabit, Vətən müharibəsi iştirakçısı, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin magistrantı Vasif Qəhrəmanov çıxışlarında qeyd ediblər ki, bu qələbə ilə xalqımızın 30 illik torpaq həsrətinə son qoyulub. Bu gün qalib ölkənin qalib vətəndaşları olaraq hər bir azərbaycanlı bu qüruru yaşamaqdan fəxr duyur. Gənclər, xüsusilə tələbələr bu qələbənin layiqli davamçıları kimi öz sahələrində uğurla addımlamalı, qalib xalqın nüfuzunu yüksəltməlidirlər. Sonra tədbirin xüsusi qonaqları – Əməkdar artist Elnur Zeynalov, müğənni Cavidan Fatihi, BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin əməkdaşları və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi Nuray Quliyeva vətənpərvərlik mövzusunda mahnı və rəqslər ifa ediblər.

Tədbir tələbələr tərəfindən xüsusi maraqla qarşılanıb.

# BDU-da Zəfər Günü qeyd olunub



*(əvvəli 1-ci səhifədə)*

Xalqımızın ən qədim təhsil ocağı olan Bakı Dövlət Universiteti də öz məzunlarının Qələbəyə misilsiz töhfələr verməsi ilə qürur duyur. Düz 5 il bundan əvvəl 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbə Azərbaycan xalqının tarixinə qızıl hərflərlə əbədi həkk olundu. Ədalətin səbr və əzmkarlıqla bərpa edildiyini, xeyirin şər üzərində hər zaman qalib gəldiyini sübut edən şanlı Zəfərimiz həm də bütün dünya üçün tarixin ibrət dərsi oldu.Qoy millətimizin qürur mənbəyi, gələcəyə olan inamının əbədi rəmzi olan üçrəngli bayrağımız azad, qüdrətli, müstəqil və suveren Azərbaycanımız üzərində əbədi olaraq dalğalansın”.

Milli Məclis sədrinin müavini, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illərdə milli dövlətçilik tarixinin yeni — inkişaf və güclənmə mərhələsinə qədəm qoyduğunu deyib: “Zəfər Günü - ölkənin gücünü, milli birliyini və şəhidlərimizin əziz xatirəsini yaşadan bir tarixdir. Bu gün gələcək nəsillərə Vətən sevgisini, azadlıq əzmini və müstəqilliyimizin dəyərini çatdıran bir simvol olaraq qalacaq. Azərbaycanın işıqlı gələcəyi uğrunda canını fəda edən bütün qəhrəmanlarımızın ruhu qarşısında baş əyirik. Xalqımızın daim bir bayraq altında, birlik və qürur içində addımlayacağına inanırıq. Bu böyük Zəfərin işığında daha güclü və daha parlaq bir gələcək qurmaq əzmindəyik. Qoy Zəfərimiz əbədi olsun”.

Daha sonra çıxış edən Milli Məclisin üzvü Rizvan Nəbiyev, Azərbaycan Silahlı Qüvvələrinin polkovniki, II Qarabağ müharibəsinin iştirakçısı, Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi Anar Mirzəyev, BDU-nun Jurnalistika fakültəsinin məzunu, Vətən müharibəsi iştirakçısı Daşqın Əzizov ölkəmizin tarixi qələbənin beş illiyini böyük qayıdış, yenidən dirçəliş və Qarabağa ikinci həyat verməklə, qürurla qeyd etdiyini bildiriblər. Çıxışçılar Zəfər Gününün xalqımızın yaddaşında qürur və şərəf səhifəsi kimi əbədi qalacağına və Azərbaycanın tarixi Zəfərdən aldığı güc ilə daha da qüdrətlənəcəyinə inamlarını ifadə ediblər.

Tədbir BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzinin hazırladığı bədii proqramla davam edib.

# BDU-da EMIDWORLD İqtisadiyyat, dövlət maliyyəsi, biznes və sosial elmlər üzrə III Beynəlxalq konfrans keçirilir

***Noyabrın 13-də BDU və Türkiyənin Kilis 7 Aralık Universitetinin birgə təşkilatçılığı ilə EMIDWORLD İqtisadiyyat, dövlət maliyyəsi, biznes və sosial elmlər üzrə III Beynəlxalq konfransın açılış mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib. Ölkəmizin azadlığı uğrunda həlak olan şəhidlərimizin və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan hərbçilərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov qeyd edib ki, Bakı Dövlət Universiteti və Kilis 7 Aralık Universiteti arasında formalaşan əməkdaşlıq münasibətləri təkcə iki ali təhsil müəssisəsini bir araya gətirmir, Türkiyə və Azərbaycan arasında mövcud olan strateji müttəfiqliyin elm və təhsil müstəvisindəki təzahürünü nümayiş etdirir: "Müasir dövrdə iqtisadiyyat sadəcə istehsal və istehlak göstəriciləri ilə ölçülmür. Artıq BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, iqtisadi rifahın davamlılığı, sosial bərabərlik, yaşıl keçid və texnoloji innovasiyalar kimi anlayışlar ölkələrin inkişaf strategiyalarının əsasını təşkil edir. Bu baxımdan Azərbaycan və Türkiyə iqtisadiyyatları arasında qarşılıqlı təcrübə mübadiləsi, ortaq araşdırmaların aparılması və birgə layihələrin reallaşdırılması xüsusi əhəmiyyət daşıyır. İki universitet arasında qurulan əlaqələr qarşılıqlı elmi əməkdaşlıq, akademik mübadilə və ortaq tədqiqat istiqamətlərinin inkişafına yönəlib. Qarşıdakı illərdə biz bu əlaqələri daha da genişləndirərək birgə empirik tədqiqatlar aparmaq, iqtisadi modellər üzərində ortaq elmi nəşrlər hazırlamaq və gənc tədqiqatçıların iştirakını təmin etmək niyyətindəyik. Əminəm ki, bu konfrans elm adamlarını bir araya gətirməklə yeni ideyaların yaranmasına, iqtisadi elmlərin müasir çağırışlara cavab verəcək şəkildə inkişafına və iki dost ölkə arasında elmi birliyin daha da möhkəmlənməsinə xidmət edəcək".

Konfransın Təşkilat Komitəsinin sədri Ali Kestane, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Azərbaycandakı təmsilçisi Güven Çolak, Türk Sənət Akademiyasının rəhbəri Erhan Ufak, Türkiyə Böyük Millət Məclisinin üzvü Suat Önal, Türkiyə İqtisadi və Maliyyə Araşdırmaları Fondunun (TEMAR) rəhbəri Mehmet Hasan Eken, Beynəlxalq Demokratlar Birliyinin (UID) Azərbaycan nümayəndəliyinin rəhbəri Cengiz Aygör çıxışlarında konfransın regional və beynəlxalq elmi əməkdaşlığın inkişafına töhfə verən əhəmiyyətli elmi platforma olduğunu qeyd edib, tədbirin işinə uğurlar arzulayıblar. Qeyd olunub ki, konfransda 33 ölkədən alimlər, tədqiqatçılar, eləcə də dövlət və biznes qurumlarının nümayəndələri iştirak edirlər. Konfrans çərçivəsində iqtisadiyyat, dövlət maliyyəsi, biznesin idarə edilməsi, beynəlxalq ticarət və maliyyə, əmək iqtisadiyyatı, logistika, turizm menecmenti, idarəetmə informasiya sistemləri və digər sahələr üzrə elmi məruzələr dinləniləcək və müzakirə olunacaq.

İkigünlük konfrans öz işini sessiya iclasları ilə davam etdirir.

# Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlinin BDU-da "Məzun seminarı"

***BDU-nun Məzunlar Cəmiyyətinin silsilə seminarları davam edir. Layihənin ikinci qonağı elm və təhsil nazirinin müşaviri, BDU məzunu Nicat Məmmədli olub. O, tələbələrə "Fikir əsrində zənginliyin yeni mənbəyi – maraq" mövzusunda seminar keçib.***



BDU rektoru Elçin Babayev Universitetin hər zaman öz tələbə və məzunları ilə fəxr etdiyini bildirib. Rektor qeyd edib ki, BDU-nun ən böyük məzunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. BDU-nun fəaliyyəti dövründə 200 mindən artıq məzunu olub. BDU məzunları ölkəmizin sosial, iqtisadi, mədəni, elmi həyatında uğurla çalışıblar. Onlardan biri də elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlidir. Layihənin qonağı Nicat Məmmədli 16 yaşından həyatının BDU ilə bağlı olduğunu, burada bakalavr və magistr təhsili aldığını, 14 ilə yaxın pedaqoji fəaliyyətlə məşğul oldunu bildirib: "BDU məzunu olmağımla həmişə qürur duymuşam. BDU mənim üçün həm bilik, həm həyat məktəbi olub və formalaşmağımda mühüm rol oynayıb".

Elm və təhsil nazirinin müşaviri daha sonra marağın insan həyatında rolundan danışıb. Qeyd edib ki, maraq insanları həyatda daha çox şeylər əldə etməyə, daha artıq bilik qazanmağa sövq edən məsələlərdən biridir. O, maraq və bilik arasında qarşılıqlı əlaqənin insanın şəxsiyyətinin zənginləşməsi və maddi rifahının yüksəlməsində mühüm rol oynadığını diqqətə çatdırıb: "Maraq dairəsi bol olan insanlar daha çox eksperiment edir, daha yaradıcı həll yolları tapırlar". O, gəncləri daha çox bilik əldə etməyə, maraqlarının arxasında getməyə, sual verməkdən çəkinməməyə çağırıb.

Sonda elm və təhsil nazirinin müşaviri tələbə və müəllimlərin suallarını cavablandırıb.

# BDU və "Regional İnkişaf" İctimai Birliyi arasında anlaşma memorandumu imzalanıb

*Memorandum Universitet və RİİB arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, sosial, iqtisadi, ekoloji, elmi, mədəni, təhsil, informasiya texnologiyaları və digər sahələrdə birgə layihələrin və təşəbbüslərin həyata keçirilməsi, gənclərin fərdi inkişafının dəstəklənməsi, ictimai maarifləndirmə və cəmiyyətin dayanıqlı inkişafına töhfə verilməsi istiqamətində birgə fəaliyyət göstərilməsini nəzərdə tutur.*

***Noyabrın 21-də BDU və "Regional İnkişaf" İctimai Birliyi (RİİB) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və RİİB sədri Məhəmməd Abdullayev imzalayıblar.

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Regional İnkişaf" İctimai Birliyi ölkəmizin sosial-iqtisadi, ictimai və mədəni həyatında, vətəndaş cəmiyyəti quruculuğunda, gənclərin şəbəkələşməsində fərqli layihələrə imza atır. Rektor BDU ilə RİİB-in artıq bir neçə ildir səmərəli əməkdaşlıq etdiyini diqqətə çatdırıb, imzalanan memorandumun bu əməkdaşlığı daha da gücləndirəcəyinə əminliyini bildirib. O qeyd edib ki, gənclərin ictimai birliklərə cəlb olunması onlar üçün motivasiya və təcrübə mənbəyidir. BDU-da çoxsaylı gənclər təşkilatları fəaliyyət göstərir. Bu təşkilatlar RİİB-in həyata keçirdiyi layihələrin də aparıcı qüvvəsidir.




RİİB sədri Məhəmməd Abdullayev imzalanan memorandumun BDU-nun elmi və intellektual potensialını paytaxt və regionların inkişafı ilə səmərəli şəkildə əlaqələndirməyə xidmət edəcəyini bildirib. "İnanırıq ki, BDU-nun çağdaş və elmi imkanları ilə "Regional İnkişaf" İctimai Birliyinin müxtəlif sahələrdə qazandığı təcrübə birləşdikdə, ölkəmiz üçün əhəmiyyətli faydalar əldə ediləcək. Bu gün imzalanan anlaşma memorandumu qarşılıqlı etimad və əməkdaşlıq prinsipləri üzərində qurulmuş nümunədir".

Məhəmməd Abdullayev RİİB-in fəaliyyətində təhsil layihələrinin xüsusi yer tutduğunu, Birliyin Elm və Təhsil Nazirliyi, eləcə də ölkənin aparıcı ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq etdiyini qeyd edərək, bu günə qədər Bakı Dövlət Universiteti ilə birgə təşkil olunan müxtəlif tədbirlərdən danışıb.

Memorandum Universitet və RİİB arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, sosial, iqtisadi, ekoloji, elmi, mədəni, təhsil, informasiya texnologiyaları və digər sahələrdə birgə layihələrin və təşəbbüslərin həyata keçirilməsi, gənclərin fərdi inkişafının dəstəklənməsi, ictimai maarifləndirmə və cəmiyyətin dayanıqlı inkişafına töhfə verilməsi istiqamətində birgə fəaliyyət göstərilməsini nəzərdə tutur.

Tərəflər memorandum çərçivəsində müasir dövrün çağırışlarına və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı üçün birgə layihə, yarış, elmi konfrans və müsabiqələr, cəmiyyətin inkişafına xidmət edən müxtəlif sosial, ekoloji, mədəni, təhsil, informasiya texnologiyaları və digər istiqamətlərdə təşəbbüslər həyata keçirəcəklər. Tələbələrin şəxsi inkişafı, sosial məsuliyyət hissinin və könüllülük fəaliyyətinin təşviqi üçün könüllü qismində RİİB-in fəaliyyətinə cəlb olunması və onların müxtəlif layihə və tədbirlərdə iştirakının təmin olunması, təhsilalanların İctimai Birlikdə istehsalat təcrübəsi keçmələrinə şəraitin yaradılması da memorandumda əksini tapıb.

# BDU nümayəndə heyəti Pekində Ümumdünya Çin Dili Konqresində iştirak edib

***BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hü-seyn Məmmədov, sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, BDU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru Vanq Haoqiang 14-15 noyabr tarixlərində Pekin şəhərində keçirilən Ümumdünya Çin Dili Konqresində iştirak edib.***

Pekin Milli Konqres Mərkəzində tədbirin açılış mərasimi keçirilib. Açılış mərasimində Çin Xalq Respublikasının Sədri Si Cinpinin konfrans iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub. Çinin baş nazirinin müavini Dong Xuexiang, təhsil naziri Huai Jinpeng çıxış edərək, Çin və dünya xalqları arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi məqsədilə Çin dilində beynəlxalq təhsilin təşviqinə hərtərəfli dəstəyin davam etdiriləcəyini bildiriblər.

Tədbirdə dünyanın Çin dili tədris olunan ölkələrindən nazirlər, ali məktəb rəhbərləri, tanınmış elm xadimləri iştirak ediblər. Konqresdə beynəlxalq təhsil əlaqələrinin intensivləşdirilməsi, Çin dilinin tədrisində qabaqcıl təcrübənin öyrənilməsi, birgə innovativ proqramların işlənib hazırlanması kimi məsələlər müzakirə olunub.

BDU-da Çin dilinin tədrisinə, Çin universitetləri ilə əlaqələrin inkişafına xüsusi diqqət göstərilir. BDU-da 2004-cü ildən Çin üzrə "Regionşünaslıq" ixtisası açılıb. 2011-ci ildən isə Çinin Anhui Universiteti ilə əməkdaşlığı nəticəsində BDU-nun nəzdində Konfutsi İnstitutu fəaliyyətə başlayıb. İnstitutda Çin dili, Çin mədəniyyətinin təbliği və öyrənilməsi sahəsində mühüm işlər görülür. "Çin körpüsü" adlı Çin dili üzrə beynəlxalq yarış təşkil olunur. Yarışın qalibi Çində ölkəmizi təmsil etmək fürsəti əldə edir. 2022-ci ildən isə Şərqşünaslıq fakültəsində "Çin filologiyası" ixtisası açılıb. 2023-cü il dekabrın 8-də BDU, Çin Təhsil Nazirliyinin Dil Təhsili və Əməkdaşlıq Mərkəzi və Anhui Universiteti arasında "Beynəlxalq Çin dili təhsili" birgə bakalavr proqramı üzrə üçtərəfli müqavilə imzalanıb.

# BDU-da "Ümummilli Lider Heydər Əliyev: Müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji təməllərinin memarı" adlı tədbir

***Noyabrın 21-də Şərqşünaslıq fakültəsi və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon "Z.Xəlilov küç. 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev: Müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji təməllərinin memarı" mövzusunda tədbir keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Yasamal rayon "Z.Xəlilov küç. 33" (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, professor Zahid Cəfərov 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının Azərbaycanın dövlətçilik tarixində Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin və dövlətçilik strategiyasının davamlılığını göstəricisi olduğunu deyib. Qeyd edib ki, Ulu Öndər ölkədə siyasi sabitliyi bərpa edərək inkişafın təməlini yaradıb, milli kimlik və müasirlik arasında harmoniyanı təmin edən ideoloji xətt formalaşdırıb. Bu gün Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası Azərbaycanı beynəlxalq arenada etibarlı tərəfdaşa çevirib. Bu ideoloji-siyasi irs hazırda da ölkənin inkişafını istiqamətləndirən əsas dayaqlardandır. Prezident İlham Əliyev məhz bu böyük məktəbin davamçısı kimi Heydər Əliyev siyasətini yeni dövrün tələblərinə uyğun şəkildə zənginləşdirməklə tarixi Zəfərin qalib Ali Baş Komandanına çevrilib. İndi XXI əsr Azərbaycanının yeni reallığı qalibiyyət, beynəlxalq nüfuzun yüksəlişi və liderlikdir.

Şərqşünaslıq fakültəsinin dekanı, dosent Aydan Xəndan qeyd edib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin siyasi və ideoloji sütunlarını müəyyənləşdirərək ölkənin gələcək inkişaf yolunu xüsusi dəqiqliklə müəyyən edib. O, ağır tarixi şəraitdə xalqı parçalanmaq təhlükəsindən xilas edən xilaskar lider kimi yaddaşlara həkk olunub. Ulu Öndər milli həmrəyliyi gücləndirmək üçün ardıcıl və prinsipial atmaqla əsas ideoloji xətti olan azərbaycançılığı bütün dünyaya tanıdıb. Ümummilli Lider Heydər Əliyevin siyasi düşüncə sistemi sabitlik, strateji planlaşdırma və məsuliyyət üzərində qurulub. Bu xətt dövlət idarəçiliyində etibarlı yol xəritəsinə çevrilərək ölkəmizi inamla sabaha aparır.

Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının müdiri, professor Rüfət Rüstəmov milli ideyanın real siyasi məzmun qazanmasına nail olan Ulu Öndərin çətinlikləri strateji müdrikliklə aradan qaldırdığını bildirib. Ulu Öndərin müstəqilliyin qorunmasını Azərbaycan üçün ali siyasi dəyər kimi qəbul etdirərək, milli maraqları təmin edən güclü idarəçilik sistemi yaratdığını qeyd edib.

Tədbir Ulu Öndərin əsasını qoyduğu azərbaycançılıq ideologiyasının bugünkü inkişaf perspektivlərinə dair müzakirə ilə davam edib.

# Bakı Dövlət Universiteti və Mərkəzi Asiya Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

***"QS Eurasia Forum 2025" çərçivəsində BDU və Özbəkistanın Mərkəzi Asiya Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum universitetlər arasında akademik, elmi-tədqiqat və innovasiya sahələrində strateji əməkdaşlığı gücləndirməyi, təcrübə mübadiləsini təşviq etməyi və beynəlxalq layihələrdə birgə iştirak imkanlarını genişləndirməyi hədəfləyir.***

BDU-nun rektoru Elçin Babayev və Mərkəzi Asiya Universitetinin rektoru Kamran Gulamov tərəfindən imzalanan memorandum çərçivəsində tərəflər birgə elmi seminarlar, konfranslar və tədqiqat layihələrinin təşkili, tələbə və müəllim mübadiləsi proqramlarının genişləndirilməsi, həmçinin region üzrə innovativ və sosial layihələrdə birgə fəaliyyət istiqamətlərini müəyyən edəcəklər.

Bu əməkdaşlıq BDU-nun beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi və Mərkəzi Asiya regionunda akademik tərəfdaşlıqların dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir və ali təhsilin keyfiyyətinin yüksəldilməsi, universitetlərin beynəlxalq nüfuzunun artırılması istiqamətində mühüm addım hesab olunur.

# BDU-da MEDİA-nın təşkilatçılığı ilə "Euronews Academy"nin beynəlxalq tədris proqramının növbəti mərhələsinə start verilib

***Noyabrın 11-də BDU-da Medianın İnkişafı Agentliyi və Avropanın aparıcı xəbər şəbəkələrindən biri olan "Euronews" telekanalının birgə əməkdaşlığı çərçivəsində "Euronews Academy" beynəlxalq tədris proqramının "TV və canlı jurnalistika ("live journalism")" mövzusuna həsr olunan növbəti mərhələsinə start verilib.***

Açılış mərasimində çıxış edən "Euronews"un Bakı üzrə icraçı direktoru Fernando Soares diqqətə çatdırıb ki, "live journalism" formatı auditoriya ilə birbaşa ünsiyyətə əsaslanan və iştirakçılıq prinsipini önə çıxaran yeni nəsil media təcrübəsidir. O qeyd edib ki, təlim proqramı jurnalistlərə hadisələri canlı, faktoloji dəqiqlik və emosional təsir balansı ilə təqdim etmə bacarıqlarını təkmilləşdirməyə imkan yaradır. Vurğulanıb ki, bu təşəbbüs informasiya məkanında etibarlılığın və ictimai marağın davamlılığının təmininə xidmət edən mühüm addımdır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli isə qeyd edib ki, müasir media mühitində televiziya jurnalistikasının keyfiyyət göstəricilərinin daha da yüksəldilməsi və yeni texnoloji trendlərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. O bildirib ki, belə beynəlxalq əməkdaşlıq layihələri gənc jurnalistlərin bilik və bacarıqlarının inkişafına, həmçinin milli televiziya məzmununun beynəlxalq standartlara uyğunlaşdırılmasına töhfə verməklə yanaşı, medianın dayanıqlı inkişafına şərait yaradır.

Dördgünlük təlim proqramı Medianın İnkişafı Agentliyinin BDU-dakı xüsusi auditoriyasında "Televiziya xəbərlərinin hazırlanması, televiziya reportajları və canlı yayım" mövzusu ilə başlayıb. İştirakçılar "Euronews" telekanalının Astana bürosunun rəhbəri, televiziya yayımı sahəsində geniş təcrübəyə malik peşəkar jurnalist və media rəhbəri Bojan Brkiçin təqdimatında xəbər süjetlərinin hazırlanması, efir üçün materialların strukturlaşdırılması və canlı bağlantıların idarə olunması kimi praktiki bacarıqlarla tanış olublar.

Tədris prosesi interaktiv mühazirələr, praktiki tapşırıqlar, qrup müzakirələri və televiziya xəbərlərinin analizi ilə davam edib.

# Malayziyanın ali təhsil müəssisələrinin nümayəndələri BDU-da

"Malayziya universitetləri ilə akademik mübadilə, ikili diplom proqramları, elmi-tədqiqat layihələri, birgə konfransların təşkili istiqamətlərində əməkdaşlıq mühüm nəticələr verə bilər"

***Noyabrın 27-də BDU-da Malayziya ali təhsil müəssisələrinin nümayəndələri ilə görüş keçirilib.***

Qonaqları salamlayan BDU rektoru Elçin Babayev onlara Universitetin fəaliyyəti, elmi tədqiqat və təhsil mühiti, beynəlxalq reytinqlərdə mövqeyi, beynəlmiləlləşmə istiqamətində gördüyü işlər barədə məlumat verib. O, Malayziya universitetləri ilə xüsusilə magistratura və doktorantura səviyyələrində geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Elçin Babayev qeyd edib ki, Malayziya universitetləri ilə akademik mübadilə, ikili diplom proqramları, elmi-tədqiqat layihələri, birgə konfransların təşkili istiqamətlərində əməkdaşlıq mühüm nəticələr verə bilər.

Qonaqlar Azərbaycanın ən böyük ali təhsil müəssisəsi olan BDU ilə müxtəlif istiqamətlər üzrə akademik tərəfdaşlıqda maraqlı olduqlarını bildiriblər.

# BDU-da şagirdlərlə görüş: “Hüquq və suverenlik uşaqların gözü ilə”

***Hüquq fakültəsində “Konstitusiya və Suverenlik İli” çərçivəsində 20 noyabr - Beynəlxalq Uşaq Hüquqları Gününə həsr olunmuş “Hüquq və suverenlik uşaqların gözü ilə” adlı görüş keçirilib. Görüşdə Bakı şəhəri Xəzər rayonu Buzovna qəsəbəsinin 125 nömrəli tam orta məktəbinin şagird və müəllimləri iştirak ediblər.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev məktəblilərlə görüşün onların hüquq mühiti və elmi atmosferlə yaxından tanış olması baxımından önəmini qeyd edib. Hüquq fakültəsinin Şərqi Avropanın ən qədim və böyük fakültələrindən biri olduğunu bildirib, hüquqşünas peşəsinin xüsusiyyətlərindən bəhs edib. Dekan tələbələrin uğurları haqqında məlumat verərək, Prezident təqaüdçülərinin sayına görə fakültənin respublika birincisi olduğunu vurğulayıb.




Zaur Əliyev uşaq hüquqları sahəsində əsas beynəlxalq sənədlər – 1959-cu il Uşaq Hüquqları Bəyannaməsi və 1989-cu il Uşaq Hüquqları Konvensiyasının uşaqların müdafiəsində oynadığı rolu vurğulayıb, dövlətin uşaq hüquqları sahəsində apardığı siyasətə toxunub. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu 1995-ci il Konstitusiyası uşaq hüquqlarının qorunmasına xüsusi yer ayırıb. Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmiş “Uşaq hüquqları haqqında” Qanun isə dövlətin uşaqlara göstərdiyi dəyərin bariz nümunəsidir. Dekan, eyni zamanda, ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə həyata keçirilən mühüm tarixi hadisələrdən danışıb. Bildirib ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və I Qarabağ müharibəsinin ən uğurlu döyüş əməliyyatı sayılan Horadiz əməliyyatı, bunun nəticəsində bir sıra kəndlərin, o cümlədən qələbəmizin müjdəçisinə çevrilən Cocuq-Mərcanlının azad olunması ilə başlanan zəfər yürüşü Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla başa çatdırılıb. 44 günlük Vətən müharibəsində əldə olunan Zəfər nəticəsində Qarabağda yenidən uşaq səsləri eşidilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Ulu Öndərin xeyirxahlıq missiyasını uğurla davam etdirən Heydər Əliyev Fondunun fəaliyyəti haqqında danışan dekan Fond tərəfindən həyata keçirilən layihələrin uşaqların sosial müdafiəsinin gücləndirilməsi baxımından olduqca əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra 125 nömrəli tam orta məktəbin şagirdləri şeirlər səsləndirib, uşaq hüquqları ilə bağlı fikirlərini söyləyiblər. Uşaqlar fakültə ilə də tanış olub, auditoriyalara daxil olaraq dərsləri izləyiblər.

Tədbir çərçivəsində həmçinin Hüquq fakültəsinin dekanının təşəbbüsü ilə tələbələrin hazırladığı, “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Əsas Qanunun işığında - Konstitusiya” adlı məktəbli kitabçasının təqdimatı keçirilib. Tədbirin sonunda məktəblilərə sertifikatlar təqdim edilib.

# BDU-da xalqımızın tarixi Zəfərinin beşinci ildönümünə həsr olunmuş elmi seminar keçirilib

***Noyabrın 21-də Tarix fakültəsində xalqımızın Vətən müharibəsində tarixi Zəfərinin beşinci ildönümünə həsr olunmuş elmi seminar keçirilib.***

Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Kəmalə Nəcəfova qeyd edib ki, Vətən müharibəsi və qazandığımız tarixi Zəfər xalqımızın milli dövlətçilik salnaməsinin ən şərəfli səhifələrindəndir. Bu qələbəni şərtləndirən amilllər Müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi, Ordumuzun rəşadəti, “Dəmir yumruq”dan ilhamlanan xalqın əzmi, xalq-iqtidar birliyi, dövlətin iqtisadi gücü və müasir ordu quruculuğudur. Zəfər tarixinin hər bir səhifəsinin dərindən araşdırılması, bununla bağlı tədqiqatların aparılması və gələcək nəsillərə çatdırılması üçün tarixçi alimlərin də üzərinə böyük məsuliyyət düşür.

Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, akademik Yaqub Mahmudov “Qalib xalq adını özümüzə qaytaran tarixi qələbə” adlı məruzə edib. Məruzədə Azərbaycanın əzəli torpağı olan Qarabağın ən qədim çağlardan müasir dövrə kimi tarixinə ümumi nəzər salınıb, Qarabağın ərazisi, əhalisi, inzibati-ərazi bölgüsü, sosial-iqtisadi vəziyyəti və siyasi həyatı, o cümlədən XX əsrin 20-ci illərində Azərbaycan SSR-in tərkibində qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və bunun ağır nəticələri ilk mənbələr, arxiv sənədləri və mövcud ədəbiyyatlar əsasında geniş təhlil olunub. Ermənilərin Qarabağın dağlıq hissəsini Azərbaycandan ayırmaq üçün irəli sürdüyü ərazi iddialarının əsassızlığı mötəbər mənbələr əsasında seminar iştirakçılarına çatdırılıb.

Elmi seminarda XX əsrin 80-90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində Dağlıq Qarabağ münaqişəsinin meydana gəlməsi, Birinci Qarabağ savaşı və onun nəticələri, Azərbaycanın ərazisinin böyük bir hissəsinin təcavüzkar Ermənistan dövləti tərəfindən işğal olunması, Ermənistanda və Qarabağ bölgəsində azərbaycanlılara qarşı aparılan etnik təmizləmə və soyqırım siyasəti, dinc əhaliyə qarşı terror, mədəniyyət abidələrimizə qarşı vandalizm aktları, ATƏT-in Minsk qrupunun münaqişənin həlli sahəsində səmərəsiz fəaliyyəti də nəzərdən keçirilib.

Elmi seminarın əsas hissəsi 2020-ci ildə zəfərlə başa çatan Vətən müharibəsinə həsr olunub. Məruzədə Vətən müharibəsinin başlanması, "Dəmir yumruq" əməliyyatının həyata keçirilməsi, Ermənistanın müharibədə hərbi və siyasi iflası, misli görünməmiş Şuşa əməliyyatı, Azərbaycan torpaqlarının qəhrəman Ordumuz tərəfindən işğaldan azad edilməsi, müharibə dövründə Prezident İlham Əliyevin diplomatik sahədə əldə etdiyi böyük uğurlar, dost dövlətlərin Azərbaycana dəstəyi və digər ölkələrin müharibəyə münasibəti, 44 günlük savaş zamanı beynəlxalq təşkilatların mövqeyi, dünya mediasında müharibənin əks olunması, Ermənistanı təslim olmağa vadar edən 10 noyabr Bəyanatı, postmünaqişə dövründə bölgədə yaranmış yeni reallıqlar, Azərbaycan-Türkiyə qardaşlığı və Şuşa Bəyannaməsi, "Böyük qayıdış" planına uyğun olaraq Qarabağın, mədəniyyətimizin paytaxtı elan edilən Şuşa şəhərinin və işğaldan azad edilən digər şəhər və rayonlarımızın dirçəldilməsi ilə bağlı bərpa-quruculuq işləri kimi çox mühüm məsələlərə toxunulub.

Seminarda Tarix fakültəsinin professor-müəllim heyəti, doktorant və tələbələri, AMEA Tarix və Etnologiya İnstitutunun əməkdaşları iştirak ediblər.

# BDU Özbəkistan və Qazaxıstan universitetləri ilə dördtərəfli əməkdaşlıq memorandumu imzalayıb

***Bakı Dövlət Universiteti, Özbəkistanın Mirzə Uluqbəy adına Milli Universiteti, Qazaxıstanın Safi Utebayev adına Atırau Neft və Qaz Universiteti və D.Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universiteti arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığı gücləndirmək məqsədilə dördtərəfli anlaşma memorandumu imzalanıb.*** BDU-nun rektoru Elçin Babayev, Özbəkistan Milli Universitetinin rektoru İnom Macidov, Atırau Neft və Qaz Universitetinin rektoru Gulzada Şakulikova və D.Serikbayev Şərqi Qazaxıstan Texniki Universitetinin rektoru Saula Rahmatullina tərəfindən imzalanan memorandum universitetlər arasında qarşılıqlı etimad, bərabər hüquqlar və səmərəlilik prinsipləri əsasında əməkdaşlığı rəsmi şəkildə təsdiqləyir.

Memorandum çərçivəsində tərəflər birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi və nəticələrinin nəşri, tələbə, tədqiqatçı, akademik və inzibati heyət üçün akademik, elmi və mədəni mobilliyin təşviqi, məlumat və bilik mübadiləsinin açıq şəkildə aparılması, həmçinin müxtəlif sahələrdə birgə akademik və inzibati mübadilələrin təşkili istiqamətlərində fəaliyyət



göstərəcəklər. Tərəflər əməkdaşlığın regional ali təhsil və elmi-tədqiqat sahələrində əlaqələri dərinləşdirmək üçün mühüm bir addım olduğunu vurğulayıblar. Gələcəkdə atılacaq addımlar nəticəsində təcrübə və resursların paylaşılması sayəsində universitetlər akademik mükəmməlliyi artıracaq, innovasiya və mədəni anlaşmanı gücləndirəcək.

Memorandum həmçinin davamlı və uzunmüddətli əməkdaşlıq üçün ortaq baxışın nümayişi olaraq, tələbələr, müəllimlər və geniş akademik ictimaiyyət üçün əhəmiyyətli faydalar yaratmağı hədəfləyir.

# BDU ilə Koreyanın Sejonq Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 17-də BDU və Koreya Respublikasının Sejonq Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Sejonq Universitetinin rektoru Conqva Eom imzalayıblar.

Memorandumda hər iki universitetin nəzdində olan fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin, konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kursların, təlimlərin keçirilməsi, ortaq elmi-tədqiqatların aparılması nəzərdə tutulur. Həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik, inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların mübadiləsi kimi məsələlər də memorandumda öz əksini tapıb.

Əsası 1940-cı ildə qoyulmuş Sejonq Universiteti Koreyanın nüfuzlu universitetlərindən biridir. Sejonq Universiteti QS dünya universitetləri reytinqində 2026-cı il üzrə 392-ci pillədə qərarlaşır.

# BDU-da professor Əkbər Bayramovun 95 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib

***Noyabrın 25-də BDU-da professor Əkbər Bayramovun 95 illik yubileyinə həsr olunmuş "Nəzəriyyədən praktikaya" mövzusunda Respublika elmi konfransı keçirilib.***

Konfransın açılış mərasimində çıxış edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov professor Əkbər Bayramovun həm elmi, həm də pedaqoji fəaliyyəti ilə Azərbaycan psixologiya elminə mühüm töhfələr vermiş görkəmli alim olduğunu deyib. Bildirib ki, onun tədqiqatları hüquqi psixologiya, etnik psixologiya, pedaqoji və sosial psixologiya sahələrini əhatə edib, alim çoxsaylı monoqrafiya və elmi əsərləri ilə ölkəmizdə elmi fikrin inkişafına xidmət göstərib: "Əkbər müəllimin tədqiqatları, xüsusilə hüquqi və etnik psixologiya sahəsində aparılmış araşdırmaları bu gün də aktualdır. O, hüquqi psixologiya sahəsində kadr potensialının zəif olduğu bir vaxtda bu sahədə tədqiqatlar aparmaqla gələcək nəsillər üçün möhkəm təməl yaradıb. Professor Əkbər Bayramovun



həyat və yaradıcılığı bir məktəbdir – elmə, insanlığa və mənəviyyata bağlılığın məktəbi. Əkbər Bayramov öz fəaliyyəti ilə yalnız bir alim obrazı deyil, həm də mənəviyyat simvoluna çevrilib. 1930-cu ilin dekabrında Ağdam rayonunun Əlimədətli kəndində dünyaya göz açan alim sadə, zəhmətkeş bir ailədə böyüyüb. Erkən yaşlardan təhsilə maraq göstərib və 1945-1949-cu illərdə Ağdam Pedaqoji Texnikumunu bitirib. Daha sonra Bakı Dövlət Universitetində təhsilini davam etdirərək psixologiya elminin sirlərinə yiyələnib. Təhsilə və elmi axtarışlara olan bağlılığı, bu sahədəki yorulmaz fəaliyyəti onu Azərbaycan psixologiyasının tanınmış simalarından birinə çevirib. Universitetimizdə belə alimlərin xatirəsini yaşatmaq bizim borcumuzdur. Bu gün keçirilən konfransın əsas məqsədi də yalnız xatırlamaq deyil, yeni nəsli bu dəyərli ziyalı ilə tanış etmək, onun ideyalarının davamçılarını formalaşdırmaqdır".

Sonra professor Əkbər Bayramovun həyat yolunu özündə əks etdirən videoçarx nümayiş etdirilib.

BDU-nun Sosial elmlər və psixologiya fakültəsin dekanı Rövşən Cavadov qeyd edib ki, professor Əkbər Bayramovun elmi irsi psixoloji tədqiqatlarda fundamental əhəmiyyətə malikdir. Onun apardığı araşdırmalar xüsusilə təfəkkür müstəqilliyinin, təndidiliyin və iradi müstəqilliyin insan inkişafında rolu ilə bağlı aktual yanaşmalar təqdim edir. Bu baxımdan onun yaratdığı elmi məktəb sistemli və çoxşaxəli tədqiqat istiqamətləri ilə seçilir. Əkbər Bayramovun rəhbərliyi altında aparılan elmi işlərdə təfəkkür müstəqilliyi təkcə biliyin sərbəst şəkildə tətbiqi deyil, eyni zamanda iradi və tənqidi bacarıqların vəhdəti kimi qiymətləndirilir: "Əkbər Bayramov həm də böyük şəxsiyyət, müdrik bir pedaqoq idi. Onun şəxsiyyətində alimliklə insanlıq, elmlə mənəviyyat, tələbkarlıqla humanistlik vəhdət təşkil edirdi".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, millət vəkili Mehriban Vəliyeva, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov, BDU-nun Psixologiya kafedrasının müdiri, professor Səxavət Əliyeva, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor Rəbiyyət Aslanova, Pedaqogika kafedrasının müdiri, professor Ləzifə Qasımova, professor Hikmət Əlizadə və professor Əkbər Bayramovun ailəsi adından kafedranın müəllimi Nigar Nəsirova alimlə bağlı xatirələrindən söz açıb, onun sosial elmlər istiqamətində verdiyi töhfələrin daim tədqiq ediləcəyini bildiriblər.

# BDU-da Azərbaycanın ilk proqramçısı Ramin Mahmudzadənin 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

***Noyabrın 25-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsində Azərbaycanın ilk proqramçısı, informasiya texnologiyaları sahəsində tanınmış mütəxəssis, görkəmli pedaqoq, fizika-riyaziyyat elmləri namizədi, dosent, "Şöhrət" ordenli Ramin Mahmudzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "İnformasiya texnologiyaları, süni intellekt, böyük verilənlər: müasir tendensiyalar və perspektivli tədqiqatlar" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Tədbiri giriş sözü ilə BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov açaraq Ramin Mahmudzadənin Azərbaycan elminin, xüsusilə proqramlaşdırma və informatika tədrisinin inkişafında müstəsna rolundan danışıb. Bildirib ki, sadlı pedaqoq və gözəl insan olan Ramin Mahmudzadə həyatını tələbələrinin proqramlaşdırma sahəsində yüksək biliklər qazanmasına, ölkədə bu istiqamətdə yeniliklərin tətbiqinə həsr edib. Onun yetişdirdiyi tələbələr bu gün informasiya texnologiyaları sahəsində dünyanın ən nüfuzlu qurumlarında çalışırlar.

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, professor Ələkbər Əliyev çıxış edərək Ramin Mahmudzadənin elmi-pedaqoji fəaliyyətindən, "İnformatika" fənni üzrə I-XI siniflər üçün dərslik və metodik vəsaitlərin hazırlanmasındakı əvəzedilməz xidmətlərindən bəhs edib. Qeyd olunub ki, onun hazırladığı şagird və tələbələr Beynəlxalq İnformatika Olimpiadalarında ölkəmizə çoxsaylı medallar qazandırıblar.

Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Misir Mərdanov Ramin Mahmudzadəni elmə və təhsilə böyük töhfələr vermiş, ömrünü savadlı kadrların yetişdirilməsinə sərf etmiş unudulmaz şəxsiyyət kimi səciyyələndirib. O bildirib ki, Ramin Mahmudzadənin elmə bağlılığı və təhsil sahəsindəki yenilikləri uzun illər yaddaşlardan silinməyəcək.

Əməkdar müəllim Mətanət Əhmədova, fakültənin müəllimləri Rəmzi Hacıyev və Fuad Qurbanov da öz çıxışlarında görkəmli pedaqoqun sadə və təvazökar şəxsiyyəti, informatika elminin inkişafına verdiyi töhfələr, müəllimlik missiyasına böyük məsuliyyətlə yanaşması barədə xatirələrini bölüşüblər.

Sonda Ramin Mahmudzadənin oğlu Əlinazim Mahmudzadə ailəsi adından konfrans iştirakçılarına və tədbirin yüksək səviyyədə təşkilinə görə BDU rəhbərliyinə minnətdarlığını bildirib.

Konfrans bölmələr üzrə işini davam etdirib.

# Bakı Dövlət Universitetinin nümayəndə heyəti "QS Eurasia Forum 2025"də iştirak edib

***BDU-nun rektoru Elçin Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti 25-26 noyabr tarixlərində Özbəkistanın Daşkənd şəhərində yerləşən Mərkəzi Asiya Universitetində keçirilən "QS Eurasia Forum 2025: Broadening horizons: Building global bridges in higher education" adlı beynəlxalq tədbirdə iştirak edib.***

Avrasiya regionu Şərqlə Qərbi birləşdirən, elmi və mədəni inteqrasiyanın strateji kəsişmə nöqtəsi kimi dinamik inkişaf trayektoriyasına malik olan mühüm məkandır. Elm və təhsil mərkəzlərinin fəaliyyəti, tədqiqatyönlü ekosistemlərin formalaşması və insan kapitalına yönəlmiş davamlı investisiya axını Avrasiya regionunun qlobal təhsil və innovasiya məkanında strateji mövqeyini daha da gücləndirir. Forumun məqsədi məhz bu elmi-təhsil potensialını qlobal səviyyədə tanınan bir brendə çevirmək, ali təhsil müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və Avrasiya




üzrə akademik əməkdaşlıq platformalarını genişləndirməkdir.

Tədbirin açılış mərasimində "Quacquarelli Symonds" (QS) şirkətinin prezidenti və İdarə Heyətinin sədri Nunzio Quacquarelli, Mərkəzi Asiya Universitetinin Himayəçilər Şurasının sədri Abdujabbor Abdusattorovich Abduvakhitov, həmçinin Birləşmiş Krallığın Daşkənddəki səfiri Timothy Smart çıxış edərək forumun mahiyyəti və prioritet istiqamətlərinə dair fikirlərini bölüşüblər. Onların çıxışlarında Avrasiyanın ali təhsil sahəsində yüksələn qlobal mərkəzə çevrilməsi, elmi-innovativ əməkdaşlıqların dərinləşdirilməsi və beynəlxalq şəbəkələrin genişləndirilməsi kimi strateji məsələlər vurğulanıb.

Açılış nitqlərindən sonra proqram "Ministerial Keynotes" sessiyası ilə davam edib. Sessiyada Özbəkistan Respublikasının ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Sardor Racabov, Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Nurbek Sayasat və Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək regional inkişaf strategiyaları, elmi potensialın gücləndirilməsi və Avrasiyanın qlobal akademik məkanla daha sıx inteqrasiyası məsələlərinə toxunublar.

BDU nümayəndə heyətinin forumda iştirakı Universitetin beynəlxalq mövqeyinin gücləndirilməsi, strateji tərəfdaşlıqların genişləndirilməsi və Avrasiya təhsil məkanında gedən müasir proseslərə aktiv şəkildə qoşulması baxımından xüsusi əhəmiyyət kəsb edir. Forum çərçivəsində Universitet nümayəndələri ali təhsilin qlobal trendləri, innovasiya yönümlü idarəetmə modelləri, elmi-tədqiqatın beynəlmiləlləşdirilməsi və regional əməkdaşlıq perspektivləri üzrə keçirilən panel müzakirələrində və seminar sessiyalarında fəal iştirak edəcək, bu sahələrdə BDU-nun təcrübəsini beynəlxalq tərəfdaşlarla bölüşəcəklər.

Tədbir ali təhsil sistemində yeni körpülərin qurulması, Avrasiyanın akademik potensialının dünyaya tanıdılması və universitetlər arasında daha sıx əməkdaşlıq mexanizmlərinin formalaşdırılması üçün mühüm platforma rolunu oynayır.

# BDU-da XXIV Bakı yapon dili natiqlik müsabiqəsi keçirilib

***Noyabrın 3-də BDU-nun təşkilatçılığı, Yaponiyanın Azərbaycandakı səfirliyi, Bakı Yaponlar Cəmiyyəti, Yaponiya Fondu və ölkədə fəaliyyət göstərən yapon şirkətlərinin dəstəyi ilə XXIV Bakı yapon dili natiqlik müsabiqəsi təşkil edilib.***

Müsabiqənin məqsədi tələbələrə bilik və bacarıqlarının nümayiş etdirilməsi üçün şərait yaratmaq, onlarda bu dilə olan marağı artırmaqdır.

BDU rektoru Elçin Babayev müsabiqə iştirakçılarına uğurlar arzulayıb, belə müsabiqələrin Azərbaycanla Yaponiya arasında əlaqələrin inkişafına töhfə verdiyini qeyd edib.

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabe müsabiqənin təşkilinə görə BDU rəhbərliyinə təşəkkür edib. Səfir bildirib ki, mütəmadi keçirilən müsabiqə tələbələrin yapon dilini mənimsəmə səviyyəsinə müsbət təsir edir. O, Yaponiya səfirliyinin Azərbaycanda yapon dilinin yayılmasına bundan sonra da dəstək verəcəyini qeyd edib.



Müsabiqədə BDU-nun 8, Azərbaycan Dillər Universitetinin (ADU) 6, dil kurslarının 4 tələbəsi yapon dili üzrə bacarıqlarını nümayiş etdirib.

Münsiflər Heyətinin qərarına əsasən, BDU-nun tələbələri İlkin Zəkiyev I, Ruslana Dadaşova II, Sədaqət Əliyeva III, ADU-nun tələbəsi Leylan Dadaşova IV, BDU-nun tələbəsi Nuray Cəbiyeva V yerə layiq görülüblər. BDU tələbəsi Marat Mixaylov isə həvəsləndirici mükafat qazanıb.

Müsabiqənin Münsiflər Heyətinin sədri İnada Şoji, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri Oqtay Cəlilbəyli çıxışlarında müsabiqə iştirakçılarının səviyyəsinin yüksək olduğunu bildirib, yarışın yüksək səviyyədə təşkil olunmasına görə BDU rəhbərliyinə və Yaponiyanın Azərbaycandakı səfirliyinə təşəkkür ediblər. Qeyd olunub ki, Bakı yapon dili natiqlik müsabiqəsi tələbə və məzunların gələcək karyeralarında böyük rol oynayır.

Müsabiqənin qaliblərinə səfirliyin sertifikatları və sponsor şirkətlərin hədiyyələri təqdim edilib.

# BDU-da "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası – 2025" layihəsinin növbəti tədbiri

***Noyabrın 4-də İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzi (İƏGF Avrasiya Regional Mərkəzi), Gənclər və İdman Nazirliyi və BDU-nun birgə tərəfdaşlığı ilə həyata keçirilən "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsinin növbəti tədbiri keçirilib.***

Müstəqil Azərbaycanın ilk baş naziri, fövqəladə və səlahiyyətli səfir, tarix elmləri doktoru Həsən Həsənov "Beynəlxalq münasibətlərdə kommunikasiyanın əhəmiyyəti və təcrübəyə əsaslanan addımlar" mövzusunda çıxış edib. O bildirib ki, beynəlxalq arenada etimadın formalaşdırılmasının diplomatik proseslərə təsiri danılmazdır və kommunikasiya bacarıqları dövlətlərarası münasibətlərin inkişafında mühüm rol oynayır.

Sessiyanın növbəti hissəsində Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün "Müsəlman dünyasında Türkiyənin rolu: çağırışlar və imkanlar" mövzusunda danışıb. Səfir öz nitqində Türkiyənin İslam dünyasında oynadığı mühüm geosiyasi və mədəni roldan, bölgədə baş verən proseslər fonunda qarşıya çıxan yeni çağırışlar və əməkdaşlıq imkanlarından söz açıb.



Sessiyanın sonunda tələbələrin mövzularla bağlı çoxsaylı sualları cavablandırılıb.

Qeyd edək ki, 6 həftə ərzində davam edəcək "İƏT Modeli Beynəlxalq Münasibətlər Akademiyası - 2025" layihəsi çərçivəsində İƏT ölkələrini Azərbaycanda təmsil edən diplomatik missiya rəhbərləri, eləcə də azərbaycanlı rəsmilər və sahə üzrə ekspertlər beynəxalq münasibətlər, dövlət quruculuğu, islam sivilizasiyası, İƏT-in dünyada rolu, milli dövlətçiliyin əsasları və digər aktual mövzular üzrə məruzələrlə çıxış edəcəklər.

Bununla yanaşı, layihə çərçivəsində Azərbaycanın 5 ali təhsil müəssisəsində müxtəlif İƏT ölkələrini təmsil edən xarici işlər nazirliklərinin, yekun mərhələdə İƏT xarici işlər nazirləri toplantısının simulyasiya konfransları keçiriləcək. Bu simulyasiya konfransında Münsiflər Heyətinin qərarı ilə xarici dil qabiliyyəti və xüsusi yaradıcılıq bacarığı ilə seçilən tələbələr "Beynəlxalq İƏT Modeli" yarışmasında Azərbaycanı təmsil etmək hüququ əldə edəcəklər.

# "İctimaiyyətlə əlaqələrin dövlət idarəçiliyində strateji rolu: Azərbaycan təcrübəsi" mövzusunda elmi seminar

***Noyabrın 28-də Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının doktorantı Zənurə Talıbovanın "İctimaiyyətlə əlaqələrin dövlət idarəçiliyində strateji rolu: Azərbaycan təcrübəsi" mövzusunda elmi seminarı keçirilib.***

Seminarda ictimaiyyətlə əlaqələrin (PR) dövlət idarəçiliyindəki strateji əhəmiyyəti, onun informasiya siyasəti, şəffaflıq və ictimai etimad baxımından rolundan bəhs olunub. Vurğulanıb ki, dövlət qurumları və vətəndaşlar arasında effektiv kommunikasiya mexanizmlərinin qurulması ictimai rəyin düzgün formalaşdırılması, dövlət siyasətinin dəstəklənməsi və sosial sabitliyin qorunması üçün vacib amillərdəndir. Azərbaycan nümunəsində, xüsusilə Prezident Administrasiyası, nazirliklər və yerli icra orqanlarının ictimaiyyətlə əlaqə sahəsində gördüyü işlər təhlil olunub. Sosial media platformalarında rəsmi strukturların fəallaşması, press-relizlər, brifinqlər və ictimai dinləmələrin təşkili nümunə kimi təqdim edilib.



Təqdimatda həmçinin beynəlxalq təcrübə ilə müqayisələr aparılıb və ictimaiyyətlə əlaqələrin yalnız informasiya ötürmək deyil, həm də vətəndaşları qərarvermə prosesinə cəlb etmək baxımından strateji əhəmiyyət daşıdığı vurğulanıb.

# BDU könüllülərinin təşkilatçılığı ilə keçirilən Mülki Məhkəmə Simulyasiyası başa çatıb

**Noyabrın 4-də "BDU könüllüləri" təşkilatının Hüquq fakültəsi üzrə üzvləri, Mülki proses və kommersiya hüququ kafedrasının birgə təşkilatçılığı ilə keçirilən silsilə Mülki Məhkəmə Simulyasiyası başa çatıb.**

BDU-nun Mülki proses və kommersiya hüququ kafedrasının müdiri Əsmər Əliyeva belə formatda ilk dəfə keçirilən Məhkəmə Simulyasiyasının uğurla yekunlaşması ilə bağlı iştirakçıları təbrik edib. Bu cür təşəbbüslərin hüququn tədrisindəki əhəmiyyətindən, tələbələrin inkişafındakı rolundan söz açıb və Mülki Məhkəmə Simulyasiyasının həyata keçirilməsində göstərilən dəstəyə görə Məhkəmə-Hüquq Şurası və Ali Məhkəməyə təşəkkürünü bildirib.

"BDU könüllüləri" təşkilatının Hüquq fakültəsi üzrə sədri Ələm Nəbizadə simulyasiya çərçivəsində təşkil olunan müsabiqənin qaliblərini elan edib. Tədbirin davamında tələbələr mülki məhkəmə işi üzrə səhnələşdirilən məhkəmə icraatını canlandırıb.

Sonda Mülki Məhkəmə Simulyasiyasında qurulan məhkəmə işi üzrə kassasiya instansiya məhkəməsində sədr və məruzəçi hakim olmuş Ali Məhkəmənin Mülki Kollegiyasının hakimi İspəndiyar Şəfiyev tələbələr üçün "Vahid məhkəmə təcrübəsi" mövzusunda seminar keçirib və onların suallarını cavablandırıb.

Qeyd edək ki, BDU-nun Hüquq fakültəsinin Mülki Məhkəmə Simulyasiyası Ali Məhkəmənin məhkəmə təcrübəsini müəyyən edən Qərarı üzərində qurulub. Üç mərhələdə (birinci, apellyasiya və kassasiya) təşkil edilən simulyasiyanın birinci instansiya mərhələsi oktyabrın 18-də Bakı Şəhəri Binəqədi Rayon Məhkəməsində, apellyasiya mərhələsi isə oktyabrın 25-də Bakı Apellyasiya Məhkəməsində keçirilib.

# BDU-da Konstitusiya Günü ilə bağlı kitab sərgisi təşkil olunub

***BDU-nun Elmi Kitabxanası 12 Noyabr – Konstitusiya Günü münasibətilə ənənəvi kitab sərgisi təşkil edib.***

Sərgidə 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması, 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 12 noyabrın Azərbaycan Respublikasının Konstitusiya Günü elan edilməsi haqda məlumatları, Konstitusiya hüququ, tarixi, Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası kimi mövzularda 50-dən çox nəşr nümayiş olunub.

# BDU və Milli Observatoriya nümayəndələri arasında görüş

***Noyabrın 27-də BDU Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın nümayəndələri arasında görüş keçirilib.***

Görüşdə Milli Observatoriyanın İdarə Heyəti sədrinin müavini Şaiq Kazımov, Təlimlərin təşkili və layihələrlə iş departamentinin müdiri Əli Mahmudov, Əmək bazarının qiymətləndirilməsi departamentinin Qiymətləndirmə şöbəsinin müdiri İnci Allahverdiyeva, həmin departamentin baş mütəxəssisi Elnarə Qəribova, BDU Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov, Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova və şöbənin baş mütəxəssisi İlkin Şərifov iştirak ediblər.




Görüşün əsas məqsədi BDU və Milli Observatoriya arasında imzalanmış əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin icra vəziyyətini müzakirə etmək, mövcud fəaliyyətləri qiymətləndirmək və gələcək əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək olub. Tərəflər Universitetin tələbə və əməkdaşları üçün həyata keçirilən təlimlərin gedişatı, iştirakçı fəallığı, maraq dinamikası və əldə olunan nəticələr barədə fikir mübadiləsi aparıblar.

Müzakirələr zamanı təlimlərin effektivliyinin artırılması, koordinasiyanın gücləndirilməsi və Milli Observatoriyanın analitik alətlərinin BDU-da tətbiqi imkanları diqqət mərkəzində olub. Həmçinin BDU məzunlarının məşğulluq göstəriciləri, tələbələr üçün karyera dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, əmək bazarının müasir trendlərinin tədris proqramlarına inteqrasiyası və məzun məlumat bazasının genişləndirilməsi kimi məsələlər nəzərdən keçirilib.

Milli Observatoriyanın sədr müavini Şaiq Kazımov bildirib ki, birgə fəaliyyət tələbələrin elmi potensialının və tədqiqat bacarıqlarının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təlim və layihələr gənclərin bilik və bacarıqlarının real sektorda tətbiqinə şərait yaradır.

BDU Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov Universitetin elmi-tədqiqat qurumları ilə əməkdaşlığının tələbələrin peşəkar inkişafında mühüm rol oynadığını vurğulayıb.

Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova isə təlim proqramlarının əmək bazarının tələblərinə uyğun formalaşdırılmasının vacibliyini diqqətə çatdıraraq, məzun məşğulluğu üzrə mütəmadi analizlərin aparılmasının əhəmiyyətini qeyd edib.

Görüşün sonunda tərəflər əməkdaşlığın genişləndirilməsi və yeni birgə təşəbbüslərin həyata keçirilməsi barədə razılığa gəliblər.

# BDU-da "Azərbaycanın əmək bazarının çağırışları və perspektivləri" adlı müzakirə keçirilib

***Noyabrın 27-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə "Məzunla görüş" layihəsi çərçivəsində "Azərbaycanın əmək bazarının çağırışları və perspektivləri" mövzusunda panel müzakirəsi keçirilib. Tədbirin məqsədi universitet-məzun əlaqələrini gücləndirmək, uğurlu məzunların təcrübəsini tələbələrlə bölüşmək və onların peşəkar inkişafına dəstək göstərmək olub.***

Panelə Mərkəzin məzunlarla birgə layihələr üzrə məsləhətçisi Mələkxanım Qurbanova moderatorluq edib. Çıxışçılar arasında Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Əmək bazarı üzrə tədqiqat departamentinin müdiri Ayşəm Balayeva, Təlimlərin təşkili və layihələrlə iş departamentinin müdiri Əli Mahmudov, Dövlət Sosial Müdafiə Fondunun İnsan resursları şöbəsinin müdiri Telli Rəfiyeva-Xəlilova yer alıb.

Karyera və məzunlarla iş Mərkəzinin direktoru Qəşəm Məmmədov bildirib ki, "Məzunla görüş" layihəsi BDU tələbələrinin karyera hazırlığına dəstək göstərən davamlı əməkdaşlıq modelidir. Mərkəz uğurlu məzunların təcrübəsini tələbələrə çatdırmağı prioritet hesab edir.

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Əmək bazarı üzrə tədqiqat departamentinin müdiri Ayşəm Balayeva çıxışında əmək münasibətlərində qlobal dəyişikliklərdən, işəgötürənlərin tələblərinin artmasından və yumşaq bacarıqların əhəmiyyətindən danışıb. O qeyd edib ki, şəbəkələşmə və davamlı özünəinvestisiya karyera inkişafının əsas şərtlərindəndir.

Milli Observatoriyanın Təlimlərin təşkili və layihələrlə iş departamentinin müdiri Əli Mahmudov şəxsi inkişafın, peşə seçiminin və praktiki bacarıqların önəmini vurğulayıb. O bildirib ki, əmək bazarı daha rəqabətli və dinamikdir, işəgötürənlər həm texniki, həm də sosial bacarıqları yüksək olan gənclərə üstünlük verirlər.

Dövlət Sosial Müdafiə Fondunun İnsan resursları şöbəsinin müdiri Telli Rəfiyeva-Xəlilova çıxışında uğurlu karyera üçün planlı inkişaf, nizam-intizam, dəstək almağa açıq olmaq və şəbəkələşmənin rolunu xüsusi qeyd edib. O bildirib ki, böyük məqsədləri kiçik addımlarla həyata keçirmək həm prosesi idarəolunan edir, həm də motivasiya yaradır.



Panel müzakirəsi zamanı Azərbaycan əmək bazarındakı mövcud dəyişikliklər, rəqəmsallaşmanın yaratdığı yeni peşələr, yumşaq bacarıqların aktuallığı və gələcək trendlər barədə fikir mübadiləsi aparılıb.

Tələbələr spikerlərə suallar ünvanlayaraq detallı cavablar alıblar.

# BDU və Türkiyənin Süleyman Dəmirəl Universiteti arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 28-də BDU və Türkiyənin Süleyman Dəmirəl Universiteti arasında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və Süleyman Dəmirəl Universitetinin rektoru Mehmet Saltan imzalayıblar.

İmzalanma mərasimində çıxış edən rektor Elçin Babayev qonağa BDU-nun tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun türkdilli ölkələrlə, o cümlədən qardaş Türkiyənin ən tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyini bildirib. O, Azərbaycanın xalqının Ümummilli Lideri Heydər Əliyevin BDU-nun ən böyük məzunu olduğunu xatırladıb, Türkiyənin dahi siyasətçisi Süleyman Dəmirəlin adını daşıyan universitetlə əməkdaşlığın ölkələrimiz arasında qardaşlıq münasibətlərinə öz töhfəsini verəcəyini bildirib. O, Süleyman Dəmirəl Universiteti ilə hüquq, iqtisadiyyat, kimya mühəndisliyi, geologiya mühəndisliyi, psixologiya kimi sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Süleyman Dəmirəl Universitetinin rektoru Mehmet Saltan rəhbərlik etdiyi ali təhsil müəssisəsinin 14 fakültə, 40 minə yaxın tələbəsi olduğunu diqqətə çatdırıb, BDU ilə uğurlu əməkdaşlığın Azərbaycan və Türkiyənin elmi inkişafında, beynəlxalq səviyyədə rəqabətədavamlı mütəxəssislər yetişdirilməsində mühüm önəm daşıdığını deyib.



Qeyd edək ki, memorandum çərçivəsində birgə layihələrin, ortaq beynəlxalq elmi seminar və konfransların keçirilməsi, tələbə və müəllim mübadiləsi proqramlarının təşkili nəzərdə tutulur. Bundan əlavə, memorandum universitetlərin tədris, tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində təcrübələrinin bölüşdürülməsi üçün yeni imkanlar yaradacaq.

# BDU və Pakistanın Süni İntellekt və Kiber Təhlükəsizlik Mərkəzi arasında anlaşma memorandumu imzalanıb

***Noyabrın 28-də BDU və Pakistanın Quaid-i-Azam Universitetinin Al-Farabi adına Süni İntellekt və Kiber Təhlükəsizlik Mərkəzi arasında anlaşma memorandumu imzalanıb.***

Mərkəzinin direktoru Muazzam Ali xan Xattaka ilə imzalanan memorandum Universitetin süni intellekt və kibertəhlükəsizlik sahələrində elmi-tədqiqat fəaliyyətlərini gücləndirməyi, innovativ layihələr həyata keçirməyi və mütəxəssislərin peşəkar inkişafını dəstəkləməyi nəzərdə tutur.

Memorandum çərçivəsində tərəflər rəqəmsal təhlükəsizlik, süni intellekt əsaslı idarəetmə sistemləri, məlumat təhlükəsizliyi və risklərin qiymətləndirilməsi sahələrində birgə layihələr həyata keçirəcək, seminar və təlim proqramları təşkil edəcək, həmçinin ortaq analitik və texnoloji platformalar quracaqlar.

# BDU-da şəhid jurnalist Məhərrəm İbrahimova həsr olunmuş kitabın təqdimatı keçirilib

***Noyabrın 26-da Jurnalistika fakültəsində Vətən müharibəsində hərbi jurnalist kimi informasiya savaşının ön sıralarında döyüşən, erməni terroru nəticəsində Kəlbəcərin Susuzluq kəndi yaxınlığında minaya düşərək həlak olan Məhərrəm İbrahimovun xatirəsinə həsr olunan "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabının təqdimatı keçirilib.***






Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev bu kimi tədbirlərin keçirilməsinin gənc jurnalistlərin peşəkarlaşmasında böyük rol oynadığını qeyd edib. Kitabın şəhid jurnalistin həyat və yaradıcılığını əhatə etdiyini bildirib.

Milli Məclisin deputatı, kitabın rəyçisi Rizvan Nəbiyev nəşrin təkcə şəhid jurnalist Məhərrəm İbrahimovun peşəkar fəaliyyətini deyil, həm də onun Vətənə və peşəsinə olan sadiqliyini əks etdirdiyini söyləyib. O, çıxışında 44 günlük Vətən müharibəsinin Azərbaycan tarixindəki əhəmiyyətindən bəhs edərək, müharibənin Ordumuzun hərbi şücaəti ilə yanaşı, xalqımızın milli birliyinin, mətbuatın ön və arxa cəbhədə göstərdiyi fədakarlığın təcəssümü olduğunu vurğulayıb.

Kitabın müəllifi, jurnalist Əsgər Əlioğlu qardaşı Məhərrəm İbrahimovun peşəsinə qəlbən bağlı, vətənpərvər ruhlu jurnalist olduğunu deyib. O bildirib ki, Məhərrəm İbrahimov Vətən müharibəsinin ilk günündən cəbhəyanı bölgələrə ezam edilib, daim qaynar nöqtələrdə olub, hərbi jurnalist kimi üzərinə düşəni lazımınca yerinə yetirib. Vətən müharibəsindən sonra Məhərrəm İbrahimov erməni vandallarının viran qoyduğu qədim yurd yerlərimizi jurnalist həmkarları ilə birlikdə kəndbəkənd gəzərək dağıntıları lentə alıb, tarixə çevirib. Əsgər Əlioğlu "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabının Məhərrəm İbrahimovun gördüyü işlərin daha geniş kütləyə çatdırılması məqsədilə dörd il ərzində yazıldığını vurğulayıb.

Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli çıxışlarında Məhərrəm İbrahimovla bağlı xoş xatirələrini bölüşüblər. Onlar şəhid jurnalistin zəhmətkeşliyindən, əzmkarlığından və insani keyfiyyətlərindən söhbət açaraq, onun xatirəsinin daim yad ediləcəyini qeyd ediblər.

Sonda tələbələrin sualları cavablandırılıb. Müəllif tələbələrə imzalı kitabını təqdim edib.

# BDU-da "Zəfər və Qürur yolunun tarixi" Elektron Məlumat Bazasının təqdimatı keçirilib

***Noyabrın 20-də İnformasiya və sənəd menecmenti fakültəsinin təşkilatçılığı ilə Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən tarixi Zəfərimizin 5 illiyi münasibətilə hazırlanmış "Zəfər və Qürur yolunun tarixi" adlı Elektron Məlumat Bazasının təqdimatı keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib. Universitetin "Zəfər tarixi" lektoriyasında keçirilən tədbirin moderatoru, İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı Vətən müharibəsində qazandığımız parlaq qələbənin beşinci ildönümü ilə bağlı ölkə üzrə silsilə tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfər əldə etdikdən sonra müharibə və postmüharibə dövründə baş verən proseslər, dövlətimizin bu sahədəki siyasəti, Qarabağın tarixi, mədəniyyəti, elm, təhsil mühiti yeni elmi araşdırmaların, tədqiqat işlərinin mövzusu kimi xüsusi aktuallıq kəsb edir, bu istiqamətdə bir sıra mühüm layihələr həyata keçirilir, elektron informasiya mənbələri formalaşdırılır: "Ölkəmizin aparıcı kitabxanalarından olan Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları tərəfindən hazırlanmış "Zəfər və Qürur yolunun tarixi" adlı Elektron Məlumat Bazası da bu mənada mühüm əhəmiyyət kəsb edir".

Sonra Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları Lətafət Əsədullayeva, Validə Quliyeva və Kamil Qürbətov elektron məlumat bazasını tədbir iştirakçılarına təqdim ediblər. Elektron Məlumat Bazasında "Ana səhifə", "Rəsmi sənədlər", "İşğaldan azad olunmuş torpaqlarımız", "44 günlük Vətən müharibəsində həlak olmuş şəhidlərimiz", "Kitablar", "Məqalələr", "Əbədi yaddaş", "Vətən müharibəsi iştirakçılarına təsis edilmiş orden və medallar" adlı bölmələr, həmçinin foto və videoqalereya yer alır. Məlumat bazasının hazırlanmasında məqsəd Zəfər tariximizin tarixi faktlar, sənədlər, foto və video materiallar vasitəsilə gənc nəslə çatdırılması, müasir informasiya texnologiyalarından istifadə etməklə təbliğ olunmasıdır.

Birinci Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan, Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov, Kitabxanaşünaslıq kafedrasının müdiri Elçin Əhmədov və fakültə tələbələri çıxışlarında Vətən müharibəsində qazandığımız parlaq qələbədən bəhs edib, təqdim olunan elektron resursun Zəfər tariximizə dair məlumatların sistemləşdirilməsi, informasiyaların geniş auditoriyalara çatdırılması, eyni zamanda gənclərdə vətənpərvərlik hisslərinin formalaşdırılması baxımından əhəmiyyətini vurğulayıblar.

Sonda Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova tədbirin təşkilinə görə BDU rəhbərliyinə və iştirakçılara minnətdarlığını bildirib.

# BDU-da sənaye mülkiyyəti və patentləşdirmə ilə bağlı maarifləndirici seminar

***Noyabrın 21-də BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin Əqli mülkiyyətin qorunması şöbəsi və Əqli Mülkiy-yət Agentliyinin birgə təşkilatçılığı ilə "Sənaye mülkiyyətinin obyektləri və onların qeydiyyatı" mövzusunda seminar keçirilib.***

BDU-nun nəzdində Fizika Problemləri İnstitutunun direktoru, professor Mais Süleymanov seminar iştirakçılarına əqli mülkiyyətin qorunması və sənaye mülkiyyətinin innovasiya mühitində rolunun əhəmiyyətindən danışıb.

Əqli Mülkiyyət Agentliyinin nəzdində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru Anar Hüseynov seminarın məqsədi, sənaye mülkiyyəti obyektlərinin qorunmasının əhəmiyyəti və innovasiya ekosistemində patentləşdirmənin rolu haqqında məlumat verib.

Mərkəzin baş məsləhətçi-ekspertі Könül Əmircanova və İlkin ekspertiza və sənaye nümunələrinin ekspertizası şöbəsinin müdiri Afət Qasımova patent hüququ obyektləri və iddia sənədlərinin hazırlanması ilə bağlı təqdimat ediblər.

Seminarın davamında İxtira və faydalı modellərin ekspertizası şöbəsinin müdiri Sevinc Zeynalova, şöbənin Kimya sektorunun aparıcı məsləhətçisi Sevinc Dünyamalıyeva, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin eksperti Firuzə Bəhramova əqli mülkiyyət obyektlərinin ekspertizası, beynəlxalq və regional patentləşdirmə prosesləri, kimya və tibb sahələri üzrə iddia sənədlərinin hazırlanması, eləcə də "PƏNAH" rəqəmsal informasiya sisteminin funksionallığı barədə geniş məlumat veriblər.

Tədbir sual-cavab sessiyası ilə yekunlaşıb.

# BDU-da akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş elmi seminar

***Noyabrın 21-də Kimya fakültəsinin Analitik kimya kafedrasında akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyi münasibətilə elmi seminar təşkil edilib.***



Kafedranın müdiri, professor Famil Çıraqov Yusif Məmmədəliyevin dünya elminə bəxş etdiyi zəngin irs barədə geniş məlumat verib. O bildirib ki, XX əsrin ən böyük kimyaçı alimlərindən hesab olunan Yusif Məmmədəliyev yüksək oktanlı benzinlərin alınması, neft-kimya proseslərinin tədqiqi, kataliz və üzvi sintez sahəsində apardığı fundamental araşdırmalarla Azərbaycan elmini beynəlxalq elmi mərkəzlərdə tanıdıb. Alimin yaratdığı elmi məktəb BDU-da kimya sahəsində aparılan araşdırmaların formalaşmasına mühüm təsir göstərib və ənənə bu gün də uğurla davam etdirilir.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov çıxışında akademikin şəxsiyyəti, elmə yanaşma prinsipləri və vətənpərvərlik keyfiyyətləri barədə danışıb. O vurğulayıb ki,görkəmli alimin gənc tədqiqatçıların yetişdirilməsinə göstərdiyi qayğı bu gün tələbələr üçün böyük motivasiya mənbəyidir.

Tədbir çərçivəsində alimin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Seminarın elmi hissəsində "Analitik kimya" ixtisaslaşması üzrə II kurs magistrantı Sevil Maksudova "Fotometrik analiz metodu ilə Mo(IV)-nin piroqolol əsaslı azobirləşmələrlə təyini" mövzusunda məruzə edib. O, aparılan tədqiqatın məqsədi, analitik metodikası, reaksiyanın xüsusiyyətləri və nəticələri barədə geniş məlumat verib, tədqiqatın müasir analitik kimyada tətbiq imkanlarını diqqətə çatdırıb.

Seminar interaktiv müzakirələrlə davam edib və iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

# BDU-da "Fizikada müasir trendlər" mövzusunda IX Beynəlxalq elmi konfrans keçirilib

***Noyabrın 27-də BDU, Türkiyənin Orta Doğu Texniki Universiteti, Ankara Universiteti, Qazi Universiteti, Ege Universiteti və Kocaeli Universiteti, Çinin Anhui Universiteti, Moldovanın Moldova Dövlət Universitetinin Tətbiqi Fizika İnstitutu, ABŞ-nin "Case Western Reserve" Universiteti, Pakistanın COMSATS Universiteti və Lahor Universiteti, Macarıstanın Zeqed Universiteti, Rumıniyanın Milli Materiallar Fizikası İnstitutunun birgə təşkilatçılığı ilə "Fizikada müasir trendlər" ("Modern Trends in Physics") mövzusunda IX Beynəlxalq elmi konfrans keçirilib.***

Açılış mərasimində çıxış edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, konfransın Vətən müharibəsində şanlı Zəfərimizin 5 illik yubileyinə və "Konstitusiya və Suverenlik İli"nə təsadüf etməsi onu daha da yaddaqalan edir. Prorektor qeyd edib ki, 2009-cu ildən başlayaraq iki ildən bir keçirilən konfransın əhatə dairəsi ildən-ilə genişlənməkdədir. Builki konfransda Azərbaycan, Türkiyə, ABŞ, Rumıniya, İtaliya, Macarıstan, Birləşmiş Ərəf Əmirlikləri, Özbəkistan, Qazaxıstan, Pakistan, Moldova və s. ölkələr daxil olmaqla 21 ölkə təmsil olunur. Konfransa 300-dən çox məruzə təqdim olunub: "Fəaliyyət göstərdiyi illər ərzində BDU daim öz elmi məktəbləri ilə fəxr edib. BDU-nun beş əsas elmi prioritetindən biri də fizika elmi üzrədir. Konfransın əvvəlki illərdə olduğu kimi, gənc tədqiqatçı və alimlər üçün yeni platformalar formalaşdıracağına, mühüm elmi prioritetlər müəyyən edəcəyinə, fizika üzrə beynəlxalq əməkdaşlıq əlaqələrini daha da genişləndirəcəyinə inanırıq".

Sonra BDU haqqında videoçarx nümayiş olunub.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli bildirib ki, BDU Azərbaycanda uzun illər ərzində formalaşan fundamental elmlər üzrə elmi məktəblərin əsas daşıyıcısıdır. Bu cür konfransların keçirilməsi fizika üzrə daha çox beynəlxalq əməkdaşlıq əlaqələrinin yaranmasına, müxtəlif ölkələrdən olan alimləri bir araya gətirməklə yeni tədqiqat istiqamətlərinin yaranmasına səbəb olur: "Cəmiyyətin inkişafının yeganə yolu elmdən, onun transformasiyasından, gündəlik həyata və iqtisadiyyata təsirindən keçir. Elmi tədqiqatlara daha çox önəm vermək, yüksək elmi nəticələri olan alimlərin təşviq olunması, gənclərin elmi tədqiqatlara cəlbinin müxtəlif mexanizmlərinin hazırlanması Elm və Təhsil Nazirliyinin əsas prioritetlərindəndir".

Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun baş direktoru, akademik Arif Həşimov, Türkiyənin Bilkənd Universitetinin professoru Əmirulla Məmmədov, İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Fraskati Milli Laboratoriyasının müdiri, Rumıniyanın Materiallar Fizikası Milli İnstitutunun professoru Stefano Belluçi, Türkiyənin Qazi Universitetinin professoru Şəmsəddin Altındal, Pakistanın Lahor Universitetinin Fizika fakültəsinin dekanı, professor Muhammad İftikhar Khan, Ankara Universitetinin professoru İman Əsgərbəyli, İstanbul Beykent Universitetinin professoru Ümit Deniz Göker, Moldova Dövlət Universitetinin Tətbiqi Fizika İnstitutunun Elmi katibi Aleksey Meşalkin, Pakistanın Marian Universitetinin professoru Muhammad Ajaz çıxışlarında fizikanın müxtəlif sahələrinin inkişafında müasir tendensiyaları qeyd edib, konfransın işinə uğurlar arzulayıblar.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

# BDU-da görkəmli türkoloq alim Rüfət Rüstəmovun 80 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı

***Noyabrın 28-də BDU-da görkəmli türkoloq alim, professor Rüfət Rüstəmovun anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Müasir türk dünyası: şərqşünaslıq araşdırmalarında yeni elmi yanaşmalar" mövzusunda Respublika elmi konfransı keçirilir.***



Konfransın açılış mərasimində çıxış edən rektor Elçin Babayev BDU-nun öz korifey alimləri ilə fəxr etdiyini, ən köklü fakültələrdən olan Şərqşünaslıq fakültəsinin həm Azərbaycanda, həm də beynəlxalq aləmdə böyük nufuza sahib olduğunu bildirib. O qeyd edib ki, professor Rüfət Rüstəmov Azərbaycanın tanınmış türkoloqlar nəslinin ən görkəmli nümayəndələrindəndir. Fəaliyyətini BDU-nun Şərqşünaslıq fakültəsi, Türk filologiyası kafedrası ilə bağlayan Rüfət Rüstəmov məhsuldar alim, pedaqoq, vətənpərvər ziyalı kimi türk dilçiliyi sahəsində peşəkar kadrların yetişməsində mühüm rol oynayıb: "Bu gün daha da güclənməkdə olan türk dünyasına Rüfət Rüstəmov kimi alimlərin verəcəyi çox töhfələr var. Sevindirici haldır ki, konfransda digər ali təhsil müəssisələri, elmi təşkilatlardan da nümayəndələr iştirak edirlər. Əminəm ki, bu konfransda müzakirə olunan məsələlər türk dünyasının daha da güclənməsinə xidmət edəcək".

BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev professor Rüfət Rüstəmovun ictimai fəaliyyəti və vətəndaş mövqeyinin daim nümunə olduğunu bildirib: "Professor Rüfət Rüstəmov BDU-da Türk filologiyası kafedrasının əsasını qoyub və həmin vaxtdan da ona rəhbərlik edir. Onun nümayəndəsi olduğu nəsil torpaqlarımızın azadlığı uğrunda dörd şəhid verib. Rüfət Rüstəmovun elmi və publisistik əsərlərində vətəndaş mövqeyi daim öndə olub". Əliş Ağamirzəyev diqqətə çatdırıb ki, BDU son illər türkdilli ölkələrin ali məktəbləri, Beynəlxalq Türk Akademiyası ilə əlaqələri daha da gücləndirib. Türkoloji qurultayın 100 illik yubileyinin qeyd olunması ərəfəsində türk dünyasında gedən tendensiyalara dair araşdırma və müzakirələrin aparıldığı konfransın keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sonra professor Rüfət Rüstəmova həsr olunmuş videoçarx nümayiş olunub.

Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan professor Rüfət Rüstəmovun həyatı və fəaliyyəti ilə bağlı məruzə edib. O bildirib ki, Rüfət Rüstəmov Azərbaycanda türk dili üzrə ilk elmlər doktoru və professordur. Görkəmli alimin indiyədək 14 monoqrafiya, dərslik və dərs vəsaiti, 130-dan çox elmi məqalə və tezisi çapdan çıxıb. Professor Rüfət Rüstəmov respublikada ilk "Türk dili" dərsliyinin, türkologiya üzrə çoxsaylı kitab və dərsliklərin müəllifi və həmmüəllifidir. O, həmçinin Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələrinin daha da möhkəmlənməsi və inkişafında fəal iştirak edir. Rüfət Rüstəmov publisistik yazıları ilə də geniş oxucu kütləsinin rəğbətini qazanıb. Onun "Bu dağlardan bir Cahangir keçdi", "Alın yazısı", "Tağılar Usufu", "Bir nəslin manifesti", "At da muraddı", "Köç", "Milli qəhrəmanın tale romanı" kimi kitabları işıq üzü görüb.

Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova, millət vəkili, professor Jalə Əliyeva, Milli Arxiv İdarəsinin rəisi, professor Əsgər Rəsulov, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, professor Vüqar Qaradağlı çıxışlarında görkəmli alimin türkologiya, türk filologiyası elmlərinin inkişafında xidmətlərindən danışıb, konfransın işinə uğurlar arzulayıblar.

Sonda söz yubilyara verilib. Professor Rüfət Rüstəmov konfransın yüksək səviyyədə təşkilinə və elmi-pedaqoji fəaliyyətinə verilən dəyərə görə minnətdarlığını bildirib, bütün ömrünün BDU ilə bağlı olmasından, daim Vətənə, xalqa xidmət etməsindən qürur duyduğunu vurğulayıb.

Konfrans bölmə iclasları ilə davam edir.

# 17 Noyabr - Milli Dirçəliş Günüdür



**17 noyabr Azərbaycanda Milli Dirçəliş Günüdür.**

Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən Milli Dirçəliş Günü ölkəmizin müstəqilliyinin bərpa olunmasında önəmli və tarixi rol oynayıb.

Bu tarix Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdrik siyasəti nəticəsində daha da əlamətdar xarakter alıb. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar Respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Bununla da milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atılmış oldu. Ulu Öndərin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ müzakirə edildi. Üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Sessiya Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxararaq onun dövlət bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi xalqa ümid oldu. Bütün sahələrdə inkişaf müşahidə olunmağa başladı, xalqımızın milli dirçəlişi və mənəvi dəyərlərinin yüksək tutulması, adət və ənənələrimizin qorunub saxlanılması reallığa çevrildi.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub saxlanmasına xüsusi diqqət yetirir, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınaraq müdafiə qüdrətini daha da artırır.

Artıq beş ildir ki, Milli Dirçəliş Günü Azərbaycanın ərazi bütövlüyü şəraitində qeyd olunur. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayan 44 günlük Vətən müharibəsi nəticəsində qəhraman Ordumuz uzun illər düşmən tapdağı altında olan torpaqlarımızı azad etdi. 2023-cü il sentyabrın 19-da isə cəmi 24 saatdan da az davam edən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış seperatçılar təslim oldu, suverenliyimiz tam təmin olundu.

Artıq beş ildir ki, azad olunmuş bütün ərazilərimiz dirçəlir, Qarabağa və Şərqi Zəngəzura həyat qayıdır. Lider-Ordu-Xalq birliyi ilə qazanılan Qələbəmizi gələcəyə sarsılmaz inam və qürur duyğuları daha da möhkəmləndirir.

Xalqımızın həmrəyliyi və dövlət müstəqilliyimiz əbədi olsun! Milli Dirçəliş Gününüz mübarək!

# BDU “Kitabxana 5.0 və İnsan Mərkəzli Rəqəmsal Transformasiya” adlı ANKOSLink Beynəlxalq konfransında təmsil olunub

*Noyabrın 7-də BDU-nun Elmi Kitabxanasının Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) rəhbəri Cəmilə Yusifova 4–6 noyabr 2025-ci il tarixlərində Türkiyənin Ankara şəhərində keçirilən ANKOSLink 2025 Beynəlxalq konfransında iştirak edib.*




“Kitabxana 5.0 və İnsan Mərkəzli Rəqəmsal Transformasiya” mövzusunda keçirilən ANKOSLink 2025 Türkiyə və regionun ən nüfuzlu nəşriyyat və kitabxanaçılıq platformalarından biri kimi bu il də 37 xarici ölkədən 700-dən çox mütəxəssisi bir araya gətirib. Tədbir Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə Prezident Millət Kitabxanasında təşkil edilib.

Konfrans çərçivəsində kitabxana 5.0 və insan mərkəzli rəqəmsal transformasiyalar, rəqəmsal məzmunun qorunması və daimi əlçatanlığı, süni intellekt və etika, süni intellektin akademik kitabxana və nəşriyyatda rolu, beynəlxalq nəşriyyatlarla əməkdaşlığın gücləndirilməsi, peşəkar çağırışlar və informasiya bərabərliyi kimi mövzular müzakirə olunub. Konfransın açılışı Prezident Kitabxanaları İdarəsinin müdiri Ayhan Tuğlu, ANKOS prezidenti İsmail Çetinkaya və Türkiyənin təhsil naziri Erol Özvarın çıxışları ilə baş tutub. Daha sonra "Clarivate" şirkətinin məsləhətçi direktoru Vəlid Həsən Türkiyədə elmi tədqiqatların "Open Access" istiqamətində inkişafı ilə bağlı təqdimatla çıxış edib. Növbəti günlərdə digər beynəlxalq şirkət və nəşriyyat nümayəndələrinin təqdimatları dinlənilib.

Üç gün davam edən tədbirdə Azərbaycandan Az.KİK-ə üzv olan ali təhsil müəssisə kitabxanalarının 10-dan çox nümayəndəsinin iştirakı BDU-nun Elmi Kitabxanası və Az.KİK-in koordinatorluğu ilə təşkil edilib. Azərbaycan nümayəndə heyəti beynəlxalq platformada həmkarlarla təcrübə və fikir mübadiləsi apararaq kitabxana sahəsindəki yeni tendensiyalar və innovativ yanaşmalarla tanış olub.

Konfransın rəsmi bağlanış mərasimi Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə həyata keçirilib.

# BDU Tibb Kitabxanası və Azərbaycan Təbabət Muzeyi ilə birgə “Tarixi Zəfərin 5 ili” adlı tədbir keçirib

***Noyabrın 7-də Xalqımızın tarixinə qızıl hərflərlə yazılmış 8 Noyabr – Zəfər Gününün beşinci ildönümü münasibətilə İnformasiya və sənəd menecmenti fakültəsi, Səhiyyə Nazirliyinin Respublika Dövlət Elmi Tibb Kitabxanası və Azərbaycan Təbabət Muzeyinin birgə təşkilatçılığı ilə “Tarixi Zəfərin 5 ili” adlı tədbir keçirilib.***

Respublika Dövlət Elmi Tibb Kitabxanasında təşkil olunan tədbir şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca şəhid həkimlərimizə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktoru Yeganə Pirəliyeva çıxışında qeyd edib ki, 2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-da Azərbaycanın tarixi Qələbəsi ilə başa çatan Vətən müharibəsi xalqımızın çoxəsrlik tarixində parlaq səhifə kimi həkk olunub: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə Azərbaycan Silahlı Qüvvələri 30 il erməni işğalı altında qalmış torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz bərpa olundu, tarixi ədalət zəfər çaldı”.

İnformasiya və sənəd menecmenti fakültəsinin Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov, Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, Qarabağ müharibəsi veteranı Knyaz Aslan, Azərbaycan Təbabət Muzeyinin direktoru Sevinc Maniyeva, Respublika Dövlət Elmi Tibb Kitabxanasının direktor müavini, Vətən müharibəsi iştirakçısı, zabit Rəsul Rəsulovun həyat yoldaşı Könül Rəsulova, kitabxananın əməkdaşları Ülkər Adilova və İradə Əliyeva çıxış ediblər. Çıxışlarda 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror əməliyyatlarında Azərbaycan Ordusunun göstərdiyi igidlikdən, həkimlərin döyüş bölgələrində fədakarlığından bəhs olunub.

Vurğulanıb ki, tarixi Zəfərimizin beşinci ildönümünün Prezident İlham Əliyevin Sərəncamı ilə elan edilmiş “Konstitusiya və Suverenlik İli” çərçivəsində qeyd olunması qələbəmizin miqyasını və əhəmiyyətini bir daha göstərir. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası regionda yeni reallıqlar yaratmaqla Azərbaycan xalqının milli birliyini və gücünü dünyaya nümayiş etdirib.

# BDU-nun İsrailin Holon Texnologiya İnstitutunda təhsil alan tələbələrinin “AI Sprint” hakatonunda uğuru

*Noyabrın 14-də BDU-nun ikili diplom proqramı çərçivəsində İsrailin Holon Texnologiya İnstitutunda (HIT) təhsil alan tələbələri Bəxtiyar Novruzov, Namiq Abdullayev və Əli Vəliyev israilli tələbələrlə birlikdə “AI Sprint” hakatonunda iştirak ediblər. Hakatonun əsas mövzuları “Zamanın idarə edilməsi”, “Kampusda sosial həyat”, “Effektiv və səmərəli öyrənmə” olub.*

Bu mövzular əsasında komandaya tələbələrin universitet daxilində həm akademik fəaliyyətlərini, həm də sosial həyatlarını yaxşılaşdırmağa yönəlmiş innovativ bir veb platforma hazırlamaq tapşırığı verilib.

BDU tələbələrinin həmmüəllifliyi ilə layihə “React Native” platformasında hazırlanıb və Münsiflər heyətinə təqdim edilib. Hazırlanmış sistem tələbələrin dərs öyrənmə prosesini daha effektiv və səmərəli təşkil etməsinə, kampusdakı sosial imkanlara daha rahat şəkildə qoşulmasına xidmət edib. Yüksək dəyərləndirilən layihə hakatonda II yerə layiq görülüb, komanda üzvlərinin hər biri 750 NIS (yeni İsrail şekeli) məbləğində mükafatla təltif edilib.

Hakatonda iştirak tələbələrə yalnız texniki bacarıqlar deyil, beynəlxalq komanda ilə əməkdaşlıq, dizayn düşüncəsi və sürətli prototipləşdirmə üzrə də əhəmiyyətli təcrübə qazandırıb.

Qeyd edək ki, BDU və Holon Texnologiya İnstitutunun “Kompüter elmləri” ixtisası üzrə bakalavr pilləsində ikili diplom proqramının icrasına 2020/2021-ci tədris ilinin yaz semestrindən başlanılıb.

# BDU və YAP Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Tarixi torpaqlarımıza qayıdış” adlı tədbir

*Noyabrın 7-də Tarix fakültəsi və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik ili” və 8 Noyabr - Zəfər Gününə həsr olunmuş “Tarixi torpaqlarımıza qayıdış” adlı tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Tarix fakültəsinin tələbələri tərəfindən Zəfər Günü münasibətilə 3 dildə (Azərbaycan, rus, ingilis) hazırlanmış videoçarx nümayiş etdirilib.

BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov son iki əsrlik tariximizin ən böyük qələbəsi olan 44 günlük Vətən müharibəsinin ölkəmizin ərazi bütövlüyünü təmin etdiyini qeyd edib, bununla dövlət suverenliyimizin tam bərpa edildiyini deyib. O bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi Zəfər artıq beş ildir ki, xalqımızı əmin-amanlığa qovuşdurub, Qarabağa əbədi dinclik və xoşbəxtlik gətirib.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, bu Qələbə yalnız hərbi zəfərlə yekunlaşmayıb. Ardınca yeni bir mərhələ – Qarabağın və Şərqi Zəngəzurun dirçəlişi, “Böyük Qayıdış” prosesi və regional sülhün qurulması dövrü başlayıb. Son beş ildə bu torpaqlarda həyata keçirilən layihələr, beynəlxalq əməkdaşlıq və diplomatik təşəbbüslər Azərbaycanın qlobal miqyasda nüfuzunu daha da möhkəmləndirib. 2020-ci ildən bəri Qarabağda görülən bərpa işləri misilsiz miqyas alıb: “Prezident İlham Əliyev hələ müharibədən sonra “Biz bu torpaqları dirçəldəcəyik, Qarabağı cənnətə çevirəcəyik” demişdi. Bu gün həmin sözlər gerçək olur”.

YAP Yasamal rayon “Z.Xəlilov küç. 33” (BDU) ünvanı üzrə ərazi partiya təşkilatının sədri, professor Zahid Cəfərov tarixi qələbənin beş illiyi dövründə Vaşinqtonda sülh sazişinin paraflanmasının 44 günlük böyük Zəfərin məntiqi nəticəsi olduğunu vurğulayıb.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# TƏBİB-in şöbə müdiri BDU-da təlim keçib

*Noyabrın 21-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə TƏBİB-in Təlim və effektivliyin qiymətləndirilməsi şöbəsinin müdiri Oğuz Heydərli “İş dünyası çağırır” mövzusunda təlim keçib. Təlimin keçirilməsində məqsəd tələbələrə karyera quruculuğu, əmək bazarının müasir tələbləri haqqında praktiki tövsiyələr vermək olub.*

Tədbirin açılışında Karyera planlaşdırılması şöbəsinin baş mütəxəssisi İlkin Şərifov Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyət istiqamətləri, tələbə və məzunlara yönəlmiş karyera xidmətləri haqqında məlumat verib.

Təlimçi müxtəlif sahələr üzrə mövcud əmək münasibətləri, iş mühitində gözləntilər, əmək hüquqları və peşə etikası barədə ətraflı məlumat verib. Bildirib ki, texnologiya və rəqəmsallaşma dövründə əmək bazarı daha çevik, tələbkar və rəqabətli hal alıb. Məhz bu dəyişikliklər tələbə və məzunlardan həm peşə biliklərinə dərindən yiyələnməyi, həm də gələcəyin bacarıqlarını inkişaf etdirməyi tələb edir.

Təlimçi müasir dövrdə tənqidi və strateji düşünmənin, rəqəmsal dünyaya adaptasiyanın, komanda və liderlik keyfiyyətlərinin, analitik təhlil, ünsiyyət bacarıqlarının iş dünyasının əsas seçim meyarlarına çevrildiyini qeyd edib. Xüsusi olaraq vurğulayıb ki, iş dünyası yalnız bilikli deyil, həm də təşəbbüskar, yenilikçi və özünün inkişafına yatırım edən gəncləri axtarır.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılıb.

# BDU-nun nümayəndələri "LANDAU Education Group"da olublar

***Noyabrın 5-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları "LANDAU Education Group"un baş ofisində olublar. Görüşün əsas məqsədi təhsil, karyera inkişafı, tələbə və məzunların məşğulluğunun artırılması istiqamətində əməkdaşlıq imkanlarının müzakirəsi olub.***

Görüşdə BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssisi İlkin Şərifov, Karyera planlaşdırılması üzrə məsləhətçisi Pərvanə Babayeva, "LANDAU Academy"nin rəhbəri Ləman Bayramlı Pearse, "LANDAU Education Group"un İnsan resursları departamentinin direktoru Tural İslamov və istedadların cəlb edilməsi üzrə qrup rəhbəri Aynur Hacıyeva iştirak ediblər.

Tərəflər müasir təhsil mühitində karyera yönümlü fəaliyyətin əhəmiyyətini vurğulayaraq qarşılıqlı təcrübə mübadiləsi aparıblar. Günel Qurbanova Mərkəzin tələbə və məzunların karyera inkişafını dəstəkləyən layihələri, korporativ tərəfdaşlıqları və məzunlar şəbəkəsinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib, xüsusilə "Karyera kompası" layihəsini təqdim edib. O, pedaqoji yönümlü ixtisaslarda təhsil alan tələbə və məzunların məşğulluq imkanlarının genişləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsinin mümkünlüyünü qeyd edib.

"LANDAU Education Group"un nümayəndələri tədris sahəsində mövcud imkanlar, beynəlxalq təhsil mühiti və karyera perspektivləri barədə məlumat veriblər. Qeyd olunub ki, "LANDAU Academy" universitet və gələcək karyera arasında körpü rolunu oynayır. Burada tələbələr praktiki və pedaqoji bacarıqlar qazanır, təlim proqramlarını uğurla başa vurduqdan sonra "LANDAU Education Group" və digər beynəlxalq məktəblərdə iş imkanı əldə edirlər.

Görüş zamanı BDU məzunlarının "LANDAU School"da uğurlu fəaliyyəti xüsusi vurğulanıb. Bildirilib ki, onlar pedaqoji, idarəetmə və tədris texnologiyaları sahələrində qazandıqları bilik və bacarıqları müasir məktəb mühitində uğurla tətbiq edirlər. Bu fakt BDU-nun tədris keyfiyyətinin və məzunlarının yüksək rəqabət qabiliyyətinin göstəricisi kimi qiymətləndirilib.

Sonda tərəflər arasında gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

# BDU-da Kəlbəcər Şəhəri Günü

***İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşəbbüsü ilə 25 noyabr – Kəlbəcər Şəhəri Günü münasibətilə tədbir keçirilib. Professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.***

Tədbirin moderatoru – İnformasiya və sənəd menecmenti fakültəsinin elmi işlər üzrə dekan müavini dosent Zahidə Rzayeva Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il tarixli Sərəncamını xatırladıb, sənədin tarixi əhəmiyyətini vurğulayıb: "Kəlbəcər rayonu 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən 25 noyabrda döyüşsüz Azərbaycana təhvil verildi. Xüsusi strateji əhəmiyyətə malik olan Kəlbəcərin azad edilməsi Vətən müharibəsində qazandığımız tarixi Zəfərin ən parlaq səhifələrindəndir".

Birinci Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri Knyaz Aslan 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbənin xalqımızda yüksək əhval-ruhiyyə yaratdığını bildirib, Qarabağda, Şərqi Zəngəzurda aparılan misilsiz quruculuq işlərindən bəhs edib: "Azad Kəlbəcərimiz də yenidən dirçəlir, tikinti-quruculuq layihələri sürətlə həyata keçirilir. Bu günlərdə doğma Kəlbəcərimizi ziyarət etmək mənə qismət oldu. Orada aparılan quruculuq işləri, həyata keçirilən infrastruktur layihələri bölgənin böyük gələcəyindən, geniş turizm potensialından xəbər verir".

BDU THİK-in sədri Zöhrab Cavadzadə, Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının müdiri dosent Sevda Xələfova, Kitabxanaşünaslıq kafedrasının müdiri dosent Elçin Əhmədov və fakültə tələbələri çıxışlarında 44 günlük zəfər yürüşü və 1 günlük antiterror tədbirləri nəticəsində ölkəmizdə əmin-amanlığın əbədi bərpa olunduğunu, torpaqlarımızdan separatçılığın kökünün biryolluq kəsildiyini vurğulayıblar.

Tədbir Azərbaycan Dövlət Televiziyasının "EKOetika" verilişinin Kəlbəcər rayonundan bəhs edən buraxılışının nümayişi ilə davam etdirilib.

# BDU tələbələri Prezident Kitabxanasında

***"BDU könüllüləri" təşkilatının təşkilatçılığı ilə Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin tələbələri müasir texnologiyalar əsasında təşkil edilmiş, modern infrastruktura malik Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında olublar.***

Ekskursiya çərçivəsində könüllülərə kitabxananın tarixi, strukturu, sənəd dövriyyəsi, kitab fondu, oxucu kateqoriyaları, informasiya bazaları və kitabxanada həyata keçirilən rəqəmsallaşdırma prosesləri barədə ətraflı məlumat verilib. İştirakçılar oxu zalları, elektron məlumat mərkəzi, kitabxananın nadir nəşrlər fondu ilə tanış olublar.

Ekskursiya zamanı tələbələrə Prezident Kitabxanasının rəqəmsal platformalarında axtarış imkanları nümayiş etdirilib, kitabxananın mütəxəssisləri tərəfindən onların sualları cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb.



# BDU dosentinin "Bəxtiyar Vahabzadə əsərlərində poetik vasitələr" adlı monoqrafiyası nəşr olunub

***Filologiya fakültəsinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti Şəlalə Abasovanın "Bəxtiyar Vahabzadə əsərlərində poetik vasitələr" adlı yeni monoqrafiyası nəşr olunub.***

Nəşrdə Xalq şairi Bəxtiyar Vahabzadənin çoxşaxəli yaradıcılığı, ictimai-sosial mövzulara yanaşması və əsərlərində istifadə etdiyi poetik vasitələr elmi şəkildə təhlil olunur. Monoqrafiyada şairin fəlsəfi poemalarında və müstəqillik illərində qələmə aldığı şeirlərində cəmiyyətin həyatında baş verən proseslərə, mənəvi və sosial dəyişikliklərə münasibəti, ədalətsizliklərə qarşı vətəndaş mövqeyi xüsusi araşdırma obyektinə çevrilib.

Monoqrafiya elmi işçilər, tədqiqatçılar, müəllimlər, tələbələr, natiqlik sənəti ilə maraqlananlar və geniş oxucu kütləsi üçün dəyərli mənbədir.

# "Maliyyə-iqtisadi zaman sıralarının spektral kointeqrasiya analizi" mövzusunda elmi seminar




***Mexanika-riyaziyyat, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin birgə təşkilatçılığı ilə elmi seminar keçirilib. Seminarda Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Riyazi iqtisadiyyat kafedrasının müdiri, professor Elşar Orucov və Riyazi iqtisadiyyat kafedrasının doktorantı Nəzrin Burcalıyeva "Maliyyə-iqtisadi zaman sıralarının spektral kointeqrasiya analizi" mövzusunda məruzə ediblər.***

Məruzədə müasir şəraitdə maliyyə-iqtisadi proseslərin qeyri-xətti xüsusiyyətləri və yeni çağırışlar fonunda ekonometrikanın klassik qiymətləndirmə üsullarının modifikasiyasının vacibliyi qeyd olunub. İnnovativ ekonometrik modellərin tələblərinə uyğun olaraq xətti və qeyri-xətti trend əsaslı dalğalanma proseslərinin modellərinin işlənib hazırlanmasının zəruriliyi önə çəkilib. Stasionar rəqsli komponentli harmonikalar, evolyusiyalı amplitudlarla rəqsi komponentlər, kvadratik və eksponensial trendlərlə bağlı real praktik zaman sıraları arasında qarşılıqlı asılılıqların kointeqrasiya yanaşmaları ilə birgə uzunmüddətli tarazlı hərəkətlərinin təhlili, sinus və cosinus funksiyaları ilə korrelyasiya əmsallarının qiymətləndirilməsi, periodoqramma və spektroqramma analizləri nəzərdən keçirilib.

Seminarda Furye səbəbiyyət-nəticə analizi, qeyri-stasionar zaman sıralarının aşkar riyazi ifadələrlə Furye ECM modelinin qurulması məsələsinə baxılıb. Qurulma prosesində yaranan nəzəri və statistik analizin praktik çətinliklərindən danışılıb, onların həlli yollarına müəyyən izahlar verilib, qiymətləndirilmiş spektral kointeqrasiya münasibətlərinin adekvatlığı, qısamüddətli və uzunmüddətli dinamika üçün modellərin nəticələrinin korrektliyi təhlil olunub.

Seminarın sonunda çıxışçılar onlara ünvanlanan sualları cavablandırıblar.

# BDU tələbələri "Danışır təcrübə" layihəsində

***Noyabrın 4-də Hüquq fakültəsinin tələbələri Elm və Təhsil Nazirliyinin "Danışır təcrübə" layihəsi çərçivəsində Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərovla görüşüblər.***



"Konstitusiya və hüququn aliliyi" mövzusundda çıxış edən Çingiz Əsgərov bildirib ki, hüququn aliliyi yalnız məhkəmə sisteminin deyil, həm də bütün dövlət qurumlarının fəaliyyətinin əsas prinsipi olmalıdır. Çingiz Əsgərov əlavə edib ki, Konstitusiyada əksini tapan hüquq normalarının real həyata tətbiqi hüququn aliliyinin ən mühüm göstəricisidir. Hər bir dövlət orqanı qəbul etdiyi qərarlarda vətəndaş maraqlarını və Konstitusiya normalarını əsas götürməlidir. Bu, həm idarəetmənin keyfiyyətinə, həm də cəmiyyətin dövlətə olan inamına birbaşa təsir göstərir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən görüşdə hüququn insan həyatındakı həlledici rolu, Konstitusiya dəyərlərinin gündəlik qərarlara, vətəndaş münasibətlərinə və idarəetmə proseslərinə təsiri barədə geniş fikir mübadiləsi aparılıb.

Daha sonra tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb. Görüş müzakirələrlə davam edib.

Qeyd edək ki, layihənin məqsədi müxtəlif sahələrdə təcrübə və bilik mübadiləsini təşviq etməklə tələbələrin şəxsi və peşəkar inkişafına dəstək göstərməkdir.

# BDU-da Türkiyənin tanınmış astronavtı Tuva Cihangir Ataseverlə görüş

***Noyabrın 17-də BDU-da Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransında (WTDC-25) iştirak məqsədilə ölkəmizdə səfərdə olan Türkiyənin tanınmış astronavtı Tuva Cihangir Ataseverlə görüş keçirilib.***



BDU rektoru Elçin Babayev tələbələrin müxtəlif elm sahələrində uğur qazanan dünyaşöhrətli insanlarla görüşlərinin təşkil edilməsinin onlar üçün stimul olduğunu bildirib. O, tələbələrlə görüş dəvətini qəbul etdiyinə görə Tuva Cihangir Ataseverə təşəkkür edib, bunun Universitetin tarixinə yazılacaq bir hadisə olduğunu vurğulayıb. Rektor diqqətə çatdırıb ki, Tuva Cihangir Ataseverin anası azərbaycanlıdır, tanınmış astronavt ölkəmizi və bütün Türk dünyasını çox sevir.

Tədbirdə Türkiyənin kosmosun fəthi istiqamətində gördüyü işlər və astronavt Tuva Cihangir Ataseverin kosmik uçuşlarına dair videoçarx nümayiş olunub.

Tanınmış astronavt çıxışında Türkiyənin kosmik proqramının əsas hədəfləri və strateji prioritetləri, kosmosa uşuş hazırlıqları barədə məlumat verib, kosmik missiyası ilə bağlı təəssüratlarını bölüşüb. O, kosmik uçuşu zamanı mikroqravitasiya vasitəsilə insan biologiyası və fiziologiyasına dair mühüm təcrübələr apardığını, kosmik şəraitin insan orqanizminə təsirini araşdırdığını vurğulayıb. Kosmosa uçuş zamanı insanın bədən funksiyalarının da dəyişdiyini diqqətə çatdıran Tuva Cihangir Atasever əldə etdiyi nəticələrin yaxın gələcəkdə bir sıra xəstəliklərin müalicəsinə töhfə verəcəyinə əminliyini bildirib. O, Türkiyə ilə Azərbaycanın kosmik sahədə əməkdaşlığının vacibliyini diqqətə çatdırıb.

Gənclərlə interaktiv sual-cavab formatında keçirilən görüşdə Tuva Cihangir Atasever onların suallarını cavablandırıb, tələbələrə avtoqraflı şəkillərini hədiyyə edib.

Sonda BDU tələbələrinə oxuduğu maraqlı mühazirəyə görə tanınmış astronavta təşəkkürnamə təqdim olunub.

# Türkiyənin Ərciyəz Universitetinin professoru BDU-nun SABAH qruplarının tələbələrinə ustad dərsi keçib

***Noyabrın 20-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin SABAH qrupları və BDU-nun SABAH qruplarının təşkilatçılığı ilə Ərciyəs Universitetinin professoru, molekulyar biologiya və tibbi genetika üzrə mütəxəssis Yusuf Özkulun "Əsas molekulyar genetik metodlar: Next Gen Sequencing (NGS) – Növbəti Nəsil Sıralama texnologiyaları və onların istifadə sahələri" mövzusunda ustad dərsi keçirib.***

Ustad dərsinin mövzusu müasir biologiya və tibbi diaqnostikanın ən vacib istiqamətlərindən birinə – genetik materialın analizi və xəstəliklərin molekulyar əsaslarının öyrənilməsinə həsr olunub. Professor Yusuf Özkul təqdimatında NGS texnologiyalarının genom tədqiqatlarında inqilabi dönüş yaratdığını, böyük həcmli DNT və RNT məlumatlarının qısa zamanda yüksək dəqiqliklə analizinə imkan verdiyini vurğulayıb. Bu texnologiyaların xərçəng genetikasında, irsi xəstəliklərin diaqnostikasında, farmakogenetikada, mikrobiom araşdırmalarında və infeksion xəstəliklərin sürətli identifikasiyasında geniş tətbiq olunduğunu bildirib.

Professor həmçinin klassik molekulyar biologiya metodlarının (PCR, elektroforez, restriksiya analizi, Sanger sekvensləşməsi və real-time PCR) prinsip və üstünlükləri haqqında ətraflı məlumat verib, bu texnikaların genetik mutasiyaların aşkar edilməsində, gen ekspressiyasının ölçülməsində və müxtəlif bioloji nümunələrin analizində oynadığı rolu izah edib.

Tədbir zamanı tələbələrin elmi tədqiqatlara marağının artırılması, laborator mühitdə praktiki bacarıqların inkişaf etdirilməsi və beynəlxalq elmi layihələrdə iştirak imkanları barədə tövsiyələr də səslətdirilib. Ustad dərsi interaktiv şəkildə davam edib, tələbələrin molekulyar genetika sahəsində gələcək karyera istiqamətləri ilə bağlı çoxsaylı sualları cavablandırılıb.

# BDU məzunu, Kanadanın York Universitetinin professoru Yulduz Rəhimovun ustad dərsi

***Noyabrın 12-də Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunu, Kanadanın Toronto şəhərindəki York Universitetinin professoru Yulduz Rəhimov ilə görüş keçirilib.***



Görüşdə Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin professor-müəllim heyəti, tələbə və doktorantları iştirak ediblər.

Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı Ələkbər Əliyev qeyd edib ki, fakültədə "Kompüter elmləri", "İnformatika müəllimliyi" və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin məzunları dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Belə məzunlardan biri Kanadanın Toronto şəhərindəki York Universitetinin professoru Yulduz Rəhimovdur. O, xaricdə yaşayan Azərbaycanlı Alimlər Birliyinin Elmi katibidir.

Daha sonra söz professor Yulduz Rəhimova verilib. O, "Ədədlər nəzəriyyəsi və kriptoqrafiya" mövzusunda ustad dərsi keçib. Bildirib ki, ədədlər nəzəriyyəsi riyaziyyatın tərkib hissəsi kimi tam ədədlərin və onların xassələrinin öyrənilməsinə həsr olunub. Riyaziyyatçılar uzun müddət ədədlər nəzəriyyəsini sırf riyaziyyat hesab ediblər, lakin onun kompüter elmlərinə, o cümlədən də kriptoqrafiyaya tətbiqi böyük əhəmiyyət kəsb edir. Məruzəçi ustad dərsində bölünmə və modulyar riyaziyyat, tam ədəd təsvirləri və alqoritmlər, sadə ədədlər və ən böyük ümumi bölənlər, konkruens tənliklərin həlli və onların tətbiqləri, kriptoqrafiya haqqında ətraflı məlumat verib.

Ustad dərsi interaktiv şəkildə davam edib, tələbələr professorla fikir mübadiləsi aparıb, onları maraqlandıran suallara ətraflı cavablar alıblar.

# Əməkdar elm xadimi Natiq Atakişiyev BDU-da elmi seminar keçirib

***Noyabrın 18-də BDU-da akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş tədbirlər çərçivəsində Fizika və Mexanika-riyaziyyat fakültələrinin birgə təşkilatçılığı ilə elmi seminar keçirilib. Seminarda Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Natiq Atakişiyev "5-ölçülü diskret Furye çevrilməsinin Nyuton bazisində məxsusi vektorları" mövzusunda məruzə ilə çıxış edib.***



Professor Natiq Atakişiyev 5-ölçülü operatorun məxsusi qiymətlərinin və məxsusi vektorlarının tapılması üçün sadə analitik yanaşma təklif edildiyini bildirib. Bu yanaşma operator və onun kompleks qoşma cütünün diskret əksetmə operatoruna görə simmetriyasının mövcudluğuna əsaslanıb. Bu yeni yanaşma kəsilməz halda yaxşı məlum olan psi- funksiyasının diskret analoqu daxil edilməklə operator və onun kompleks qoşma cütü üçün yaradılıb. Kəsilməz halın psi-funksiyasının digər məlum ifadəsi əsasında isə məxsusi vektorların diskret analoqlarının aşkar şəkli, Nyuton bazis çoxhədlilərinin müəyyən funksiyaya olan hasili vahidlərində tapılıb.

Sonda məruzə ətrafında fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# BDU-da "Xarıbülbül" adlı rəsm sərgisi

***Noyabrın 3-də Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Xarıbülbül" adlı rəsm sərgisinin açılışı keçirilib.***

Tədbirdə fakültə dekanlığı, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Açılışda çıxış edən Kimya fakültəsinin dekanı Fuad Kərimli Zəfər Gününün xalqımızın tarixindəki önəmindən, bu qələbənin - Prezident, Ordu, Xalq birliyi sayəsində əldə olunmasından danışıb. O, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin vacibliyini vurğulayaraq, tələbələrin bu kimi təşəbbüslərlə milli ruhun yaşadılmasına töhfə verdiklərini qeyd edib.



Sərgidə Kimya fakültəsinin tələbələri tərəfindən hazırlanan rəsm əsərləri nümayiş olunur. Əsərlərdə Qarabağ təbiətinin gözəlliyi, Şuşanın simvolu olan xarıbülbül gülü, qəhrəman şəhidlərimizin xatirəsinə həsr edilmiş mənəvi motivlər və Vətən sevgisini ifadə edən kompozisiyalar yer alır.

Qonaqlar sərgi ilə tanış olaraq tələbələrin əsərlərinin həm ideya, həm də bədii baxımdan yüksək səviyyədə olduğunu qeyd ediblər. Fakültə rəhbərliyi vurğulayıb ki, bu cür tədbirlər gənclərin yaradıcılıq potensialının üzə çıxarılması və milli-mənəvi dəyərlərə sadiqliyinin göstəricisidir.

# Bakı Dövlət Universitetinin əməkdaşı "EcoMind 2025" konfransında spiker kimi iştirak edib

***Noyabrın 3-də BDU-nun rektorunun katibliyinin referenti Qasım Xəlilov noyabrın 2-də IDEA İctimai Birliyi və Avropa Azərbaycan Məktəbinin birgə təşkilatçılığı ilə həyata keçirilən "EcoMind 2025" konfransının "Dayanıqlı inkişaf məqsədləri: Hədəflər uğrunda birgə fəaliyyət" adlı panelində spiker olub.***

Konfransın açılış mərasimində iştirak edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva gənclərin ekoloji təşəbbüslərdə fəal iştirakının və ətraf mühitin qorunması prosesində onların məsuliyyətinin vacibliyini vurğulayıb. O qeyd edib ki, hər bir məktəblinin ekoloji dəyərlərlə böyüməsi ölkənin yaşıl gələcəyinin təminatıdır.

Açılış mərasimində kənd təsərrüfatı naziri Məcnun Məmmədov, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, millət vəkili Mehriban Vəliyeva, Azərbaycan Avropa Məktəbinin təsisçisi Tale Heydərov və "Think In" quruluşunun təsisçisi Rajiv Nandha iştirak ediblər.

Paneldə çıxışı zamanı Qasım Xəlilov Dayanıqlı İnkişaf Məqsədlərin (DİM) cəmiyyətdə və təhsildə istifadəsi, Azərbaycan təhsil müəssisələrinin, o cümlədən BDU-nun DİMlərin yerinə yetirilməsindəki rolunu statistika və digər göstəricilərlə izah edib. Həmçinin, 4-cü məqsəd olan "Keyfiyyətli təhsil", 16-cı məqsəd olan "Sülh, ədalət və səmərəli institutlar" və 17-ci məqsəd olan "Məqsədlər üçün tərəfdaşlıq" sahələrində gənclərin töhfəsindən danışıb.

# BDU-da akademik Yusif Məmmədəliyevə həsr olunmuş elmi seminar

***Noyabrın 27-də İnformasiya və sənəd menecmenti fakültəsində akademik Yusif Məmmədəliyevin anadan olmasının 120-ci ildönümünə həsr olunmuş elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Sənəd menecmenti kafedrasının müəllimi Əliyusif Məmmədov "Akademik Yusif Məmmədəliyevin irsinə dair elektron biblioqrafik mənbələr" mövzusunda məruzə edib.***

Əliyusif Məmmədov "Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında" Prezident İlham Əliyevin 5 iyul 2025-ci il tarixli Sərəncamının əhəmiyyətini vurğulayıb. Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin görkəmli alimin elmi irsinə və parlaq şəxsiyyətinə hər zaman böyük ehtiram göstərdiklərini diqqətə çatdırıb. Məruzədə Azərbaycan elminin görkəmli nümayəndəsi, akademik Yusif Məmmədəliyevin zəngin elmi irsinə dair ən müxtəlif sənədlərin rəqəmsallaşdırılması, qorunması və istifadəsinin təşkili məsələləri şərh olunub.

Qeyd olunub ki, akademik Yusif Məmmədəliyevin elmi irsinin sistemləşdirilməsi, elektron biblioqrafik mənbələrin yaradılması və onların elmi ictimaiyyət üçün əlyetərliyi xüsusi aktuallıq kəsb edir. Tədqiqatda Azərbaycan Milli Kitabxanası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası və Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının görkəmli alimə həsr etdiyi elektron resurslar təhlil olunub, bu resursların gələcək elmi tədqiqatların sistemləşdirilməsi baxımından əhəmiyyəti vurğulanıb: "Haqqında bəhs olunan elektron biblioqrafik mənbələr Yusif Məmmədəliyevin akademik fəaliyyətinin bütün aspektlərini, o cümlədən görkəmli alimin kimya elmi sahəsindəki tədqiqatlarını, yaratdığı elmi məktəbin istiqamətlərini, elmi təşkilatçılıq fəaliyyətini, beynəlxalq elmi əlaqələrini, kadrların yetişdirilməsindəki xidmətlərini əhatə edir və davamlı olaraq təkmilləşdirilir".

Tədqiqatda həmçinin dünya təcrübəsində görkəmli alimlərin irsinə dair elektron arxiv və biblioqrafik platformaların fəaliyyətindən nümunələr gətirilib, bir sıra müqayisəli təhlillər aparılıb.

# BDU-da "Tələbəlikdən HR-a addımla" təlim proqramı uğurla başa çatıb

***"BDU könüllüləri" təşkilatının və Azərbaycan HR İnstitutunun birgə təşkilatçılığı ilə həyata keçirilən "Tələbəlikdən HR-a addımla" adlı təlim proqramı uğurla başa çatıb.***

İki günlük təlim sessiyasından ibarət proqramın təlimçisi, ekspert Sevinc Nağıyeva iştirakçılara həm nəzəri, həm də praktiki bilikləri interaktiv formada çatdırıb. İştirakçılara insan resursları sahəsinin əsas istiqamətləri, HR mütəxəssisinin fəaliyyət prinsipləri, CV-nin düzgün tərtibi qaydaları və iş müsahibəsində diqqət edilməli məqamlar haqqında ətraflı məlumat verilib. Proqramın sonunda təlimləri uğurlu başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

# BDU-da "İş axtarışı strategiyaları" mövzusunda təlim

***Noyabrın 3-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə Tarix fakültəsinin IV kurs tələbələri üçün "Karyera söhbətləri" layihəsi çərçivəsində "İş axtarışı strategiyaları" mövzusunda təlim keçirilib.***

Təlimin məqsədi tələbələrin əmək bazarının tələbləri ilə yaxından tanış olması, onlara uğurlu karyera planlaşdırılmasında dəstək göstərməkdir.

Karyera və məzunlarla iş Mərkəzinin Karyera planlaşdırılması şöbəsinin karyera planlaşdırılması üzrə məsləhətçisi Pərvanə Babayeva layihənin əhəmiyyəti barədə ətraflı məlumat verib. O bildirib ki, iş axtarışı prosesi təkcə elanlara müraciət etməklə məhdudlaşmır. Bu proses fərdi karyera planının hazırlanmasını, düzgün tərtib edilmiş CV və motivasiya məktubunu, müsahibəyə psixoloji və praktiki hazırlığı, həmçinin səmərəli kommunikasiya bacarıqlarının formalaşdırılmasını tələb edir.

Təlimdə peşəkar əlaqə şəbəkəsinin qurulması, karyera platformalarından məqsədyönlü şəkildə istifadə, şirkətlərə təşəbbüskar müraciətlərin göndərilməsi, könüllülük fəaliyyəti və təcrübə proqramlarında iştirakın iş axtarışında əhəmiyyətli rolu barədə də danışılıb.

# BDU tələbələri "AIESEC Azərbaycan" beynəlxalq gənclər təşkilatının fəaliyyəti barədə məlumatlandırılıb

***Noyabrın 18-də "AIESEC Azərbaycan" beynəlxalq gənclər təşkilatı BDU-nun Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə tələbələr üçün infosessiya keçirib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov "AIESEC Azərbaycan"ın həyata keçirdiyi layihələrin gənclərin şəxsi və peşəkar inkişafında mühüm rol oynadığını qeyd edib. O, həmçinin BDU TGT-nin Universitet tələbələrinin karyerasının formalaşmasında və sosial fəallığının artırılmasında mühüm rol oynadığını vurğulayıb.

"AIESEC Azərbaycan"ın marketinq və ictimaiyyətlə əlaqələr komitəsinin sədri Nazənin Məmmədli tələbələrə qurumun fəaliyyət istiqamətləri, beynəlxalq proqramları və təşkilata qoşulma prosesini izah edib. Bildirib ki, "AIESEC"in tələbələr üçün təqdim etdiyi xaricdə könüllülük, maaşlı təcrübə və liderlik proqramları iştirakçılara fərdi inkişaf, yeni mədəniyyətlərlə tanışlıq və qlobal şəbəkə qurmaq baxımından geniş imkanlar yaradır.

İnfosessiya interaktiv müzakirələrlə davam edib.

Qeyd edək ki, "AIESEC" dünyanın 130-dək ölkəsində fəaliyyət göstərir. Təşkilatın Azərbaycanda fəaliyyəti isə 2006-cı ildən başlayıb.

# BDU tələbələri ilk yardım üsulları barədə maarifləndirilib

***Noyabrın 19-da BDU-da Tələbə Gənclər Təşkilatının və Özəl Tibb Müəssisələri Assosiasiyasının (ÖTMA) birgə təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Həyata dəstək" layihəsi çərçivəsində ilk yardım üzrə maarifləndirici təlim keçirilib.***

ÖTMA-nın İdarə Heyətinin sədri Günel Əliyeva layihə barədə tələbələrə məlumat verib. Layihənin ali və orta ixtisas təhsili müəssisələrində təcili vəziyyətlərdə operativ və düzgün reaksiya verə biləcək, ilkin yardım biliklərinə sahib, savadlı və hazırlıqlı cəmiyyətin formalaşdırılmasına xidmət etdiyini deyib.

Təlimdə tələbələrə ilkin yardımın təməl prinsipləri, qəfil ürək dayanması zamanı tətbiq olunan kardiyopulmoner resüsitasiya üsulları, boğulma, yanıq və yaralanma kimi hallar zamanı düzgün müdaxilə qaydaları praktiki şəkildə öyrədilib.

# BDU tələbələri işğaldan azad olunmuş bölgələrdə minatəmizləmə işləri ilə bağlı məlumatlandırılıb

***Noyabrın 20-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi və Dövlət Məşğulluq Agentliyinin Şərqi Zəngəzur Regional məşğulluq filialının birgə təşkilatçılığı ilə xalqımızın tarixi Zəfərinin 5 illik yubileyinə həsr olunmuş "Peşəkar gələcəyə doğru körpü" adlı ixtisaslaşmış Karyera Sərgisi çərçivəsində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Maarifləndirmə və zərərçəkənlərlə iş şöbəsinin müdiri Ramil Əzizovun "İşğaldan azad olunmuş bölgələrdə minatəmizləmə işləri" mövzusunda təlimi təşkil olunub.***



Təlim zamanı Ramil Əzizov bildirib ki, işğaldan azad olunmuş ərazilərdə bu günə qədər 11 667 km? ərazi mina və partlamamış hərbi sursatlarla çirklənmiş hesab olunur. Bu çirklənmə müxtəlif – aşağı, orta və yüksək səviyyələrdə qeydə alınıb. O vurğulayıb ki, 30 illik işğal dövründə 900-dən çox yaşayış məskəni tamamilə dağıdılıb. Vətən müharibəsindən sonrakı beş il ərzində azad edilmiş ərazilərdə 39 533 piyada əleyhinə, 22 762 tank əleyhinə mina, 168 487 partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib.

1991–2025-ci illər ərzində ölkəmizdə mina partlayışları nəticəsində 362-si uşaq, 38-i qadın olmaqla ümumilikdə 3491 nəfər zərər çəkib.

Ramil Əzizov minatəmizləmə əməliyyatlarında istifadə olunan üsul və texnologiyalar barədə də məlumat verib. Onun sözlərinə görə, ölkəmizdə minatəmizləmədə əsasən xüsusi təlim keçmiş itlər və siçovullar, eləcə də mexaniki texnikalar tətbiq olunur. Yerli istehsal imkanlarının genişlənməsi bu prosesin daha da sürətləndirilməsinə şərait yaradır.

O həmçinin BMT-nin İnkişaf Proqramı və Mina Məsləhətçi Qrupunun dəstəyi ilə Azərbaycanda ilk dəfə olaraq qadınlardan ibarət minatəmizləmə qruplarının fəaliyyətə başladığını və bu qrupların əməliyyatlara aktiv şəkildə cəlb olunduğunu diqqətə çatdırıb.

Təlimin sonunda Ramil Əzizov mina təhlükəsi ilə mübarizənin Azərbaycanın Milli Davamlı İnkişaf Məqsədlərinin 18-ci istiqaməti kimi təqdim olunduğunu bildirib. Prezident İlham Əliyevin beynəlxalq platformalardakı təşəbbüsləri nəticəsində mina təhlükəsinə qarşı mübarizə ayrıca milli məqsəd kimi təsbit edilib. Dünya üzrə 60-dan çox ölkənin mina təhlükəsindən əziyyət çəkdiyi nəzərə alınaraq, bu məsələnin ayrıca inkişaf məqsədi kimi müəyyənləşdirilməsinin vacibliyi vurğulanıb.

# Audiovizual Şura BDU tələbələri üçün növbəti seminar təşkil edib

***Noyabrın 28-də Audiovizual Şura Jurnalistika fakültəsinin tələbələri üçün növbəti seminar təşkil edib. Tədbir BDU, Audiovizual Şura, Medianın İnkişafı Agentliyi arasında imzalanmış anlaşma memorandumu çərçivəsində keçirilib.***

Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev Audiovizual Şura tərəfindən mütəmadi olaraq təşkil edilən bu cür təlimlərin tələbələr üçün məhsuldar və müsbət nəticələr verdiyini bildirib.

Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev Şuranın fəaliyyət istiqamətləri, xüsusilə uşaq hüquqlarının qorunması ilə bağlı həyata keçirilən tədbirlər, o cümlədən sözügedən sahədə audiovizual media subyektlərinin maarifləndirilməsi barədə tələbələrə ətraflı məlumat verib. Qeyd edib ki, audiovizual mediada uşaqların zərərli informasiyadan qorunması, eləcə də onların şəxsiyyət hüquqlarının qorunması ilə bağlı tədbirlər prioritet istiqamət kimi müəyyən edilərək daim nəzarətdə saxlanılır.

Audiovizual Şuranın Hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin baş məsləhətçisi Ayxan Sadıqlı "Audiovizual mediada uşaq hüquqları" mövzusunda geniş təqdimatla çıxış edib. O, tələbələrə tətbiq edilən qanunvericilik normaları, tənzimləmə mexanizmləri, hüquqi aspektlər, habelə qurumun qanunvericiliklə müəyyən edilmiş səlahiyyət və öhdəlikləri haqqında ətraflı məlumat verib.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# BDU-da "İxtisasını tanı, gələcəyini qur!" layihəsinin açılış mərasimi keçirilib

***Noyabrın 28-də Ekologiya və torpaqşünaslıq fakültəsi Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "İxtisasını tanı, gələcəyini qur!" layihəsinin açılış mərasimi keçirilib.***

Fakültənin dekanı Akif Ağbabalı layihənin tələbələrin ixtisas seçimində əhəmiyyətli rol oynadığını qeyd edib. O bildirib ki, bu cür təşəbbüslər tələbələrin gələcək karyera planlarının düzgün qurulmasına mühüm töhfə verir.

Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun şöbə müdiri Nigar Həşimova və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi, fakültənin məzunu Elxan Hüseyinov çıxış edərək "Torpaqşünaslıq və aqrokimya" ixtisasının mahiyyəti, tətbiq sahələri, karyera perspektivləri və gələcək imkanları barədə ətraflı məlumat veriblər.

Sual-cavab sessiyasında isə tələbələr ixtisasın real iş mühiti, inkişaf yolları və əmək bazarının tələbləri ilə bağlı suallar ünvanlayıblar.

Layihə tələbələrin ixtisaslarını daha dərindən tanımasına və gələcək peşə fəaliyyətləri üçün düzgün qərar vermələrinə şərait yaradır. Proqramın davamı olaraq "Ekologiya", "Ekologiya mühəndisliyi" və "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" ixtisasları üzrə də silsilə görüşlərin təşkil olunacağı bildirilib.

# BDU-nun tələbəsi "Süni intellektin gözündə Zəfərimiz" fotomüsabiqəsinin qalibi olub

***Gənclər Fondunun dəstəyi və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) təşkilatçılığı ilə şanlı Zəfərimizin 5 illiyi ilə əlaqədar keçirilən "Süni intellektin gözündə Zəfərimiz" mövzusunda fotomüsabiqə başa çatıb.***



Müsabiqənin məqsədi 44 günlük Vətən müharibəsində əldə olunan şanlı Zəfəri sənət vasitəsilə ifadə etmək, tarixi həqiqətləri innovativ yolla yeni nəsillərə ötürmək və vizual sənətin gücü ilə beynəlxalq ictimaiyyətə çatdırmaqdır.

Münsiflər heyətinin qərarına əsasən, Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Aysu Qasımovanın işi müsabiqədə I yerə layiq görülüb.

# BDU tələbələri immunçatışmazlığı xəstəlikləri ilə bağlı məlumatlandırılıb

***Noyabrın 27-də Bakı Dövlət Universitetində "BDU könüllüləri" təşkilatı və Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin birgə təşəbbüsü ilə "Sağlam həyat, sağlam gələcək" mövzusunda tələbələrlə görüş keçirilib.***

Görüşdə tələbələrə Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) və İnsanın İmmunçatışmazlığı Virusunun (İİV) mahiyyəti, yayılma yolları və ondan qorunma vasitələri haqqında ətraflı məlumat verilib. Bildirilib ki, hər gün minlərlə insan İİV-ə və hepatitə yoluxma təhlükəsi ilə üzləşir və hər iki xəstəliyə eyni vaxtda tutulmaq ehtimalı çox yüksəkdir. Mərkəzin əməkdaşları gəncləri bu sosial bəladan qorumaq, onlarda sağlam həyat tərzinə marağı artırmaq üçün maarifləndirmə işlərini daim diqqət mərkəzində saxlamağın, milli-mənəvi dəyərlərin təbliğinə xüsusi fikir verməyin vacibliyini vurğulayıb, virusun simptomları, müasir müalicə metodları barədə məlumatları iştirakçıların diqqətinə çatdırıblar.

Sonda İİV/QİÇS üzrə ilkin yoxlamaların aparılması və erkən diaqnostikanın təmin olunması məqsədilə tələbələrdən könüllü şəkildə qan nümunələri götürülüb.

# BDU-nun əcnəbi tələbələri Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər



***Noyabrın 8-də BDU-nun bir qrup əcnəbi tələbəsi 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Fəxri xiyabanı ziyarət edib.*** Onlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə gül dəstələri qoyub, onun əziz xatirəsini dərin ehtiramla yad ediblər. BDU-nun əcnəbi tələbələrinə Ulu Öndərin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, müstəqilliyimizin qorunması yolunda gördüyü misilsiz xidmətlər barədə ətraflı məlumat verilib.

Daha sonra tələbələr Şəhidlər xiyabanını ziyarət ediblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub. Ziyarət zamanı BDU-nun əcnəbi tələbələri Azərbaycanın haqq savaşı, Vətən müharibəsi və Zəfər Günü ilə bağlı məlumatlandırılıblar.

# BDU-nun SABAH qruplarının tələbələri üçün "Uşaq ədəbiyyatında zəfər" adlı tədbir keçirilib

*Noyabrın 7-də BDU-nun SABAH qruplarının "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasının IV kurs tələbələri üçün "Libraff" kitab evində "Uşaq ədəbiyyatında zəfər" mövzusunda tədbir keçirilib.*



Tədbir SABAH qruplarının müəllimi Aygün Bağırlının rəhbərliyi ilə "Dərsliklər və uşaq ədəbiyyatı" fənninin tədrisi çərçivəsində təşkil olunub.

Tədbirdə uşaq ədəbiyyatı yazarları – filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu, Mina Rəşid, Nərminə Məmmədzadə, Ayna Asim, eləcə də "Üç alma" nəşrlər evinin nümayəndəsi Arzu Cəfərova iştirak ediblər.

Professor Rafiq Yusifoğlu çıxışında Zəfər tariximizdə gənclərin rolundan söz açıb. O, xalqımızın qələbəsindən sonra cəmiyyətdə formalaşan inam və ruh yüksəkliyindən danışaraq, şanlı Zəfərimizə həsr etdiyi əsərləri barədə məlumat verib.

Yazar Mina Rəşid Qarabağda keçən uşaqlıq illərindən, doğma yurdunun işğalı zamanı yaşadığı xatirələrdən danışıb, Qarabağ həsrəti və zəfər sevinci mövzusunda yazdığı şeirlərini səsləndirib. Nərminə Məmmədzadə müharibənin ən məsum zərərçəkmişləri olan uşaqların dilindən yazılmış məktublardan ibarət "Vida" əsəri haqqında məlumat verib. Gənc yazar Ayna Asim isə özünün "Zəfər günü" əsərini ifa edib.

SABAH qruplarının tələbələri də tədbirdə vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Sonda "Üç alma" nəşrlər evinin nümayəndəsi Arzu Cəfərova "TEAS Press" nəşriyyatında zəfər mövzusunda nəşr edilmiş uşaq ədəbiyyatı nümunələri haqqında iştirakçılara məlumat verib.

# BDU-nun Prezident təqaüdçüsü üçün uğur formulu: "Çalışmaq, intizam və inam"

***Noyabrın 13-də BDU-nun 16 tələbəsi Prezident təqaüdünə layiq görülüb. Onlardan biri də Hüquq fakültəsinin tələbəsi Nuray Muradlıdır. O, 2025-ci ildə Bakıda fəaliyyət göstərən Kəlbəcər rayon Aşıq Şəmşir adına 12 nömrəli tam orta məktəbi bitirib və 682 balla BDU-nun Hüquq fakültəsinə qəbul olub. Uşaqlıqdan detektiv kitablara həvəsi olan Nuray bu ixtisası həmin vaxtdan istədiyini deyir:***

- Uşaqlıqdan araşdırmağa, detektiv əsərlərə, filmlərə marağım olub. Buna uyğun ixtisas da hüququ görürdüm. Aşağı siniflərdən BDU-nun Hüquq fakültəsinə qəbul olmaq hədəfim idi. "Hüquqşünaslıq" ixtisası mənim üçün arzudan da üstündür.

***-Nuray, hazırlıq prosesində sənə ən çox dəstək olan kim olub?***

- Məni bu müddətdə ən çox dəstəkləyən müəllimim - anam olub. Nə vaxtsa həvəsdən düşsəm, məni həmişə dəstəkləyirdi, bacaracağıma inandırırdı.

***- Səncə, inanmaq uğurlu olmaq üçün vacibdir?***

- Əlbəttə, mən bu universitetə, istədiyim ixtisasa qəbul olacağıma çox inanırdım. Hətta hər yerə yazırdım ki, Muradlı Nuray, gələcəyin hüquqşünası. Altından da xətt çəkirdim. Buna inanırdım. Amma tək inanmaqla uğurlu olmaq mümkün deyil, əlbəttə. Bu müddətdə çox çalışmışam. Dərslərimə qarşı intizamlı idim. Çalışmaq, intizam və inam - uğuru belə ifadə edərdim. Qəbul imtahanlarına hazırlıq dövründə sosial həyatım demək olar ki, yox idi. Axşam saat 10-dək dərslərimlə məşğul olurdum. Hətta hobbilərimi dərslərimə uyğunlaşdırmağa çalışırdım, musiqilərə ingiliscə qulaq asırdım ki, imtahanda ingilis dilimdən kömək olsun.

***-BDU-ya qəbul olduğun xəbərini eşitdikdə hansı hissləri keçirdin? Təəssüratların necə oldu?***

-Çox sevindim. Həmin vaxt bildirişlər çox olur deyə insan səbirsiz olur. Amma qəbul olduğumu görəndə tamam fərqli hisslər keçirdim. Elə Prezident təqaüdünə layiq olduğum xəbərini eşidəndə də. Mənim xəbərim olmamışdı, bir-iki saat sonra qrup yoldaşım məni təbrik etdi, onda bildim ki, təqaüdə layiq görülmüşəm.

***- Universitetə hazırlıq müddətində həvəsdən düşdüyün məqamlar olurdu? Özünü necə ilhamlandırırdın?***

- Bakı Dövlət Universiteti mənim üçün ən doğma məkanlardandır. Mən BDU-da oxuyan tələbələrin, bitirən məzunların videolarını izləyirdim, özümü onların yerində görürdüm. Nə vaxtsa həvəsdən düşsəm, tez-tez özümə deyirdim, "mən gələcəyin ən yaxşı hüquqşünaslarından biri olacam...". Qəbul imtahanı ərəfəsində Universitetin önündən keçirdim, məzunlar şəkil çəkdirirdilər. Onların təlaşını görüb çox həvəslənmişdim.

***-Artıq bir neçə aydır ki, dərslərin başlayıb, təəssüratların necədir?***

-Dərslər çətindir, amma adaptasiya müddətim çox uzun çəkmədi. Burada istədiyim tələbəlik mühitini tapdığımı deyə bilərəm.

***-Gələcəkdə hüququn hansı sahəsində ixtisaslaşmaq istəyirsən?***

-Hüquq çoxşaxəli ixtisasdır. Mənim yönəlmək istədiyim istiqamət prokurorluqdur. Düşünürəm ki, mən bunu bacaracam.

*Hazırladı: Nuran Yaqubova*

# BDU tələbələri akademik Yusif Məmmədəliyevin Memorial Muzeyində

***Noyabrın 19-da Kimya fakültəsinin tələbələri Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə dünya şöhrətli kimyaçı alim, akademik Yusif Məmmədəliyevin Memorial Muzeyinə ekskursiya ediblər. Ekskursiya alimin 120 illik yubileyinə həsr olunan tədbirlər silsiləsinin bir hissəsi olaraq təşkil edilib.***

Tələbələr muzeyin iki əsas ekspozisiya otağını ziyarət edib, akademik Yusif Məmmədəliyevin həyat və yaradıcılığı, neft kimyası sahəsində formalaşdırdığı elmi məktəb, əldə etdiyi mühüm nailiyyətlər, şəxsi arxiv materialları və qiymətli eksponatları ilə tanış olublar. Ekskursiya zamanı tələbələrə görkəmli alimin Azərbaycan, eləcə də dünya kimya elminə verdiyi töhfələr haqqında ətraflı məlumat verilib.

Tələbələr muzeydə alimin fəaliyyətinə həsr olunmuş sənədli filmi də izləyiblər. Filmdə Yusif Məmmədəliyevin elmi dünyagörüşü, kimya sənayesinin inkişafına verdiyi töhfələr, neft emalı proseslərinə tətbiq etdiyi yeniliklər və ölkənin kimya üzrə kadr potensialının formalaşmasındakı rolu geniş əks etdirilib.

# BDU komandası "50-ci ICPC – Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin yarımfinalına vəsiqə qazanıb

***BDU-nun komandası "50-ci ICPC – Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin Azərbaycan üzrə regional mərhələsinin qalibi olub. Müsabiqə ICPC Azərbaycan İcması, Azərbaycan Texniki Universiteti və ADA Universitetinin təşkilatçılığı, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin tərəfdaşlığı ilə keçirilib.***

BDU komandası 50-ci Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin Şimali Avrasiya üzrə final mərhələsinə (dünya üzrə yarımfinal) və Cənubi Qafqaz Açıq Çempionatında (komanda və fərdi nominasiyalar üzrə) iştirak etmək hüququ əldə edib.

Azərbaycan Texniki Universitetində təşkil olunan müsabiqədə Azərbaycanın 20 ali təhsil müəssisəsindən 52 komanda (hər biri üç tələbə və bir komanda rəhbərindən ibarət olmaqla), həmçinin müsabiqədənkənar 3 məktəbli komandası iştirak edib. Komandalara 5 saat ərzində 12 alqoritmik məsələni C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək və bu həlləri avtomatik qiymətləndirmə sistemində sınaqdan keçirmək tapşırığı verilib. Müsabiqənin nəticələrinə əsasən, BDU komandası üçüncülüklə qalib olub. Komandamız 15–17 dekabr 2025-ci il tarixlərində Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçiriləcək "50-ci ICPC – Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin yarımfinal mərhələsində və Cənubi Qafqaz Açıq Çempionatında (komanda və fərdi nominasiyalar üzrə) ölkəmizi təmsil edəcək 21 komandadan biri olub.

# BDU-nun I kurs tələbələri təhsil tələbə kreditinin verilməsi qaydaları barədə məlumatlandırılıb

***Noyabrın 24-də Təhsil Tələbə Krediti Fondunun (TTKF) nü-mayəndələri BDU-nun I kurs tələbələri ilə görüş keçiriblər.***



Görüşdə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov BDU və TTKF-nin birgə əməkdaşlıq layihələrindən danışıb, BDU-da təhsil alan tələbələri Fondun layihələrində fəal iştirak etməyə çağırıb.

Fondun nümayəndəsi Günay Xəlilova tələbələrə TTKF-nin fəaliyyəti və təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib. Bu layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını vurğulayıb, tələbələri dövlətin yaratdığı imkandan yararlanmağa çağırıb. O qeyd edib ki, TTFK-nin əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır. Görüşün sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Hüquq fakültəsinin tələbələri Milli Məclisin fəaliyyəti ilə tanış olublar



***Noyabrın 27-də Hüquq fakültəsi ilə Milli Məclis (MM) Aparatının birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” çərçivəsində maarifləndirici tədbir keçirilib.***

Tələbələr MM-in plenar iclaslarının keçirilmə prosesi, iclasların prosedur qaydaları və səsvermə mexanizmi haqqında məlumatlandırılıb, daha sonra iclas zalı ilə tanış olublar. Tələbələr həmçinin Ümummilli Lider Heydər Əliyevə həsr edilmiş muzeyi və Vətən müharibəsinə ithaf olunan “Zəfər Bucağı”nı ziyarət ediblər.

MM-in Aparat rəhbəri Fərid Hacıyev tələbələrlə görüşərək, onları Milli Məclisin sədri Sahibə Qafarovanın adından salamlayıb, “Konstitusiya və Suverenlik İli” çərçivəsində keçirilən tədbirlər barədə məlumat verib. O, “Ümummilli Lider Heydər Əliyev – müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda geniş təqdimatla çıxış edərək, konstitusiya quruculuğunun tarixi inkişaf mərhələləri, Ulu Öndərin dövlətçilik ənənələrinin möhkəmləndirilməsində rolu və 1995-ci il Konstitusiyasının hazırlanması prosesindən bəhs edib.

Hüquq fakültəsinin dekanı Zaur Əliyev müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin ilk milli və hüquqi Konstitusiyanın müəllifi olduğunu vurğulayıb. O qeyd edib ki, Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra atdığı ilk mühüm addımlardan biri ölüm hökmünün icrasının dayandırılması olub, bu, böyük humanizm nümunəsi kimi tarixə düşüb. Dekan çıxışında həmçinin Konstitusiya layihəsini hazırlayan İşçi qrupunda Hüquq fakültəsinin müəllimlərinin təmsil olunmasının fakültə üçün xüsusi qürur olduğunu vurğulayıb. Zaur Əliyev bu cür maarifləndirici tədbirin təşkilinə göstərilən dəstəyə görə Milli Məclis rəhbərliyinə təşəkkürünü bildirib.

Dekan əlavə edib ki, Ümummilli Liderin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və insan hüquqlarının qorunması dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Tədbirdə Hüquq fakültəsinin tələbələri də çıxış edərək öz təəssüratlarını bölüşüblər. Onların sözlərinə görə, bu görüş parlamentarizm ənənələrinin öyrənilməsi və praktiki biliklərin artırılması baxımından çox faydalı olub.

Tədbirdə həmçinin Mülki proses və kommersiya hüququ kafedrasının müdiri Əsmər Əliyeva və Milli Məclis Aparatının digər məsul əməkdaşları iştirak ediblər.

# BDU-da “Zəfər” konsert proqramı

***Noyabrın 3-də Bakı Dövlət Universitetinin “BDU könüllüləri” təşkilatının “KönüllüBand” musiqi klubunun təşəbbüsü və BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin dəstəyi ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “Zəfər” konsert proqramı təşkil olunub.***



BDU-nun rektoru Elçin Babayev tələbə və müəllimləri qürur və şərəf bayramı olan Zəfər Günü münasibətilə təbrik edib. O diqqətə çatdırıb ki, bu qələbə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Ordumuzun şücaəti, xalqımızın vəhdəti ilə qazanılıb. Zəfər Günü gələcək nəsillərə vətənpərvərlik və azadlıq uğrunda əbədi mübarizə ruhunu ötürür. Daha sonra rektor konsert proqramında iştirak edən Xalq artisti Alim Qasımova, Əməkdar artistlər Elnarə Abdullayeva və Fərqanə Qasımovaya təşəkkürünü bildirib.

Proqramda çıxış edən xüsusi qonaqlar - Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımova “Azərbaycan himni” və “Qarabağ türküsü”, Əməkdar artist Elnarə Abdullayeva “Naçar gedər”, “Azərbaycan” mahnılarını ifa ediblər. BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin solistləri və rəqs qrupu, “KönüllüBand” musiqi klubunun üzvləri “Sən qalibsən!”, “Xudayar təsnifi”, “Qarabağ”, “Azərbaycan” adlı musiqi, “Qavalla rəqs”, “İgidlər rəqsi” nömrələri ilə çıxış ediblər. Zəfər əhval-ruhiyyəli konsert proqramı gənclərin böyük marağına səbəb olub.

# Bu gün Beynəlxalq Tələbələr Günüdür

***17 noyabr - Beynəlxalq Tələbələr Günü kimi qeyd olunur.***

Beynəlxalq Tələbələr Günü tələbələrin beynəlxalq həmrəyliyi günüdür. Bu bayram tələbə gənclərin sevincli bir bayramına çevrilsə də, onun yaranma tarixi faciəli hadisələrlə bağlıdır. Bu bayram 1941-ci ildə faşizmə qarşı mübarizə aparan tələbələrin Londonda keçirilən beynəlxalq toplantısında vətənpərvər çex tələbələrinin xatirəsinə ehtiram əlaməti olaraq təsis edilib.

1939-cu il noyabrın 17-də alman faşist işğalçılarının Çexoslovakiya Tələbələr İttifaqının rəhbərlərinin çoxunu həbs edərək güllələməsindən sonra mindən çox tələbə və ali məktəb müəllimi əsir düşərgələrinə göndərilib, ali məktəblər bağlanıb. Bu kədərli hadisənin fonunda Beynəlxalq Tələbələr Günündə ali məktəblərdə təhsil alan gənclərin həmrəyliyi, birliyi və bütövlüyü əsas mahiyyəti təşkil edir.

Məlum olduğu kimi, Azərbaycanda ilk tələbə gənclər hərəkatının formalaşması XIX əsrin sonu, XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Avropada və Rusiyada təhsil alan azərbaycanlı tələbə gənclər Azərbaycanda təşəkkül tapan demokratik hərəkatın əsas hərəkətverici qüvvəsinə, mütərəqqi ictimai-siyasi fikrin başlıca daşıyıcılarına çevriliblər. XX əsrin əvvəllərində Azərbaycanda ictimai fikrin, elmin, təhsilin, mətbuatın, ədəbiyyatın yeni yüksəlişində, teatr, incəsənət, musiqi mədəniyyətinin təşəkkül tapmasında da tələbə gənclərin böyük xidmətləri olub. Müxtəlif dövrlərdə tələbə gənclərlə bağlı həyata keçirilən uğurlu dövlət siyasətinin nəticəsi olaraq Azərbaycanda tələbə gənclər hərəkatı daha da inkişaf edib, gənclərin ictimai-siyasi fəallığı artıb, onların ölkənin idarə olunmasında, ictimai həyatda iştirakı daha da genişlənib.

Əsasını Ümummilli Lider Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasəti dövlətin əsas prioritetlərindən biridir. Bu gün Azərbaycanda tələbə gənclərə hər cür diqqət göstərilir, onların maddi rifahının və inkişafının qeydinə qalınır, gələcəyin sağlam vətəndaşlarının yetişməsi üçün insan kapitalının artırılmasına xüsusi diqqət yetirilir.

Azərbaycan gəncləri Dövlət Proqramları vasitəsilə dünyanın ən nüfuzlu universitetlərinə təhsil almağa göndərilir, ölkədə tələbələrin şəxsi inkişafının və sosial rifahının yüksəlməsi üçün müxtəlif layihələr həyata keçirilir.

Ölkəmizin bütün gəncləri kimi, 25 minlik tələbə kontingentinə sahib Bakı Dövlət Universiteti də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməkdədir. Tarixən Azərbaycana görkəmli siyasi xadimlər, alim və ziyalılar bəxş etmiş Azərbaycan təhsilinin flaqmanı Bakı Dövlət Universitetinin tələbə gəncləri hər zaman dövlətçiliyə bağlı, milli ruhda yetişib, ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılması və möhkəmləndirilməsində yaxından iştirak ediblər. BDU-da “BDU könüllüləri”, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, Tələbə Elmi Cəmiyyəti kimi aktiv gənclər təşkilatları fəaliyyət göstərir. Son illər BDU-da tələbələrin daha da səbəkələşməsi üçün “Tələbə məkanı”, Tələbə İnkişaf Mərkəzi açılıb. BDU tələbələri Universitetin elm, təhsil mühitinin və sosial həyatının aparıcı qüvvəsidir. Əminik ki, tələbələrimiz ölkəmizin daha da qüdrətlənməsinə, ölkə başçısının uğurla həyata keçirdiyi gənclər siyasətinə bundan sonra da öz layiqli töhfələrini verəcəklər.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.11.2025

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08